ЗУМРУД КУЛИЗАДЕ

КОНЦЕПТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИССЛЕДОВАНИЯ СОЦИОКУЛЬТУРНОГО РАЗВИТИЯ (КОНЕЦ XX-НАЧАЛО XXI ВВ.)



ЗУМРУД КУЛИЗАДЕ
КОНЦЕПТУАЛЬНЫЕ ПРОБЛЕМЫ
ИССЛЕДОВАНИЯ СОЦИОКУЛЬТУРНОГО
РАЗВИТИЯ (КОНЕЦ XX-НАЧАЛО XXI ВВ.)
II

ЧАСТЬ II

ФИЛОСОФИЯ И ИСТОРИЯ ФИЛОСОФИИ В СИСТЕМЕ НАУКИ И ОБРАЗОВАНИЯ

РАЗДЕЛ I
ФИЛОСОФИЯ И ИСТОРИЯ ФИЛОСОФИИ В СИСТЕМЕ НАУКИ

Теоретические и практические проблемы философии. Поиск конструктивных решений

Общеизвестны место и значимость марксистской философии в системе социалистической культуры и государственной политики бывшего СССР и входившей в его состав Азербайджанской Республики. Материалистическая

диалектика была единственной методологической основой всех исследований и прежде всего исследований в области гуманитарных наук, в лоне которых она родилась и главенствовала. Она являлась также основой и всех видов образования, и преподавалась в составе отдельных предметов в старших классах средней школы, в вузах и аспирантуре.

Материалистическая диалектика была фундаментом чрезвычайно разветвленной государственной системы идеологической пропаганды, использующей множество форм и методов для выработки единого мировоззрения у целенаправленно формируемого советского народа, частью которого было и население Азербайджана.

Образование на месте СССР новых, политически самостоятельных государств, ориентированных в социально-экономическом развитии на многоукладность в экономике со всеми обусловленными ею позитивными и негативными последствиями, привели к отказу от марксистско-ленинской философии и методологии как господствующей и единственной основы идеологической жизни новостроящегося общества.

Наступил так называемый «переходный» период – время поиска нового во всех областях социокультурной жизни. Перед философами встала задача оценки, переоценки и переосмысления своих позиций, а также разработки новой методологии, либо методологий. Проблема эта сверхсложная, ибо требует ломки мировоззренческих конструкций, десятилетиями закреплявшихся в сознании общества, в его руководящих структурах. Ломать этот идеологический фундамент и создавать ему альтернативу должны были люди, воспитанные и получившие образование на основе марксистской методологии, и прежде всего профессиональные специалисты в области гуманитарных дисциплин, в том числе философии.

Специфика ситуации требует синхронности перестройки в исследовательской и преподавательской работе.

Актуальность и сверхсложность проблемы не вызывает сомнений. Объясним и затяжной характер поисков. Однако время идет, и философия

остается одним из основных объектов не только исследования, но и повсеместного (в вузах, аспирантурах, на курсах переподготовки и т.д.) преподавания. Нерешаемые проблемы, в том числе выбор методологических позиций, оценочных критериев и т.д., обусловливают критическую ситуацию в области гуманитарных наук и прежде всего самой философии. Последняя проявляется:

1. В неоднозначном отношении к марксистской философии со стороны ряда исследователей и преподавателей, которые, огульно отрицая ее на словах, в той или иной форме используют на практике как в своих исследованиях, так и в процессе преподавания.

2. В отсутствии научной литературы, учебников, пособий, в которых переосмыслены старые стереотипы, а также в отсутствии научно-критического анализа литературы последних «поисковых» лет, особенно той, что издается на спонсорские средства и не проходит предварительной научной апробации.

3. В отсутствии соответствующей времени творческой научной обстановки, проявлениями которой являются:

a) стихийность, порою низкоуровневая кустарщина, представляемая как плюрализм позиций и обусловленная, якобы пришедшей на смену господствующей ранее в науке и образовании «железной дисциплины», свобода творчества;

b) отсутствие относительно унифицированных программ, наличие самодеятельности при опросах (формах экзаменов), при единых стандартах оценок, по существу лишающих объективной ценности выдаваемые аттестаты и дипломы;

c) проблемы в области повышения профессиональной квалификации преподавателей, обусловленные как объективными, так и субъективными организационными причинами;

d) отсутствие переводов первоисточников, особенно философских произведений XX в., на азербайджанский язык.

Изложенные выше проблемы, несмотря на всю сложность своего решения в нынешней ситуации, тем не менее должны решаться. И решаться быстро.

Для этого необходимо оперативно объединить усилия государственных и частных научных и учебных структур, создать творческую обстановку в стране, заново продумать концепцию науки и образования в области гуманитарных наук, относительно унифицировать программы преподавания, оценочные критерии и т.д., разработать вопросы методологии и методики исследования и преподавания.

Учитывая актуальность большинства перечисленных вопросов для стран постсоциалистического региона, возможно, целесообразна была бы определенная научная координация позиций с научным миром «ближнего» и «дальнего зарубежья».

Контакты с представителями мировой науки, изучение их системы образования способствовали бы ускоренному развитию азербайджанской науки и обеспечили бы в дальнейшем признание республиканских сертификатов об образовании за рубежом.

Таковы некоторые актуальные проблемы, стоящие перед философией, ее исследователями и преподавателями в Азербайджане.

Баку, 1996 год

MƏNƏVİ MƏDƏNİYYƏTİN UNİVERSAL FENOMENLƏRİ: MİSTİKA VƏ PANTEİZM

Mistika mənəvi mədəniyyətin universal fenomeni kimi (XXI əsrin qovşağında mistika fenomeninin tərifi, fəlsəfi təfsiri və mədəniyyət tarixində yerinə dair)

Ən qədim zamanlardan bu günümüzədək mövcud olan və bəşəriyyətin bundan sonrakı sosiomədəni tarixində mövcud olmaq üçün potensial imkana malik mistikaya mədəniyyət tarixi boyunca bir çox təfsir və təriflər verilib. Həmin təriflərin böyük bir hissəsi bu fenomenin neqativ qiymətləndirilməsi ilə fərqlənir.

Təbiidir ki, mistika, ardıcıl rasionalizmə təmayüllü fəlsəfə tərəfndən qəbuledilməz idi; həmçinin o, din baxımından da qəbul edilmirdi, çünki dinin məkanına daxil olaraq insanın bu və ya digər dərəcədə Tanrı ilə bərabər imkan və haqlarına iddia edirdi. Məhz bu səbəblərə görə uzun əsrlər boyu mistika məzəmmət və təqib obyekti olub.

Mistikanın müasir dövrdə, xüsusilə XXI əsrin başlanğıcında, habelə gələcək mədəniyyətdəki yeri və əhəmiyyətinin təhlilinə keçməzdən əvvəl bu tarixi fenomenin mədəniyyətşünaslıq və xüsusən fəlsəfədə mövcud anlamlarının, ona verilən təriflərin məzmunu haqda təsəvvürümüzü açıqlamağa cəhd edək.

Mistikaya tarixən verilən təyin və dəyərləndirmələrdə olan məzmun müxtəlifliyi, həmçinin qlobal mədəniyyətşünaslıqda onun interpretasiyaları və rolunun qiymətləndirilməsi zaman və konkret mədəni mühitin xüsusiyyətləri ilə şərtlənib.

Bir qayda olaraq, bir qisim təriflər onun həm nəzəri, həm praktik ifadə formalarını - müxtəlif fal formaları, magiya, şamanizm, Tanrı ilə birləşmə və vəhdətə dair müxtəlif səviyyəli təlimləri əhatə edib və etməkdədir. Digər qisim isə - anlayışın yalnız nəzəri, dini-fəlsəfi məzmunuнy ehtiva edir.

Ötən əsr və bu əsrin başlanğıcındakı elmi və xüsusən arayış səciyyəli ədəbiyyatda mistikanın tərifləri əsasən onun nəzəri tərəfini vurğulayır, bu isə fikrimizcə, haqsız olaraq hadisənin mahiyyətilə şərtlənən məzmununu daraldır.

Məsələn, F.A.Brokhauz və N.A.Yefronun Ensiklopedik lüğətində (SP., 1896, s.37. Məqalənin müəllifi V.Solovyovdur) oxuyuruq: «Mistisizm, mistika - həqiqətin dərkinin fövqəltəbii üsullarına (təcrübə, abstrakt mühakimə, rəvayətə) imkan verən fikirlərin istiqaməti, dərk edən subyektin ilahi ilə birbaşa ünsiyyət imkanıdır».

V.Dalin lüğətində («Rus dilinin canlı izahlı lüğəti». C. 1-4, M., 1863-66) isə mistika sirli, müəmmalı, fövqəltəbiiliyi haqda; inanc və ayinlərin eyhamlı mənası haqqında təlim kimi təyin olunur.

D.N.Uşakovun lüğətində («Rus dilinin izahlı lüğəti». C. 1-4, M., 1935-40.) «Mistika - insanın «o dünya» adlanan aləmlə bilavasitə ünsiyyətinə dini inamdır» yazılıb.

«Sovet Ensiklopedik Lüğəti»ndə (M., 1981) mistika - məqsədi ekstaz halında Tanrıyla bilavasitə vəhdətdə olmağa yönəlmiş dini praktika, həmçinin «bu praktikaya bəraət qazandıran və onu dərk edən nəzəri və fəlsəfi doktrinaların məcmuu» kimi təyin olunur. Elə oradaca mistisizm - fəlsəfi doktrina kimi, intuitivizm və irrasionalizmin bir növü kimi şərh edilir.

«Fəlsəfə ensiklopedik lüğəti» (M., 1983. Məqalənin müəllifi S.S.Averintsevdir) mistikanı «məqsədi ekstaz vəziyyətində Mütləqlə birləşmək olan dini praktika, həmçinin bu praktikaya bəraət qazandıran, onu mənalandıran və tənzim edən nəzəri və fəlsəfi doktrinalar məcmuu» kimi təyin edir. S.S.Averintsevin qeyd etdiyi kimi, «mistikanın tarixi analoqu və timsalını qədim zamanlarda məqsədi insanla ruhlar və tanrılar aləmi arasındakı məsafəni ekstatik yolla götürmək olan şaman-orgiya kultlarında görmək mümkündür. Lakin mistika sözün əsl mənasında yalnız o zaman meydana çıxır ki, dini mühakimə transendent Mütləq anlayışına yaxınlaşır, məntiqin inkişafı isə şüurlü surətdə məntiqdən mistikaya geridönməni mümkün edir». Ona görə də yazdığı kimi mistikanın ən erkən çiçəklənməsi fəlsəfə və məntiq mədəniyyətinə malik ölkələrdə baş verir.

«Yeni ensiklopedik lüğət»də oxuyuruq ki, «mistika - Tanrı ilə ekstatik vəhy aktında yaşanan bilavasitə fövqəltəbii ünsiyyət və vəhdət əldə etməyə yönəlmiş sakral dini praktika, həmçinin bu praktikanın konseptualizasiya və nizamlanmasını qarşısına məqsəd qoyan teoloji doktrinalar sistemidir». (Mn., 2003, «Kitab evi» nəşriyyatı).

«Din ensiklopediyası»nda (Mn., 2007, «Kitab evi» nəşriyyatı) mistika dini-teist tipli dinlərdə ekstatik yaşanan vəhy aktında Tanrı ilə bilavasitə fövqəlhissi birləşmə əldə edilməsinə yönəlmiş praktikadır.

«Xarici sözlər lüğəti»ndə (M., 1981. 7-ci, yenidən işlənmiş nəşrin xüsusi elmi redaktəsi SSRİ EA-nın müxbir üzvləri, fəlsəfə elmləri doktorları A.Q.Spirkin,

Y.A.Akçurin və fəlsəfə elmləri doktoru R.S.Karpinskayaya məxsusdur) mistika (yunan. «mystika» - sirli ayinlər, sirlilik):

1. Fövqəltəbiiliyə inam, sirli, ilahi; insanın o biri dünya ilə birbaşa ünsiyyətinin mümkünlüyünə inam; mistika - bütün dini inancların ayrılmaz elementidir;

2. Sirli, anlaşılmaz, izaholunmaz nə isə.

Beləliklə, gətirdiyimiz təriflərin əksəriyyəti mistikanı əsasən ancaq dinlə bağlayır və onu dini-fəlsəfi təlimlərdə əksini tapmış insanı Tanrı ilə birləşdirən mənəvi idrak prosesi kimi təsvir edir.

Həmin təsvir və təriflərin təbiiliyini tarixən din və xüsusən vahid Tanrı ideyasının yaranması və onların müxtəlif çoxsaylı panteist yönümlü konseptual mülahizələr və ya bidətçi dini-fəlsəfi təlimlər şəklində təfsirlərinin meydana gəlməsi işığında izah etmək olar.

Lakin bu təriflərdə mistika anlayışının obyektiv daha geniş olan məzmunu daralmırmı?

Elmi tərifin məntiqinə müvafiq olaraq, zənnimizcə, mistikanın tərifi təkcə fenomenin struktur komponentləri - falabaxma, cadugərlik, magiya, şamanizm, insanın, təbiətin ilahiləşdirilməsi haqda ideya və ya nəzəri sistemlərin sadalanması ilə məhdudlaşmayıb, həmin komponentlərin yaranmasına gətirib çıxarmış səbəbi də ehtiva etməlidir. Həqiqətənmi, məsələn, S.S.Averintsevin bildirdiyi kimi, qədim zamanların şaman-orqiastik kultları mistikanın yalnız örnəyi, ilk nümunəsidir? Və ya «Xarici sözlər lüğəti»ndə bildirildiyi kimi, mistikanın ikinci mənası yalnız, sadəcə «öz-özlüyündə sirli, anlaşılmaz, izaholunmaz»dır demək kifayətdirmi? Bəs bu sirlini başa düşmək, ona təsir etmək, insanın öz praktik maraqlarına uyğun olaraq bu sirli ilə hansısa əlaqəyə girmə cəhdini mistika anlamı ehtiva etmirmi?

Mədəniyyət tarixinin başlanğıcına müraciət edək və insanın dünyanı dərk və əks etdirmə formalarını təmsil edən mistika və mistisizmin yaranmasını izləməyə çalışaq.

İbtidai insan üçün onu əhatə edən naməlum dünyada bütün onun tərəfindən dərk edilməyən və onun iradəsinə tabe olmayan nə varsa qorxunc və sirli idi.

Ətrafın təzyiqedici gücü qarşısında öz zəifliyini hiss və dərk edən insanda özünümüdafiəyə zəruri tələbat yaranır. Bu tələbatın nəticəsi – insanın minerallara, bitkilərə, heyvanlara, yer və səma cisimlərinə fövqəltəbii güc verməsi, müxtəlif fetiş və totemlərin meydana çıxması oldu. İnsan şüuraltı, intuitiv hami və xilas yolu axtararaq öz imkanlarını və təşəbbüslərini özgələşdirdi.

Daha sonra təbii təkamül prosesində insanın şüurunda haçansa İlahi və yeganə Tanrı ideyası yaranır və o öz xilası və əmin-amanlığının müvəffəqiyyəti naminə əvvəllər başqa qüvvələrə verdiyi imkan və təşəbbüsləri bir daha özgələşdirir. Fetiş və totemlərə inamını tam itirməyən, bu inamı müəyyən dərəcədə saxlamaqda olan insan dünyanın və özünün yaradılışı üçün təşəbbüsü Tanrıyla bağlayır və qəyyumluq hüququnu ona verir. O, tanrıların, yaxud yeganə Tanrının bu və o dünyada sonsuz qüdrətə malik olmasına inanaraq, onlara özü üzərində hakimiyyəti, özünü bu və ya o biri dünyada cəzalandırmaq və mükafatlandırmaq haqqını da həvalə edir.

Lakin öz zəifliyinin dərkindən gələn və onu tam itaət və fəaliyyətsizliyə məhkum edən hüquq və imkanlarını özgələşdirməsi düşünən və təbiətinə görə fəal varlıq olan insanı təmin edə bilməzdi.

İmkan və təşəbbüslərini həvalə etdiyi varlıqların onun problemlərini arzularına uyğun həll edə bilmədiyini görən insan fəaliyyət göstərmək və hansısa səviyyədə öz problemlərini həll etmək, yaxud onların həllində iştirak etmək tələbatı hiss edir. Bu məqsədlə o sirlər sahəsinə daxil olur və özü tərəfindən özgələşdirilmiş imkan və təşəbbüslərini bu və ya digər formada «geri götürür» («özəlləşdirir»).

Məhz bu yolla mistikanın - cadu, magiya, şamanlıq və qeyri-ortodoksal dini-fəlsəfi cərəyanlarda təcəssüm formaları yaranır ki, həmin formalarda vahid varlıqda mövcud olan bir-birinə zidd maddi və ideal, rasional və irrasional, xeyir və şər, İlahi və insani iradə və s. ahəngdar surətdə birləşirlər.

Dində axtardığı kimi,mistikada da insan xilas yolu axtarır, lakin əgər insanı itaətə çağıran dində o daha çox Allaha və Hikməti-İlahiyə bel bağlayırsa, mistikada insan ilahi alın yazısına fəal müdaxilə edir və İlahi iradəni insan iradəsilə, İlahi

qüdrəti insan qüdrətilə dəyişdirməyə cəhd edir; insan fəaliyyəti ilə bağlı olaraq mistika idrakın inkişafı prosesini təşviq edir (hər şeyi qızıla çevirən fəlsəfi daşın axtarılması prosesini xatırlayın).

Mistik-panteist təlimlərin irrasionalizmi varlığı metafizik əksliklərə bölən rasional yönümlü fəlsəfədən fərqli olaraq, bu əkslikləri dialektik surətdə birləşdirir və harmoniyada görür.

Söylənilənlərin işığında mistikanın tərifini aşağıdakı kimi təqdim etmək, bəlkə də, daha məqsədəuyğun olardı:

Mistika - rasional idrakın məhdudluğu nəticəsində idrak prosesində qanunauyğun şəkildə yaranmış və insanın yaşaması üçün zəruri, onun psixoloji özünütəsdiqi ilə şərtlənən, tarixən cadugərlik və magiyadan panteist teoloji-fəlsəfi konsepsiyalaradək müxtəlif praktik və nəzəri özünüifadə formalarında təzahür edən mənəvi mədəniyyətin universal fenomenidir.

İdrak prosesindən tarixən ayrılmaz olan mistikanın müxtəlif təzahür formaları fərd və cəmiyyətin düşdüyü gərgin situasiyalarda öz mövcudluqları üçün xüsusən əlverişli şərait əldə edirlər.

Mistikanın həyatiliyi, onun «əbədiliyi» idrak prosesinin sonsuzluğundadır. Rasional yolla dərkolunmaz, «sirli» hadisələr mövcud olduqca, mistikanın mövcudiyyəti üçün potensial imkan, irrasionallığa, intuitivə, varlığın idrakında «ağ ləkələri silməyini» digər qeyri-rasional yollarını aramaq meyli mövcud olacaq. Bu, təbii və labüddür. Təəccüblü deyil ki, cəmiyyətin bioloji, sosial və elmi həyatında baş verən gərgin, stresli situasiyalar mistikanın sahəsinin genişlənməsi üçün tarixən əlverişli şərait yaradıb və yaratmaqda davam edirlər.

XX əsrin sonu- XXI əsrin başlanğıcında mistika və mistisizmin genişlənməsi məlum sosial çaxnaşmalarla yanaşı, çoxsaylı elmi kəşflərin hələ rasional şərhi tapılmaması ilə bağlıdır.

İrrasional idrak - rasional idrakın gücsüzlüyünün, onun gücsüzlüyünü kompensə etmək cəhdinin törəməsidir.

Məlum olduğu kimi, mistika tarixən kamil nəzəri təzahür formalarını Şərq və Qərb mənəvi mədəniyyətlərinin panteist dini-fəlsəfi və fəlsəfi-dini

nəzəriyyələrində tapıb və tapmaqdadır. Lakin Şərqdə, xüsusən İslam bölgəsi mədəniyyətində bu nəzəriyyələr, bir qayda olaraq, «elmi- irfan» (mistika elmi) kimi tanınır və ancaq mistika tarixinə daxil olursa, Qərbdə onlar fəlsəfə tarixinin ayrılmaz hissəsi kimi təqdim edilir.

Digər tərəfdən, əgər Şərqdə mistik fəlsəfə əsrdən əsrə müntəzəm inkişaf edibsə, Qərbdə dəqiq elmlərin və «radikal rasionalizmin» çiçəklənməsinin müəyyən dövrlərində irrasionalizmlə və intuitivizmlə bilavasitə əlaqəli olan mistika birinciliyi rasionalist fəlsəfəyə verir (hərçənd, sonuncu da özündə əksər hallarda irrasionalizm məqamlarını ehtiva edib).

Hər halda XIX-XX əsrlərin Qərb fəlsəfəsi, çoxsaylı tanınmış Qərb filosoflarının fəlsəfi konsepsiyaları bir çox məqamlarda mistika, panteizm, irrasionalizm və aqnostisizm tərəfə kifayət qədər sərt dönüşlərilə fərqlənirlər.

Panteizmin müxtəlif təzahür formalarında əksini tapmış mistika, irrasionalizm, dindarlıq elementləri aşağıda adı çəkilən filosofların irsində aydın ifadə olunub:

Vilhelm Y. Şellinq (1775-1854) - «eyniyyət fəlsəfəsi» və ya «müsbət», yaxud «vəhy fəlsəfəsi»; filosofun obyekt və subyektin vəhdəti olan Mütləqin özünüseyrinə həsr etdiyi intellektual intuisiya haqqında təlimi;

İohan Qotlib Fixte (1762-1829) - 1800-cü ildən sonrakı əsərlərində «Mütləq Mən»dən deyil, «Mütləq Tanrı»yla eyniləşdirilmiş Varlıqdan bəhsi;

Fridrix Şlegel (1772-1829) - «sonsuzluğun panteist dinində» dünyanı əzəli «Mən»in fraqmentlərindən ibarət hesab etməsi;

Fridrix Şleyermaxer (1768-1834) – daxili təəssüratı «universumun seyri» olan dinin əsası hesab etməsi;

Seren Kyerkeqor (1813-1855) - insanı Tanrıya aparan pilləli (estetik, etik və dini) yol kimi antirasional ekzistensial dialektika haqqında təlimi;

Georq Vilhelm Fridrix Hegel (1770-1831) sisteminin triadası və müxtəlif konkret məsələləri: Mütləq Ruh, Dünya Əqli və onların inkişaf pillələri kimi dinlər və mədəniyyətlər; Dünya Ruhunun öz inkişafını din və mədəniyyətdə dərk etməsi vasitəsilə özünüdərki haqda təlimi; Mütləq ideyanın özünüdərki kimi məntiq

təlimi; fərdin Dünya Ruhunu dərk etmək mərhələlərini təqlid etməklə mənəvi inkişafı; dialektika haqda və s. görüşləri.

Güman edirik ki, gətirilən məlumat Hegel də daxil olmaqla, qərbmərkəzçi təmayül nümayəndələrinin İslam bölgəsi mənəvi mədəniyyətinin mistikliyi, irrasionallığı və dindarlığı səbəbindən burada fəlsəfənin mövcudluğunu inkaretmə cəhdlərinin əsassızlığını təsdiq edir.

Fikrimizi əsaslandırmaq üçün XIX-XX əsrlərdə yaşamış Qərb filosoflarının irsinə müraciət edək. Məlum olduğu kimi:

Martin Haydegger (1889-1976) təfəkkürü seyrlə yox, Şərq mistik mədəniyyətində də qəbul edilmiş mistik «eşitmə» ilə əvəz edib; yaradıcılığının sonunda zen-buddizmə və mistik seyrə meyilli olub;

Edmund Husserl (1859-1938) bilavasitə gerçəkliyə malik ideal mahiyyətlər (fenomenlər) haqqında nəzəriyyənin banisidir; iradəni dünyanın şüursuz başlanğıcı kimi qəbul edib;

Edvard Qartman (1842-1906) şüursuz dünya iradəsinin dünyanı yaratması haqqında volyuntarist, pessimist konsepsiya yaratmış;

Anri Berqson (1859-1941) rasionalizmə qarşı intuitiv dərketməni qoymuş;

Vilhelm Diltey (1833-1911), Georq Zimmel (1858-1918) və həyat fəlsəfəsinin başqa nümayəndələri «həyat» anlayışını psixolojiləşdirmiş və subyektivləşdirmişlər.

İrrasionalizm, dindarlıq və mistikaya dini (Karl Yaspers (1883-1969), Martin Buber (1878-1965) və b.) və ateist (Alber Kamyu (1913-1960), Yan Pol Sartr (1905-1980) və b.) ekzistensializm, Jak Maritenin (1882-1973), Etyen Anri Jilsonun (1884-1978) neotomizmi, Robin Kollinqvudun (1889-1943) yeni hegelçiliyi, Henri Rikkertin (1863-1936) yeni kantçılığı, Rudolf Şteynerin (1861-1925) 1913-cü ildə əsasını qoyduğu antroposofiyası və s. əsaslanıblar.

İrrasionalizm, mistika və dindarlıq S.N.Bulqakovun (1871-1944) sofiologiyasında, V.S.Solovyovun (1853-1900) ümumvəhdət fəlsəfəsində, N.A.Berdyayevin (1874-1948) «allahaxtarıcılığı», V.A.Bazarovun (1874-1939)

«allahquruculuğu» və digər rus fəlsəfəsi nümayəndələrinin irsinin mahiyyətindən ayrılmazdır.

İdrak prosesində və varlığa fəal təsir göstərərək insanın özünü təsdiq etməsində mistikanın əhəmiyyətinin adekvat dəyərləndirilməməsi, onun dinlə eyniləşdirilməsi və mədəniyyət tarixində neqativ səciyyələndirilməsi fəlsəfə və bütövlükdə mədəniyyət tarixinin təsvir və təfsirində mənfi rol oynayır.

Mistikanın antimədəniyyət kimi təqdimi Sovet dövründə fəlsəfə tarixinin şərhinə həsr olunmuş elmi ədəbiyyatda mistik məqamların təsvir və dəyərləndirilməsində olan təhriflərdə də özünü göstərib, burada onu ya kəskin ittiham, ya da mövcudluğuna belə göz yummaq vasitəsilə inkar ediblər.

Mistikaya neqativ münasibətlə, Azərbaycan da daxil olmaqla, sovet Şərqinin bir çox xalqlarının və bütövlükdə İslam bölgəsi mədəniyyət tarixlərinin şərhi və qiymətləndirilməsində də rastlaşırıq.

XX əsrin sonu- XXI əsrin əvvəllərində Qərb və rus (Annemari Şimmel «İslam mistisizmi dünyası». İngiliscədən tərcümə. M., 2000; A.D.Knış «Müsəlman mistisizmi». M.-SRb., 2004 və s.) tədqiqat ədəbiyyatında İslam mədəniyyətinə, xüsusən İslam mistisizminə maraq yaranması bəzi hallarda İslam mədəniyyəti bölgəsində mistika və fəlsəfənin qarşılıqlı əlaqəsinin o qədər də adekvat olmayan izahı ilə birləşir. Bu yanaşma regional mistik fəlsəfəni İslam bölgəsi fəlsəfəsinin hüdudlarından kənara çıxaran bir sıra Şərq tədqiqatları üçün də səciyyəvidir.

Hazırda, bəzi hallarda mistika və İslam möminliyi məqsədyönlü olaraq eyniləşdirilir. İslam bölgəsi xalqlarının milli mənəvi mədəniyyətlərində İslamın birinciliyini qəbul edən və eyni zamanda burada yayılmış mistik fəlsəfənin miqyasının genişliyini müşahidə edən regional mədəniyyətin bir sıra tədqiqatçıları mistikanı mahiyyət etibarilə dinlə eyniləşdirərək, onların daxilən birliyi haqda reallıqdan kənar mülahizələr irəli sürürlər.

Qeyd etməliyik ki, müasir dövrdə bütövlükdə postsovet məkanı ideoloji həyatında yaranmış vəziyyətlə əlaqədar mistikaya ifrat neqativ münasibət bir sıra hallarda ifrat pozitiv münasibətə dəyişib.

Təbii ki, elmi ictimaiyyət, xüsusən postsosialist bölgənin elmi ictimaiyyəti hazırda mistikaya və onun mədəniyyət tarixindəki yerinə olan münasibətə yenidən baxılması, bu sahədə mövcud olan problemlərin adekvat həllinin axtarılması zərurəti ilə üzləşib. Mistika fenomeninin dindən musiqiyə və təsviri incəsənətə qədər mənəvi mədəniyyətin müxtəlif sahələrində təzahürlərinin elmi-obyektiv tədqiqi hazırda elm qarşısında duran problemlərdəndir.

Gələcək tədqiqatlarda müxtəlif regionların mədəniyyətində mistikanın praktik və nəzəri formalarının və tarixi inkişaf qanunauyğunluqlarının müqayisəli struktur-tipoloji tədqiqi, mistik təlimlərdə rasional və irrasionalın vəhdəti; mistikanın idrak prosesində yeri və rolu, mistisizmin irrasionalizm və intuitivizmlə əlaqəsinin araşdırılması elmi baxımdan məqsədəuyğun olardı.

Mənəvi mədəniyyətin fenomeni olan panteizmin fəlsəfə tarixində yeri və rolu (mövzunun tədqiq və tədrisinin bəzi aktual və mübahisəli problemləri)

Xaliq və məxluqun vəhdətini və müxtəlif səviyyə və formada eyniyyətini təsdiq və şərh edən panteist görüşlər və həmin görüşlərin nisbətən bütöv sistem kimi toplusundan ibarət təlimlər tarix boyu qlobal mənəvi mədəniyyətin universal fenomeni kimi mövcud olublar.

Mənəvi mədəniyyətin müxtəlif təzahür formaları qədim miflərdə, dinlərdə və xüsusən fəlsəfi təfəkkürdə Allahın mövcud olan hər şeylə və mövcud olan hər şeyin Allahla üzvi ayrılmaz bağlılığını iqrar edən panteizm varlığın dərkinə yönəlmiş fetişizm, totemizm, hilozoizm (hər şeyin canlı olması) animizm, panpsixizm (hər şeyin ruha malik olması), kimi görüş və təlimlərlə bilavasitə əlaqəli olaraq təşəkkül tapmışdır. Mədəniyyət tarixində, o cümlədən fəlsəfənin tarixi inkişafında isə panteizm kateqoriyası və panteizmə əsaslanan təlimlər teizm, deizm, idealizm, materializm, dualizm kimi universal kateqorial anlamlar və onlara əsaslanan təlimlərlə bərabər özünəməxsus mühüm yer tutmuş və tutmaqdadırlar.

Bu baxımdan tədqiqatların Şərqdə və Qərbdə panteizm probleminə, bu problemin açıqlanmasına dair məsələlərə həsr edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Adı çəkilən mövzuya məhz hazırkı dövr və şəraitdə müraciətin mühüm səbəbi kimi qloballaşmaya təmayüllü və onu qəbul etməyən müasir cəmiyyətdə Şərq-Qərb mənəvi mədəniyyətlərinin məhvəri olan fəlsəfi dünyagörüşlərinin ümumi və xüsusi cəhətlərinin tədqiq və şərhində müəyyən mübahisələrin mövcudluğunu göstərə bilərik.

Mübahisə obyektlərindən biri - tarixən varlığın idrakında din və fəlsəfənin sintezi kimi təzahür edən panteizmə, onun qlobal mənəvi mədəniyyətin universal fenomeni olub və ya olmamasına münasibətlə bağlıdır. Başqa sözlə, hazırda bir sıra tədqiqatçı-alim panteizmi ancaq və ya əsasən Qərb düşüncəsinin məhsulu hesab edir və İslam Şərqi mədəni məkanında Şərq peripatetizmi və digər çoxsaylı cərəyanlarda vəhdət əl-vücud şəklində təzahür tapmış bu dünyagörüşünün olması ilə razılaşmır. Mübahisə zamanı isə diqqət başlıca olaraq təsəvvüf fəlsəfəsinin də əsasında duran vəhdət əl-vücud nəzəriyyəsinin İslam dini fəlsəfəsilə eyniyyətinə və Qərb panteizmindən uzaq olmasına yönəlir.

Nəticə etibarilə, əsas prinsipləri eyni və oxşar olan Şərq və Qərb nəzəri təlimlərinə müxtəlif təriflər verilir və bu təlimlərin keyfiyyətcə, mahiyyət baxımından oxşarlığı inkar edilir. Məsələn, əksər hallarda Qərbdə fəlsəfə tarixinin üzvü hissəsi kimi qəbul edilən panteist və panteizmlə bu və ya digər şəkildə bağlı təlimlər İslam Şərqi ölkələrində ancaq irfan adlanaraq İslam mədəni bölgəsinin yox, İslam dininin fəlsəfəsi, bu dinə tam müvafiq nəzəriyyə kimi təqdim edilir.

Postsovet dövrü və məkanında isə bu cür yanaşmanın mövcudluğunu keçmiş hakim ideologiyaya daxil olan ateizmdən dinə qayıdışla bağlı baş verən münasibətlə izah etmək olar.

Lakin sual oluna bilər ki, adı çəkilən yanaşma elmi baxımdan nə dərəcədə obyektivdir və o (bu yanaşma) İslam Şərqi mədəni aləminin ehtiva etdiyi daxili fərqləri, bu aləmin çoxçalarlılıqla səciyyələnən mənəvi mədəniyyətinin zənginliyini inkar etmirmi?

Hazırda İslam Şərqində panteizmin, zənnimcə, elmi cəhətdən adekvat təqdim edilməməsilə əlaqədar rusdilli postsovet ədəbiyyatının nümayəndələri - O.F.Akimuşkin, A.D.Knış və Azərbaycan tədqiqatçılarından Y.Rüstəmov,

A.Şükürov və başqalarının yazılı və şifahi elmi çıxışlarındakı qeyri-adekvat mülahizələri də göstərmək olar.

İslam Şərqi mədəni bölgəsində panteizmə qarşı iradlarla çıxış edən və onu inkar edən zaman tədqiqatçılar, xüsusən müasir Azərbaycan tədqiqatçıları, adətən bu müddəalara əsaslanırlar:

1. İslam Şərqi panteistləri adlandırılan və vəhdət əl-vücudu qəbul edən mütəfəkkirlər Allahı inkar etməyiblər və hətta Allahdan başqa hər şeyi, bütün mövcudatı yoxluq hesab ediblər;

2. Şərq vəhdət əl-vücud nəzəriyyəsi Qərb panteizmindən və ilk növbədə Spinoza panteizmindən fərqlidir;

3. İslam Şərqi bölgəsinin panteist adlandırılan mütəfəkkirləri Quran və İslam dininə qarşı çıxmayıblar və onların təqibinə yönəlmiş fitvalar «dargöz» İslam ruhanilərinin nadanlığı ilə bağlı olub.

Birinci iradla çıxış edən tədqiqatçıların nəzəri-diqqətinə çatdırmalıyam ki, tarix boyu nə Qərbdə, nə də Şərqdə heç bir panteist heç vaxt Allahı inkar etməyib. Bütün dövr və coğrafi bölgələrdə yaşamış panteistlər Allahı hər şeydə, hər şeyi isə Allahda görüblər («Pan - theos» «Hər şey - Allahdır»).

Baxmayaraq ki, əksər hallarda Qərb və Şərq panteistləri Allahı xaliq kimi qəbul edərək məxluqa «yoxluq» deyiblər, lakin «yoxluq» sözün əsl mənasında deyil, məcazi mənada işlədilmişdir, çünki sözün əsl mənasında məxluqa yoxluq deyən mütəfəkkir Allahı xaliq kimi qəbul edən bütün dinləri inkar etmiş olardı. Halbuki panteistlər Allahı, yəhudi, xristian və İslam dinlərini heç vaxt inkar etməyiblər. Onlar Allahı və İlahi dinlərin batini (ezoterik) mənasını dərk və şərh etməyə çalışıblar. Başqa məsələ ki, panteistlər tərəfindən adı çəkilən dinlərin yozumu rəsmi din xadimlərinin ortodoksal yozumundan fərqli olub. Bu fərqə görə uzun əsrlər boyu Şərqdə də, Qərbdə də panteistləri bidətdə, dinsizlikdə ittiham edərək təqibə, işgəncə və qətllərə məhkum ediblər.

Qərb və Şərq panteistlərinin təlimlərinin müqayisəli diaxron və sinxron tipoloji tədqiqinin aparılması coğrafi bölgədən asılı olmayaraq bu təlimlərin prinsip etibarilə oxşarlığını və penteizmin qlobal mənəvi mədəniyyətin universal fenomeni

olmasını təsdiq edir. Söylənilən müddəaya Almarik Benli, David Dinant (XIII əsr), Mayster Ekhart (XIII-XIV əsrlər), Henrix Suzo (XIV əsr), Marsilio Fiçino (XV əsr), Cordano Bruno, Bernardino Telezio, Ciloramo Kardano (XVI əsr), Tomazo Kampanella (XVI-XVII əsrlər) və çoxsaylı başqa Qərb filosof və mütəfəkkirlərinin panteist görüşlərinin həmin yüzilliklərdə yaşayıb yaratmış İslam Şərqi bölgəsi panteist filosof və mütəfəkkirlərinin irsi ilə struktur-tipoloji müqayisəsi yuxarıda söylənilən müddəaya dəlil ola bilər.[1]

Müqayisədən bəhs edərkən, diqqəti bəzi xüsusən müasir Azərbaycan tədqiqatçılarının Spinoza irsinə müraciət edərək Qərbə xas Spinoza panteizminin Şərqdə, İslam bölgəsi mədəniyyətində olması müddəasına cəlb etmək istərdim. Həmin mövqe, mümkün ki, tədqiqatçıların Spinozanı sovet tədqiqat ədəbiyyatından ateist və materialist kimi tanımalarından gəlir. Əslində isə Spinoza heç vaxt nə ateist, nə də materialist olmayıb.

Elm və tarixilik baxımından, əlbəttə, Spinozanın panteistik irsini, yəqin ki, mütəfəkkirin həmdövrlərinin irsi ilə müqayisə etmək Şərq-Qərb fikrində oxşarlıq və fərqin öyrənilməsi üçün daha səmərəli olardı. Lakin tədqiqatçıları hazırda Spinoza irsi xüsusilə cəlb etdiyinə görə həmin irsə, zənnimcə, başqa tədqiqatçıların yozumunda yox, bilavasitə filosofun «Etika» əsərinə istinadən müraciət düzgün olar. Şərqin vəhdət əl-vücudu qəbul edən filosoflarının Spinozadan tam fərqli olmalarından bəhs edən tədqiqatçılara iqtibas şəklində həmin əsərdən Spinozanın panteizminə dair bir sıra prinsipial səciyyəli fikirlərini və əsərin strukturunu xatırlatmağı məqsədəuyğun hesab edirəm.

Benedikt Spinoza fəlsəfi irsində əsas yer tutan və dəfələrlə müxtəlif dillərə, o cümlədən rus dilinə tərcümə edilmiş «Etika» əsəri 2001-ci ildə Minsk-Moskvada bir daha nəşr edilib.[*]

Əsər «Allah haqqında», «Qəlbin təbiəti və yaranması haqqında», «Affektlərin yaranması və təbiəti haqqında», «İnsanın köləliyi və ya gücü

---

[1] Bu müqayisə Z.Quluzadənin “XIII-XVI əsrlərdə Şərq fəlsəfəsinin qanunauyğunluqları və Qərb-Şərq problemləri” kitabının (Bakı, 1983) II və III fəsillərində əksini tapıb.

[*] Məqalədə azərbaycan dilinə tərcümələr müəllifə məxsusdur.

haqqında», «Zəkanın qüdrəti və insanın azadlığı» adlı beş fəsildən ibarətdir. Əsərdə insanın özünüdərk və mənəvi təkamül yolu ilə neqativ affektlərdən (istəklərdən) xilas olaraq idrak vasitəsilə insani azadlıq əldə etməsindən bəhs edilir. Əsərin 1-ci fəslində oxuyuruq: «Allah dedikdə mən hər biri əbədi və sonsuz zatı ifadə edən sonsuz sifatlardan (atributlardan) ibarət olan Mütləq sonsuz Varlığı, yəni substansiyanı nəzərdə tuturam» (Adı çəkilən əsər, s. 3).

«… aydındır ki, şeylər Allah tərəfindən yüksək kamilliklə yaradılıblar, çünki onlar bu ən kamil təbiətdən zəruri surətdə hasil olublar» (s. 40).

«Hər biri sonsuz əbədi zatı əks etdirən sonsuz atributlara malik substansiya və ya Allah zərurən mövcuddur» (s. 27).

«Allah və Onun atributları daimidir» (s. 27).

«Allah şeylərin ancaq mövcudiyyətinin deyil, onların zatlarının da hərəkətverici səbəbidir» (s. 32).

«Allahın varlığı və onun zatı eynidir» (s.32).

«Allahın qüdrəti onun öz zatıdır» (s. 43).

«Allah mütləq ilk səbəb və bütün mövcud şeylərin səbəbidir» (s. 23).

Allah vacib olan mövcud substansiyadır. Allahı mütəfəkkir Xaliq – "natura–naturans" və yaradıcı təbiət, məxluqu – "natura naturata" - yaradılmış təbiət» adlandırır (s. 36).

Spinozaya görə, Allahdan başqa hər şey - əql, iradə, istək, eşq yaradılımışlardır (s. 37). Allahın atributları arasında, məlum olduğu kimi, Spinoza iki atributa xüsusi üstünlük verir, bunlar - yertutarlıq və təfəkkürdür.

«Təfəkkür Allahın atributudur, Allah dərk edəndir» (s. 55).

«Etika»nın ikinci və sonrakı hissələrində Spinoza qəlb, mənəvi kamillik, Allahın dərkinə aparan eşq və s. Şərq və Qərb panteizminə xas kateqorial anlamlara öz fərdi intellektual səviyyəsinə və dünyagörüşünə müvafiq şərhlər verir. O, Allahın zatının müəyyən tərzdə hər şeydə əksindən (s. 53), qəlbin idrak prosesində rolundan (s. 53) insani və İlahi idrakın məzmun və imkanlarının müxtəlifliyindən bəhs edir.

Spinozaya görə, «İnsanın qəlbi sonsuz İlahi əqlin bir hissəsidir» (s. 66). «Bütün ideyalar Allaha aid olduqlarına görə həqiqidirlər» (s. 92). «Lakin insan qəlbi isə mövcud olanları yarımçıq qavrayır» (s. 66). «İnsan qəlbi ətrafındakıları və özünü tam dərk edə bilmir» (s. 88-89).

Yaxşı olardı ki, tədqiqatçılarımız bu və sonra gətiriləcək fraqmentlərin İslam Şərqi panteistlərinin və o cümlədən sufi təlimini təmsil edən mütəfəkkirlərin prinsipial mövqelərinə müvafiq olub-olmamasına diqqət yetirsinlər.

İnsanın mənəvi təkmilləşməsinə xüsusi əhəmiyyət verən mütəfəkkir yazırdı ki, insan neqativ nəfsani istəklərini cilovlamağı bacarmadıqda onların quluna çevrilir və onun məqsədi və azadlığı affektlərin köləliyindən xilas olması ilə bağlıdır (s.209). «Qəlbin ən yüksək xoşbəxtliyi və məziyyəti Allahı dərk etmədir» (s.237). «Əqlin göstərişi ilə əldə edilə bilən ən yüksək xeyir (nailiyyət) Allah eşqidir» (s.314).

Sufizm və bir sıra başqa İslam Şərqi təlimlərindən fərqli olaraq Spinoza İlahi eşqin haqqında belə yazır: «Müxtəsər desək, Allah heç kəsi sevmir və heç kəsə nifrət bəsləmir… O, sevinc və qəmdən uzaqdır» (s.313).

Lakin Allaha məhəbbət qəlbi bürüməlidir (s.312). «O kəs ki, Allahı sevir cəhd etməlidir ki, Allah da onu sevsin» (s.314).

Beləliklə, zənnimizcə, əsərdən gətirilən iqtibaslar Spinozanın panteistik dünyagörüşünün vəhdət əl-vücud fəlsəfəsinə prinsip etibarilə oxşarlığını, bu təlimlərin əsas mövqelərinin məzmun baxımından yaxınlığını və çox hallarda ümumiliyini göstərir. Mövcud fərqlər isə, təlimlərin yarandığı dövrlərin və təlimdaşıyıcısı olan şəxsiyyətlərin özünəməxsus xüsusiyyətləri ilə izah edilə bilər. Məlum olduğu kimi, bu xüsusiyyətlər və fərqlər eyni dövr və bölgədə yaşayan panteist və panteizmə meyilli mütəfəkkirlərin dünyagörüşlərində də sezilir.

Lakin tədqiqat zamanı, xüsusən müasir dövr tədqiqatlarında fərqlərə nisbətən ümumi cəhətlərin aşkarlanması və vurğulanması önəmlidir ki, məhz bu əsasda biz ümumbəşəri mədəniyyət və müxtəlif bölgə mənəvi mədəniyyətlərində panteizm fenomeninin universallığından danışa bilirik.

Bu həqiqəti Azərbaycan fəlsəfə tarixi - Baba Kuhi Bakuvi, Eynəlqüzat Miyanəci, Mahmud Şəbüstəri, Fəzlullah Nəimi, İmadəddin Nəsimi, Qasimi Ənvar, Yusif Qarabaği, Zeynalabidin Şirvaninin və bütövlükdə Orta əsr fəlsəfəsi poeziyamızın çoxsaylı görkəmli nümayəndələrinin irsi tam yəqinliklə sübut edir.

Deyilənlər Azərbaycan tədqiqatçılarının elmi məqalələrində, xüsusi monoqrafik əsərlərində, namizədlik və doktorluq dissertasiyalarında, «Azərbaycan fəlsəfə tarixi oçerkləri» və çoxcildlik «Azərbaycan fəlsəfə tarixi»nin nəşr olunmuş 1-ci və 2-ci cildlərində öz əksini tapıb.

Panteizmin qlobal məkanda universallığını, məlum olduğu kimi, XIX-XX əsr Şərq və Qərb fəlsəfə tarixinin müxtəlif cərəyanları, bu cərəyanları təmsil edən filosofların irsi də təsdiq etməkdədir.

Panteizmin bir dünyagörüşü sistemi və ya dünyagörüşünü əks etdirən konkret fəlsəfi müddəalar şəklində qlobal mənəvi mədəniyyətdə özünəməxsus və geniş yerə malik olmasının səbəbi, bu dünyagörüşünü yaşadan həyati qüvvə onun tarixən ruh və maddəni qarşı-qarşıya qoyan, biri-birinə kəskin surətdə zidd idealizm və materializmdən fərqli olaraq mənəvi ilə maddinin vəhdət və ahəngə (harmoniyaya), humanizmin dayağı olan mənəvi kamilliyə və idrak prosesində rasionalla irrasionalı, İlahi ilə insanini özündə birləşdirən eşqə əsaslanmasıdır.

Panteizmə mənfi münasibət onun yüksək İlahi-bəşəri mahiyyətinin tarixən və hazırda subyektiv inkarı, zənnimcə, bir tərəfdən əgər siyasi və ideoloji motivlərlə bağlıdırsa, digər tərəfdən panteizmi təmsil edən mədəni irslə lazımi dərəcədə tanışlığın olmaması ilə bağlıdır.

Fikrimi əsaslandırmaq üçün İslam aləmi mistisizminin ən mahir tədqiqatçılarından olan Annemari Şimmelin sufizm haqqında dediyi sözlərə istinad etmək istəyirəm.

A.M.Şimmelin «İslam mistisizmi» kitabında oxuyuruq: «Sufizm və ya islam mistisizmi haqqında yazmaq - demək olar ki, imkan xaricində olan bir vəzifədir. İlk addımlardan bu yolun yolçusunun gözü qarşısında uzanan dağ zirvələri durur, yolçu onlara doğru getdikcə zirvənin fəthi imkansız görünür… Hər halda bəzi seçilmişlər hər şeydən xəbərdar Simurğun məskəni olan ən uzaq dağa çatarkən

orada dərk edəcəklər ki, ancaq özlərində olanı tapdılar». (А.М.Шиммель. Мир исламского мистицизма. «Алетейа», «Энигма», М., 1999, s.11).

Panteizmə mənfi münasibət, onun inkarına yönəlmiş cəhdlər - istər bu özünü fəlsəfə, ədəbiyyat və ya musiqi tarixinin təfsirində göstərsin – qlobal, bölgə və etnik mədəniyyət tarixlərini kəsadlaşdırma, onların zənginliyi və rəngarəngliyinin inkarı deməkdir.

Məlum olduğu kimi, panteizmin vəhdət əl-vücud təlimi şəklində təzahürünün və onun dinə münasibətinin şərhi və dəyərləndirilməsi heç vaxt birmənalı olmayıb. Həm İslam bölgəsi mütəfəkkirləri və tədqiqatçıları, həm də İslam aləmindən olmayan tədqiqatçılar panteizmin vəhdət əl-vücud nəzəriyyəsində təzahürünü ya İslam dininin məqbul təfsiri, ya da bidət kimi dəyərləndiriblər. Son dövrlər bəzi Azərbaycan tədqiqatçıları vəhdət əl-vücud tərəfdarlarının və o cümlədən sufilərin küfrdə ittihamını, yuxarıda dediyimiz kimi, ortodoksal din xadimlərinin, «dargöz» və nadan mollaların fitvaları ilə izah edirlər. Mövqelərini əsaslandırmaq üçün onlar vəhdət əl-vücud təlimi nümayəndələrinin panteist olmamalarını, Quran və İslam dininə qarşı çıxmamaları ilə əsaslandırmağa cəhd göstərirlər. Bir daha qeyd etməliyik ki, nə Şərqdə, nə də ki Qərbdə panteistlər heç vaxt Allah və təkallahlığı qəbul edən dinləri inkar etməyiblər. Onlar ancaq dinin rəsmi təfsirindən fərqli olaraq onu batini - ezoterik yolla təfsir ediblər ki, həmin təfsir rəsmi təfsiri bu və ya digər dərəcədə inkar etdiyinə və bir sıra hallarda onun əsaslarını sarsıtdığına görə bidət adlandırılıb və təqib edilib. Təqib təbii idi və nə Şərqdə, nə də Qərbdə təqibin səbəbi din xadimlərinin nadanlığı yox, rəsmi din və onunla bağlı dövlətlərin marağı ilə əlaqədar idi.

Bir neçə söz də fəlsəfə tarixi və bütövlükdə Azərbaycanda pantezmin tədrisi və onun dərslik və dərs vəsaitlərində təfsiri haqqında demək istərdim.

Qeyd etməliyəm ki, hazırkı dövrdə Azərbaycanda Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş fəlsəfə üzrə tədris proqramları, dərslik və dərs vəsaitlərində çoxsaylı çatışmamazlıqlarla rastlaşırıq. Bunların bir qismi özünü elmi səhvlər, məntiqi ardıcıllığın pozulması, Şərq, Qərb və Azərbaycan fəlsəfəsinin təqdiminin həcm etibarilə elmi baxımdan qəbul edilə bilməyən mütənasibliyi,

dəyərləndirmə meyarlarının seçimi zamanı müxtəlif standartlardan çıxış, Sovet dövrü irsinə ideolojiləşdirilmiş əsassız mənfi münasibət və eyni zamanda Rusiya və Qərbdə qəbul edilən proqram və dərsliklərdə verilən həmin proqram və dərsliklərin struktur, şərh və dəyərləndirmə meyarlarının kortəbii təkrarında göstərir.

Deyilənlər «keçid dövrü» adlanan mürəkkəb bir dövrün təbii nəticəsi olaraq xüsusi və geniş tədqiqat tələb edir.

Hazırda isə mövzumuzla bilavasitə əlaqədar müzakirəyə ehtiyacı olan bir məsələ üzərində durmağı vacib bilirəm. Söhbət Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən rəsmi təsdiq olunmuş və respublika ali məktəblərində fəlsəfənin tədrisi zamanı geniş istifadə edilən fəls.e.d., prof. Ağayar Şükürovun «Fəlsəfə» (Bakı, 1997), fəls.e.d., prof. Vəli Paşayevin «Fəlsəfə» (Bakı, 2000), f.e.d., prof. Zeynəddin Hacıyevin «Fəlsəfə» (Bakı, 2001), fəls.e.d., prof. Yusif Rüstəmovun «Fəlsəfənin əsasları» (mühazirə kursu) (Bakı, 2004); fəls.e.d., prof. Həmid İmanov və fəls.e.d., prof. Abdulla Əhədovun “Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri” (Bakı, 1998 və 2008) və bir sıra başqa dərslik və dərs vəsaiti kimi istifadə olunan kitablarda panteizmə münasibətdən gedəcək.

Bilavasitə mətləbə keçməzdən əvvəl təəssüflə qeyd etməliyik ki, bir tərəfdən, həcmləri təxminən 25-40 çap vərəqi olan həmin dərslik və dərs vəsaitlərində əhatə edilmiş problemlərin hədsiz yüksək sayı onların oxucuya tələb olunan səviyyədə şərhi üçün imkan vermir. Digər tərəfdən, panteizmlə bağlı problemlər də daxil olmaqla, problemlərin şərhində elmi dona geyindirilmiş qarışıq mənalı, ziddiyyətli və bir-birini inkar edən mülahizələrin elmin son sözü kimi təqdimi oxucuda fəlsəfənin nəzəri məsələləri və tarixi haqqında elm və məntiqə sığmayan təsəvvürlər yaradır.

Məsələn, A.Şükürovun həcmi 25 çap vərəqi olan və 4 hissədən ibarət dərsliyinin paraqraf və yarımparaqraflarında 150-yə yaxın ciddi fəlsəfi problemdən bəhs edilir. Z.Hacıyevin həcmi 40 çap vərəqi olan kitabında qoyulan problemlərin sayı 125, Y.Rüstəmovun həcmi 475 səhifə olan kitabında isə - 200-ə yaxındır ki, bu da həmin dərslik və dərs vəsaitlərini daha çox arayış - biblioqrafik nəşrlərə

bənzədir. Şərq və Qərb fəlsəfə tarixini bütövlükdə əhatə etməyə cəhd göstərən həmin kitabların nəzəri hissələri əsasən Qərb fəlsəfəsi üzərində bünövrələnir. Belə ki, fəlsəfənin nəzəri problemlərinə və panteizmlə bilavasitə bağlı varlıq probleminə toxunarkən müəlliflər əksər hallarda Qədim yunan və Qərb fəlsəfəsinə müraciət edirlər.

Azərbaycan fəlsəfə tarixi də daxil olmaqla, İslam Şərqi fəlsəfə tarixinin adı çəkilən kitablarda təqdimi və şərhi bir sıra hallarda oxucuları çaşdırır və bu fənnləri öyrənənlərdə yanlış təsəvvürlər yaradır. Məsələn, tarixən İslam Şərqi bölgəsinin və o cümlədən Azərbaycanın qismən Şərq peripatetizmi də daxil olmaqla müxtəlif, xüsusən qeyri-ortodoksal cərəyanlarının fəlsəfi əsasını təşkil edən vəhdət əl-vücud təlimi həmin dərsliklərdə oxucuya fərqli, bir-birini inkar edən mövqelərdən təqdim edilir.

Zaman etibarilə adı çəkilən əsərlər sırasında son dərsliklərdən biri - 2004-cü ildə Azərbaycan və rus dillərində, AMEA-nın akademiki, fəlsəfə elmləri doktoru, prof. F.Qasımzadənin elmi redaktəsi altında nəşr edilmiş Y.Rüstəmovun «Fəlsəfənin əsasları» kitablarında müəllifin təsəvvüf fəlsəfəsinə birmənalı və ardıcıl münasibətinin olmamasını nəzərə alaraq, onların üzərində nisbətən geniş dayanacağıq.

Y.Rüstəmovun adı çəkilən kitablarında İslam bölgəsi fəlsəfəsinin təməllərindən olan vəhdət əl-vücud təlimi oxucuya fəlsəfi yox, dini dünyagörüşü kimi təqdim edilir:

«Monoteist dinlər isə dünyanın vəhdətini Allahın birliyində görürlər (məsələn, vəhdət əl-vücud - varlığın birliyi)». (Adı çəkilən kitab, s. 209). Mötərizədə verilən ifadə Y.Rüstəmovun kitabının rusca nəşrinin 245-ci səhifəsindən götürülüb.

Müəllif burada monoteist dinlərin mövqeyi haqqında gözlənilməz mülahizə ilə çıxış edir və "vəhdət əl-vücud"u monoteist din kimi səciyyələndirir.

Dərsliyin başqa yerində oxuyuruq: «Yeniplatonçuluq ilə təsəvvüf arasındakı əsas fərq ondan ibarətdir ki, təsəvvüf, hər şeydən əvvəl, dini mistisizmdir, yeni platonçuluq isə fəlsəfi mistisizmdir. Yeniplatonçuluğun əsasında ağıl, təsəvvüfün

əsasında isə inam dayanır. Çünki ağıl nə qədər uca olsa da, Allaha çatdıra bilmir. Həqiqəti dərk etməyin əsas yolu İlahi eşqdir» (s. 107).

Gətirilmiş fraqmentdə həm yeni platonçuluğun, həm təsəvvüfün əsas prinsipləri yanlış təqdim edilir. Müəllif yeniplatonçuluq fəlsəfəsinin baniləri Plotin və Proklun əsərlərinə müraciət etsəydi, bu təlimdə varlığın iyerarxiyasının başında hər şeydən yüksəkdə duran və mövcudatdan kənar olan Allah və Xeyirlə eyniyyət təşkil edən Vahidin olmasını və bu Vahidə insanın əqllə yox, ekstaz, İlahi işraq, eşq yolu ilə çatmasını təsdiq edərdi və eyni prinsipləri qəbul edən təlimlərin birinə fəlsəfi, digərinə isə dini mistisizm deməzdi. Qəribə də olsa, Y.Rüstəmov əsərində yeniplatonçuluğa verdiyi şərhdə yazır: «Plotin göstərirdi ki, dünya prosesi ağlasığmayan, dərk edilməyən, sözlə deyilə bilməyən tək və ilkin İlahi başlanğıcdan qaynaqlanır… Həyatın məqsədi insan ruhunun əzəli və vahid Allaha qədər yüksəlməsindən ibarətdir. Yəni, ruh Allahla qovuşmalıdır. Yalnız ən yüksək mərhələdə, ekstaz vəziyyətində (vəcdəgəlmə, cuşa gəlmə) ruh Allahla birləşir» (s. 91).

Beləliklə, müəllif kitabının 91 səhifəsində söylədiklərini 107-ci səhifədə özü təkzib edir. Bu hal, bir tərəfdən oxucuları çaşdırır, digər tərəfdən isə müəllifin mövqeyi Qərb mərkəzçiliyi üçün səciyyəvi olan Şərq fəlsəfi fikrini Qərbdən fərqli, ancaq dini məcrada verilməsinin təkrarı kimi səslənir. Şərq və Qərbdə mövcud tipoloji baxımdan oxşar və ya eyni hadisələrin yuxarıda göstərilən formada şərhi və dəyərləndirilməsi, zənnimcə, İslam Şərqi bölgəsinin fəlsəfi mədəniyyətinin qeyri-adekvat səciyyələndirilməsidir.

Yeri gəlmişkən: yeniplatonçuluğun əsasında ağıl durmadığı kimi, təsəvvüfün də əsasında inam durmur. İnam dinin əsasında durur. Təsəvvüfün vəhdət əl-vücud təliminin əsasında isə fəna və bəqaya aparan mərifət (qnosis) durur.

Y.Rüstəmovun kitabında sufizmin qeyri-adekvat subyektiv təqdimi ilə bir daha «Sufizm (təsəvvüf)» adlı hissədə rastlaşırıq. Sufizmə və vəhdət əl-vücud təliminə panteizmin xas olmasını inkar edən Y.Rüstəmov yazır: «Sufizm təmsilçiləri hesab edirlər ki, şəxsi ruhi-psixoloji təcrübə vasitəsilə insanın Allah ilə bilavasitə mənəvi ünsiyyəti, heç olmasa hələlik kənardan seyr etməsi, sonra isə

tamamilə qovuşması mümkündür» (s.106). «Sufilərə görə, həqiqi bilik İlahi nurlanma yolu ilə, mistik məhəbbətlə, Allaha yaxınlaşmaq və nəhayət, Ona qovuşmaqla əldə edilir» (s.106). «Onlar (təsəvvüf təmsilçiləri. - Z.Q.) hesab edirlər ki, Allah yeganə substansiyadır və dünya bu yeganə substansiyanın təzahürüdür, bütün cisimlər, təbiət hadisələri müvəqqəti olaraq öz başlanğıcından ayrılırlar, darıxırlar, qayıtmaq istəyirlər və nəhayət qayıdırlar (vəhdəti-vücud)» (s.106).

Gətirilən fraqmentlər təsəvvüfün varlığın (istər zəruri, istər mümkün varlıq olsun) vahid substansional əsasa malik olması və Allaha qovuşması, başqa sözlə, ittihadı qəbul etməsi haqqında açıq məlumat verirlər.

Y.Rüstəmov geniş auditoriyaya ünvanlanmış kitabında heç bir elmi dəlilə əsaslanmayaraq Azərbaycan alimlərinin onillər boyu ilk mənbələr əsasında xüsusi elmi tədqiqat obyekti olmuş Azərbaycan sufiləri Eynəlqüzat Miyanəci, Baba Kuhi Bakuvi, Mahmud Şəbüstəri və b. irsini öz keçid dövrünün məhsulu olan sufizm və vəhdət əl-vücud haqqında konsepsiyasına uyğun təqdim etmişdir.

Eynilə müəllifin mənim Bakıda 1970-cı ildə rus dilində nəşr edilmiş «Хуруфизм и его представители в Азербайджане» kitabıma istinad edərək gətirdiyi məlumatın mənim kitabıma aidiyyəti yoxdur, mənim kitabıma istinadən hürufilik fəlsəfəsi, xüsusən hürufilikdə panteizm kitabda olduğundan fərqli təqdim edilir.

Y.Rüstəmovun toxunduğu problemlərə birtərəfli münasibətini onun kitabından gətirilən aşağıdakı fraqment də təsdiq edir:

«VIII-IX əsrlərdə meydana gələn sufizm müsəlman Şərqində ən çox yayılmış dini-fəlsəfi mistik dünyagörüşüdür. Təsəvvüfün həm Şərq, həm də Qərb tədqiqatçılarının çoxu bu fikirdədir ki, bu təlim İslam dini zəminində meydana gəlib və onun iki əsas mənbəyi var: Quran və sünnət. Başqa kənar təsirlərin o qədər də əhəmiyyəti yoxdur». Müəllif burada nədənsə İslam aləmində və mövcud dünya ədəbiyyatında əsrlər boyu sufizmə və onun dünyagörüşünün əsasında duran vəhdət əl-vücud fəlsəfəsi haqqında olan başqa tərifləri oxucuya çatdırmır. Halbuki, sufizmin və onun vəhdət əl-vücud təliminin İslama zidd olması fikrini İslam orta

əsrlərinin görkəmli mütəfəkkirləri İbn Teymiyyə, İbn Xəldun və başqaları ilə bərabər yüzlərlə sonrakı dövrlərdə yazan mütəfəkkir və alimlər təsdiq ediblər.

Y.Rüstəmovun kitabı üzərində nisbətən geniş durmağımın bir səbəbi də bu kitabda müəllifin elmi cəhətdən əsaslandırmadan ardıcıl surətdə İslam Şərqi və o cümlədən Azərbaycan fəlsəfə tarixini fəlsəfi məcradan dini məcraya keçirərək geniş oxucu kütləsinə təbliğ və təlqin etməsidir.

Başqa sözlə, xalqın təfəkkürünə aşılanır ki, onun mədəniyyəti, zəngin tarixə malik fəlsəfi və ədəbi fikri, xüsusən fəlsəfi poeziyasında çox geniş yer tutan təsəvvüf ancaq dini səciyyə daşıyıb və Azərbaycanın mənəvi mədəniyyətində olan və bu mədəniyyətin zənginliyini təşkil edən daxili fərqlər isə inkar edilir.

Yuxarıda adları çəkilən digər dərsliklərdə toxunduğumuz mövzuya dair çoxsaylı ziddiyyətli və anlaşılmaz məqamların olmasına baxmayaraq, bu dərsliklər oxucuya təsəvvüfün vəhdət əl-vücud təliminin əsasında bu və ya digər şəkildə panteizmin olmasından xəbər verirlər. Məsələn, A. Şükürovun dərsliyindən (paraqraf 5, «a» və «b» bəndləri, paraqraf 8, «b» bəndi) Azərbaycan fəlsəfə tarixi haqqında məlumat alan oxucu bir sıra sufi mütəfəkkirlərin - Eynəlqüzat Miyanəci, Mahmud Şəbüstəri, İmadəddin Nəsiminin panteizmi və Yusif Qarabağiyə panteizmin ancaq təsiri haqqında (?) oxuyur.

Oxşar ya eyni mövqe ilə Z.Hacıyevin dərsliyi (fəsil 4, paraqraf 1, 3, 4) və AMEA-nın müxbir üzvü, f.e.d. Z.Məmmədovun ali məktəblərdə tədris prosesində dərslik kimi istifadə edilən «Azərbaycan fəlsəfə tarixi» (Bakı, 1994) kitabında da rastlaşırıq.

Z.Məmmədov adı çəkilən kitabına girişdə qeyd edir ki, «kitabda … feodalizm dövründə xristian aləmində yalnız dini fəlsəfə (sxolastika və mistika) yayıldığı halda, müsəlman ölkələrində üstəlik Şərq peripatetizmi, habelə Azərbaycan filosoflarının yaratdıqları panteizm və işraqilik kimi qeyri-dini fəlsəfi təlimlərin mövcud olduğu, bəşər fəlsəfəsi tarixini zənginləşdirdiyi göstərilir». Gətirilmiş sitatdan və Z.Məmmədovun bütövlükdə kitabından Qərb fəlsəfəsinin yanlış səciyyələndirilməsi, Qərb mistikasının Azərbaycan panteizminə qarşı qoyulması, Azərbaycan filosoflarının panteizm və işraqilik kimi qeyri-dini fəlsəfi

təlimləri yaratması kimi elmi səhvlərlə yanaşı, tələbələr və digər oxucular Azərbaycan fəlsəfə tarixində panteizmin geniş yayılması haqqında məlumatda alırlar.

Vəhdət əl-vücudun panteist təlim olması haqqında məlumatı oxucular fəls.e.d., prof. Vəli Paşayevin «Fəlsəfə» (Bakı, 2000) dərsliyindən, xüsusən həmin dərsliyin «İslam panteizmi» paraqrafında alırlar. Müəllif yazır: «Yaradıcının (Allahın) öz yaratdıqlarında təzahür edə bilməsi ilkin İslam monoteizmini dəyişərək, panteist - «vəhdət əl-vücud» (ərəbcə - mövcudatın birliyi) mistik konsepsiyası şəklində sufizm fəlsəfəsinin əsası olmuşdur (s.99)».

Məzmun etibarilə analoji məlumat fəls.e.d., prof. Həmid İmanov və fəls.e.d., prof. Abdulla Əhədovun kitabının «ət-təsəvvüf - sufilik fəlsəfəsi» adlanan xüsusi 8-ci fəslində və bir çox başqa dərslik, dərs vəsaitlərində, elmi-məlumat ədəbiyyatında[2] da verilir.

Göstərilən vəziyyətdə oxucu və xüsusən tələbələr gətirilən məlumatlardan hansına inanmalı və imtahan zamanı tələbələrin bilikləri necə dəyərləndirilməlidir?!

Nəzərə almaq lazımdır ki, oxucular, bir qayda olaraq dərsliklərdə rastlaşdıqları ziddiyyətli mövqelərin hansının həqiqi olduğunu dəyərləndirmək imkanına malik deyillər.

Mövcud vəziyyət müzakirə etdiyimiz problemin təkrarən ciddi tədqiqini və dərsliklərin geniş müzakirələrini tələb edir. Gələcəkdə dərsliklərdə, hazırda isə mühazirələrdə verilən problemlər haqqında alternativ elmi mövqelərin mövcudluğunun qeyd edilməsi məqsədəuyğun olardı.

Mənim problemə münasibətim «Hürufilik və onun Azərbaycanda nümayəndələri» (rus dilində, Bakı, 1970), «Qasimi Ənvarın dünyagörüşü» (rus dilində, Bakı, 1976), «XIII-XVI əsrlər Şərq fəlsəfəsinin inkişaf qanunauyğunluqları və Şərq-Qərb problemi» (rus dilində, Bakı, 1983),

---

[2] Məsələn, panteizm və sufizmin fəlsəfəsi «Fəlsəfə ensiklopedik lüğəti»ndə (Bakı, 1977) (redaksiya şurasının sədri fəls.e.d., prof. Y.A.Rüstəmov) və akad. Z.Bünyadovun "Dinlər, təriqətlər, məzhəblər" (arayış kitabı) kitabında da (Bakı, 1977) aydın təfsirini tapmayıb.

«Mədəniyyət tarixinin nəzəri problemləri və nizamişünaslıq» (Bakı, 1987), «Füzulişünaslığın problemləri» (Bakı, 2006) kitablarımda və 1965-ci ildən başlayaraq çap edilmiş müxtəlif, o cümlədən «Qlobalistika» ensiklopediyasında (M., 2003) dərc edilmiş «Panteizm» adlı məqaləm də daxil olmaqla, məqalələrimdə öz əksini tapmışdır.

MUĞAM VƏHDƏT FƏLSƏFƏSİNİN TƏZAHÜRÜ VƏ İDRAKI KİMİ

Korların fili təsvir etməsi haqqındakı məşhur rəvayətə, adətən mürəkkəb, «sirli» hadisələrin təfsirində əqlin imkanlarının məhdudluğunu vurğulamaq üçün müraciət edirlər.

Dərki mürəkkəb, sirrini sonacan açmayan hadisələr içində bəşər mədəniyyətində əsrlər boyu yaşayan, insanı kamilliyə aparan muğamın xüsusi yeri vardır.

Muğam – dünya mədəniyyətinin beşiyi, dünya dinləri, fəlsəfə və fəlsəfənin şeir və musiqidə təzahürünün qədim və bəlkə də, ilk vətəni olan Şərqdə yaranmış Şərq İslam bölgəsi mənəvi mədəniyyətinin ayrılmaz hissəsidir.

Muğamın ecazkar sehrinin mənbəyi dünya mənəvi mədəniyyətinin cahanşümul fenomeni - varlıq fəlsəfəsidir ki, varlığın hissəsi - insana təmsil etdiyi varlığın vəhdətini və birliyini nişan verir. Dünya musiqisində özünəməxsus şəkildə təzahürünü tapmış vəhdət fəlsəfəsi İslam Şərqi musiqi mədəniyyətində muğam janrında da geniş və tam surətdə əksini tapıb. İlahi məhəbbətə və irrasional idraka dayanan bu fəlsəfə insanı vəhdətə yönəldən, ona varlığın mənəvi birliyi və məhəbbətə layiq olması haqqında humanist ideyanı aşılayır. Məhz bu baxımdan İlahi ilə dünyəvini, batini ilə zahirini birləşdirən muğam səsləndikdə, o zaman və məkan sərhədlərini silərək müxtəlif düşüncə sahiblərini məftun etmək qüdrətinə qadirdir.

Tarixən və müasir dövrdə mədəniyyətşünaslıqda fəlsəfə və muğama yaxın olan sufi fəlsəfəsi haqqında təsəvvür və anlamlar birmənalı olmadığı kimi, muğam fəlsəfəsinin anlamı və bu fəlsəfənin təfsiri də birmənalı olmayıb.

Buna səbəb, bir tərəfdən Yaxın və Orta Şərq xalqlarının musiqiyə həkk olunmuş yüksək fəlsəfi düşüncəsinin təzahürü – muğam fenomeninin mürəkkəbliyi, onda zahiri və batini başlanğıcların forma və məzmunda vəhdəti və bu vəhdətin sistem şəklində sabitləşmiş ənənəyə çevrilməsi və eyni zamanda muğamın daxilən daşıdığı və rəngarəngliyini təmin edən qanuniləşdirilmiş çərçivədən çıxmamaq şərtilə improvizasiya imkanlarındadır. Digər tərəfdən, səbəb muğamın çoxçalarlı zahiri və batini formaları arxasındakı dərin məzmununu duyan və dərk edən yaradıcı ustad-muğam ifaçıları, muğam təfsirçiləri və muğam dinləyicilərinin mənəvi imkanlarından, onların tədris nəticəsindəmi əldə etdikləri və ya genetik qabiliyyətlərindən asılı olaraq muğamın sirrinə vaqif olma imkanlarındadır. Məhz bu sirrin dərki muğamı ifa, təfsir və dinləmə zamanı (və bəlkə müəyyən vaxt daha sonra da) insanı qeyri-iradi olaraq zaman, məkan və özündən (şəxsi «Mən»indən) belə təcrid və musiqinin ahənginə qərq edir.

Musiqişünaslıqda muğamın şərhi və ona verilən təriflərdə muğamın fəlsəfi mahiyyətinə diqqətin çatışmamazlığı onun ideya əsasını təşkil edən batini (ezoterik) vəhdət fəlsəfəsinin adı belə çəkilməməsinin səbəbləri, zənnimizcə, müxtəlifdir.

Orta əsrlərdə muğamın musiqidə təzahürü olan vəhdət fəlsəfəsi, eynilə muğamda istifadə edilən fəlsəfi poeziya nümunələri İslamın ortodoksal təfsirilə uzlaşmadığı üçün bir çox hallarda bidət kimi səciyyələndirilirdi. Güman etmək olar ki, bəlkə də, XIV-XV əsrlərdə regional mədəniyyəti təmsil edən bütöv sistem və vahid struktura malik muğamın parçalanması və onun gələcəkdə ayrı-ayrı xalqlara mənsub etnik muğamlar şəklində təşəkkül və inkişafı göstərilən səbəblə - muğamın fəlsəfi əsasına münasibət ilə əlaqədar idi.

Muğam fəlsəfəsinə sovet muğamşünaslığındakı münasibət, bu fəlsəfəni sadəcə olaraq görməmək isə, hakim marksist ideologiyasının ateizmi ilə bağlı idi və məhz bu səbəbdən Sovet dövründə muğamın tərifi onun struktur və formal xüsusiyyətləri, realizm, xəlqiliyi və s. hakim ideologiya baxımından məqbul cəhətləri ilə məhdudlaşırdı.

Söylənilən və aşağıda gətirilən mülahizələr musiqişünas olmayan müəllifin yarım əsr ərzində mədəniyyət tarixi çərçivəsində Azərbaycan və bütövlükdə Orta əsr Şərq İslam bölgəsində fəlsəfə və xüsusən fəlsəfi poeziya tarixinin tədqiqi təcrübəsinə əsaslanır.

Elmi tərifin tərifi verilən hadisə və prosesin əsas mahiyyətini açması zəruriliyini və ədəbiyyatda muğama verilən təriflərdə onda zahiri və batini başlanğıcların mənalarını, bu başlanğıcların vəhdətinin əsasında duran fəlsəfi ideyanın göstərilməməsini nəzərə alaraq müzakirə üçün muğamın aşağıdakı tərifini təklif edirəm:

Muğam (ya muğamların cəmi - muğamat) – musiqi janrı olaraq İslam Şərqi mədəniyyətində yaranmış kanonlaşmış ənənəvi, çoxçalarlığı ilə səciyyələnən musiqi təfəkkürü sistemi, varlığın vəhdəti ahəngi fəlsəfəsinin musiqidə təzahürü və bu vəhdətin pilləvari, bir-birini əvəz edən məqamlar vasitəsilə idrakı yoludur.

Yarandığı ilk dövrlərdə muğam insanın varlığın vəhdətini dərk etməklə bərabər özünü də bu vəhdətin ayrılmaz hissəsi kimi hiss və dərk etmək, «ürək gözü» ilə özünü Vahidlə bir görmək cəhdini əks edirdi. Muğam, insanın yoxluqdan (o biri dünyadan) varlığa (yaşadığı dünyaya) gəlməsini və bu dünyadan yenə də yoxluğa (o biri dünyaya) qayıtması arzu və cəhdini, İlk Başlanğıcdan ayrılaraq İlk Başlanğıca qayıdışı, dünyəvi həyatda naqislikdən mənəvi kamilliyə, Vahidlə (Allahla) vəhdətə cəhdinin musiqidə əksini tapmış yolu idi.

Muğam – dövrədir (sikldır) və burada yalvarış, dua, mərasimdən məqsəd batini məna – isanın Allahla birlikdə olduğu itirilmiş cənnətin ona qaytarılmasıdır.

Muğamın ideya məzmununu təşkil edən, onun fəlsəfəsi olan «vəhdət», «vəhdət əl-vücud», «panteizm», varlığın vəhdəti haqqında eyni ideyanı müxtəlif surətlərdə təsəvvür və təfsir edən mistik dini-fəlsəfi dünyagörüşü olaraq, varlığın ahəngini əks etdirməklə maddə və ideyanı, maddi və mənəvini, Xaliq və məxluqu, vəhdət və kəsrəti, mövcud əkslik və ziddiyyətləri rasional və irrasional yolla vəhdətdə təqdim edir. Bu mövqe onu (həmin fəlsəfəni) varlığa

materialist və idealist yanaşmanın radikallığından yayındıraraq və müəyyən mənada bu mövqelərin birtərəfliyini inkar edərək onların üzərində yüksələn, insanı humanizm və tolerantlıq prinsipləri əsasında kamilləşdirən fəlsəfədir.

Muğamatda, sanki İslam aləminin qeyri-ortodoksal cərəyanlarına xas insanı kamilliyə aparan məqamlar əks olunur.

Vəhdət fəlsəfəsi varlığın bütövlük və ahənginin idrakı və təfsiri zərurətindən və insanın psixoloji özünütəsdiqi cəhdindən yaranmış, qədimdən başlayaraq tarixin bütün dövrlərində mövcud olan və tam əminliklə güman etmək olar ki, gələcəkdə də mövcud olacaq universal fəlsəfi dünyagörüşüdür.

Müqayisələr göstərir ki, dünyanın müxtəlif etno-coğrafi bölgələrində və o cümlədən İslam bölgəsində də vəhdət fəlsəfəsi və bu fəlsəfədə insana ayrılmış yer, bir çox hallarda xarici oxşarlığı və mahiyyətinin eyniliyi ilə səciyyələnir.

Bölgəni təmsil edən milli muğamlarda mənəvi kamilliyə aparan vəhdət fəlsəfəsinin məğzitş – irfani panteizmi - bu muğamların ideya və struktur-tipoloji müqayisəsi sübut edir. Bölgə etnik milli muğamlarının özünəməxsusluğunu öyrənərkən onların vahid bölgə mədəniyyətinin bünövrəsi üzərində yüksəlməsi və ilkin yaranma dövründən bəri müəyyən dəyişikliklərə məruz qalmalarına baxmayaraq tarixi ənənə kimi bölgə xalqları mənəviyyatını birləşdirməsi, bu birləşməyə dayaq olmasının əhəmiyyəti yaddan çıxarılmamalıdır.

Muğamın sufi musiqisindən fərqlərini nəzərə alaraq xatırlamalıyıq ki, fəlsəfi kateqoriya kimi irfani eşqə və irrasional təfəkkürə əsaslanan vəhdəti-vücuda istinad təkcə təsəvvüfə deyil, İslam bölgəsinin qeyri-ortodoksal cərəyanlarının əksəriyyətinə xas idi. Muğamın sufi fəlsəfəsi və musiqisi ilə yaxınlığını qeyd etmək vacibdir, lakin onların bəzi hallarda eyniləşdirilməsi meyilləri düzgün deyil. Musiqişünaslığın digər məsələləri ilə yanaşı bu məsələ də tədqiqat obyekti olmalıdır.

Qlobal musiqi mədəniyyətinin inkişafında ümumi cəhət və qanunauyğunluqların tədqiqi baxımından muğamatın fəlsəfi prinsiplərinin Şərq mədəniyyətindən qaynaqlanan və mistik panteizmi ilə səciyyələnən Avropa musiqi Romantizminin ideya prinsipləri ilə bağlı ülvi məhəbbət, qəm,

qüssə, iztirablardan keçən İlkin Başlanğıca qayıdış yolunun izlənilməsi də diqqəti cəlb etməyə bilməz.

Tarixən, muğamın təkamülü mənəvi-intellektual səviyyəsi ilə fərqlənən dinləyicilərinin onun ilkin, əsas ideya-fəlsəfi prinsipi – dövrənin (siklin) insanın Allaha qayıdışına, vəhdətə aparan qəm və qüssə dolu yol kimi qavranılması tədricən zəifləyir və itirdi. İfaçı və dinləyici muğamın irfani (mistik) panteizm ideyasını daşımasından, tərənnümündən, onun əzablı kamilləşmə yolu ilə vəhdət axtarışından xəbərdar olmaya da bilər.

Lakin muğamın insanı mənən təmizliyə, saflığa, kamilliyə istiqamətləndirməsi cəhdi – bu funksiyası dəyişməz olaraq qalır. Muğam dövr və məkandan asılı olmayaraq həm ifaçı, həm də dinləyicinin şüuru və təhtəlşüuruna, onların genetik, qan yaddaşlarına təsir edərək onları vəcdə gətirir və vəhdət ahənginin sonsuzluq və əzəmətinə qovuşdurur.

Muğamın insana təsirindən danışarkən diqqəti bir məqama da yönəltmək istərdik. Muğamın təkcə instrumental və vokal ifalarının olması ilə yanaşı, əksər hallarda o instrumental və vokal ifanın vəhdəti kimi təqdim edilir. Muğam ifasında fəlsəfi məzmunlu musiqinin fəlsəfi şeirlə vəhdəti, bir tərəfdən, onun əsas ideyasının qavranma və idrakına kömək edirsə, digər tərəfdən, bəlkə də onun təsirini parçalayaraq dinləyicini vəhdətdən ikiliyə, bir yox, iki başlanğıcın, çox vaxt sözlə ifadə edilmiş şeirin qəliz məzmununun qavranmasına yönəldir. Başqa sözlə, bu halda muğam ilkin məqsədə yönəlmişi məqsəddən yayındırıb, dünyəvinin ülvi ilə birləşməsinə mane olması sualı üçün əsas yoxdurmu?

Məlumdur ki, hər bir dövr musiqişünaslığı da ehtiva edən mədəniyyətşünaslıq qarşısında öz istək və tələblərilə bağlı vəzifələr qoyur. Hazırda keçmiş sovet İslam Şərqi bölgəsinin musiqişünasları qarşısında muğam musiqi mədəniyyətinin tədqiqi və təbliği, muğamın mahiyyəti və onun insanı mənəvi kamilliyə aparması ilə bağlı olan daimiliyə iddiası elmini obyektiv və anlaşıqlı surətdə cəmiyyətə çatdırmaq vəzifəsi durur.

Müasir muğamşünaslıq qarşısında duran vəzifə, zənnimizcə, muğam konsepsiyasının kateqorial anlamları və ən əvvəl «muğam» (məqam) anlamına

elmi tərifindən Sovet dövrü siyasi ideologiyası tələblərinə uyğun olaraq əsassız çıxarılmış fəlsəfi komponenti[3] qaytarmaq və aşağıda göstərilən digər məsələlərə söylənilən baxımdan da aydınlıq gətirməkdir:

- ədəbiyyatda birmənalı anlamlar kimi işlənilən «muğam» və «muğamat» anlamlarının eyni və ya fərqli anlam olmaları aydınlaşdırılmalıdır;

- «muğam kanonu» anlamının və muğamın quruluşu sxeminin muğamın ideya-fəlsəfi məzmunu ilə səbəbiyyət əlaqələrinin şərhi verilməlidir;

- «dəstgah»ın fəlsəfi konsepsiyası (vəhdət fəlsəfəsi ilə bağlılığı) təfsir edilməsidir;

- çoxmənalı «mayə» anlamının (bu anlam - mahiyyət, mənbə, əsas, materiya, səbəb, musiqidə səs, pərdə, başlanğıc bölməsi, klassik muğam janrının lad əsasları, muğamın ilk və əsas pərdəsi, məqamın əsas sabit pərdəsi, muğam dəstgahının birinci şöbəsi, yaxın Şərq xalqlarının musiqisini təşkil edən altı avazatdan biri və s.) məzmunu, mümkünsə, nisbətən konkretləşdirilməli və muğam fəlsəfəsi ilə əlaqəsi aydınlaşdırılmalıdır; muğamın, onun təşəkkülü və sonrakı inkişafı dövrlərinin fəlsəfi və musiqi mənbələri haqqında elmi məlumat nəzərdən keçirilməli və imkan daxilində bu məlumat genişləndirilməlidir;

- «dövr», «dairə» anlamının ehtiva etdiyi fəlsəfi ideya izah edilməlidir;

- «regional muğam» və «etnik muğam» anlayışları, onların elmi təriflərində oxşar və fərqli cəhətlər dəqiqləşdirilməlidir;

- muğamın regional və milli musiqi mədəniyyətlərinin fenomeni kimi təşəkkülü və sonrakı inkişafı dövrlərində, Sovet dövründə muğamın təfsiri nəzərə alınmaq şərtilə onun fəlsəfi və musiqi mənbələri haqqında informasiya genişləndirilməlidir;

- müasir Azərbaycan muğamının, onun fəlsəfi konsepsiyasının, məzmun və formasının orijinallığı, müasir etnik muğamlardan fərqi araşdırılmalı və bu

---

[3] Qeyd edək ki, AMEA-nın müxbir üzvü, prof.Z.Səfərova «Azərbaycan musiqi elmi.XIII-XX» (Bakı, 2006) kitabına daxil etdiyi S.Urməvinin, Ə.Marağainin və M.M.Nəvvabın risalələri əsasında «Qədim musiqi terminləri Lüğəti»ndə «bayatı»ya belə tərif verilir: «Dörd misradan ibarət vokal musiqi janrı. Bu misralarda poetik obraz və **fəlsəfi fikir** ifadə olunur» (adı çəkilən əsər, səh.471). Lakin «muğam» («muğamat»), «dəstgah», «mayə», «dövrə»-nin təriflərində bu hadisələrin fəlsəfə ilə bağlılığı haqqında məlumat yoxdur. Muğamın əsas anlamlarına eyni münasibət əksər musiqi lüğətləri və tədqiqatlarda da müşahidə olunur.

məlumat yığcam şəkildə «Azərbaycan muğamı» anlamının tərifinə daxil edilməlidir;

- muğamın bir fenomen kimi batini (ezoterik) fəlsəfəsinin dərkində səs (musiqi) və sözün rol və yerinin önəmliliyi təfsir və müəyyən edilməlidir;

- milli fəlsəfələrin təkamül yolunun milli muğamların məzmun və formasının təkamülü ilə bağlılığı səbəb-nəticə baxımından izlənilməli və şərh edilməlidir;

- muğam konsepsiyasındakı rəmzi sayların seçimi aydınlaşdırılmalıdır.

Mövcud musiqi lüğətlərinə yeni baxış tələb olunur. Bu lüğətlərdə musiqişünaslığın, o cümlədən muğam elminin əsasını təşkil edən bir sıra kateqorial anlamlar adekvat (tərif üçün zəruri olan ideya, məzmun, forma, hadisənin keyfiyyətini müəyyən edən ümumi və xüsusi cəhətlər – cins və növ göstəricilərinin tam və lakonik əksi) təriflərini tapmayıblar. Muğam konsepsiyasının əsas anlamlarının çoxmənalılığı və müvafiq lüğətlərdə oxucunu istiqamətləndirən xüsusi aksentlərin olmaması onun maraqlandığı məsələlər haqqında müstəqil elmi məlumat əldə etməsini mürəkkəbləşdirir.

Muğam haqqında elmi ədəbiyyatda çoxsaylı, aydın olmayan və mübahisəli məsələlərin mövcudluğu musiqişünaslıqda elmi tənqidin genişlənməsini tələb edir. Mətbu və şifahi elmi müzakirələr yolu ilə muğam elminin əsas kateqorial anlam və nəzəri təsəvvürlərinin heç olmazsa nisbi unifikasiyası tamlığı və bütövlüyü ilə səciyyələnən muğam fenomeninin mahiyyəti və əsas inkişaf qanunauyğunluqları haqqında məlumatların dürüstləşməsi üçün zəruridir. Muğamşünaslığın kateqorial aparatının dürüstləşməsi onun bir elm kimi kamilləşməsinin zəmini ola bilər.

Muğamşünaslığın tarixi, güman ki, muğamın yaranması ilə həmdövrdür. Muğam, öyrənilib və öyrəniləcək və şübhə yoxdur ki, muğam elmi, təkraredilməz fəlsəfi müdrikliyi və bədii gözəlliyi ilə fərqlənən muğam haqqında çoxsaylı, müxtəlif səviyyə və çalarlı əsərlərlə zənginləşəcək. Bu əsərlər, yəqin ki, muğamın daşıyıcısı olan bölgə xalqlarında milli və bölgə mədəniyyətlərinin varisi və sahibi kimi muğamatın qlobal mədəni məkanda bundan sonra da layiqli təqdimi və təbliği üçün cavabdehlik hissini artıracaq.

Bakı, 2009

XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ FƏLSƏFƏ TARİXİ ELMİ QARŞISINDA DURAN PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARINA DAİR

Fəlsəfə tarixi elmi, məlum olduğu kimi, cəmiyyətin özünüdərk prosesinin keçdiyi tarixi əks etdirir.

Azərbaycan fəlsəfə tarixi də daxil olmaqla, etnik fəlsəfə tarixləri ayrı-ayrı xalqlara onların bir xalq kimi özünüdərk proseslərinin tarixini bəyan edir və onların irsinin dünya fəlsəfi mədəniyyətində yerini göstərir. Fəlsəfə tarixi elmi qarşısında duran bu yüksək vəzifəni nəzərə alaraq, Respublikada onun tədqiq və tədrisi qarşısında duran bir sıra ümumi və konkret səciyyəli problemlərinə müraciət etməklə onların həlli yollarını göstərməyə çalışacağıq.

Müraciət edəcəyimiz problemlər qloballaşma, siyasi, sosial-iqtisadi və mədəni sahələrin inkişafında birliyə aparan ahəng və unifikasiyaya meyillər humanitar elmlərin bu prosesə daxil olması ilə bağlıdır.

Hazırda Respublikada fəlsəfə tarixi elmi qarşısında duran əsas konseptual problemlər sırasına aşağıdakı problemlər daxildir.

İlk növbədə fəlsəfə tarixinin tədqiqat obyekti olan fəlsəfənin məzmunu və təzahür formaları dəqiqləşdirilməlidir. Bu problemin ortaya çıxmasına səbəb bir sıra Şərq ölkələrində teosofiya və mistik fəlsəfənin fəlsəfə tarixindən təcrid edilməsidir. Halbuki Avropa və müasir (postsovet) rus fəlsəfə tarixləri teosofiya və mistik fəlsəfəni öz fəlsəfə tarixlərindən ayırmırlar və ayıra bilməzlər, çünki tarix boyu bu fenomenlər onların fəlsəfi mədəniyyətinin tərkib hissəsi olmuşdur.

Xarici fəlsəfə tarixi elmlərində mövcud mövqeləri də nəzərə alaraq, Azərbaycan fəlsəfə tarixinin tədqiqi zamanı fəlsəfə tariximizin təzahür formaları kimi professional fəlsəfi traktatlarla yanaşı, ortodoksal dini mövqedə duran teosofiyanı, qeyri-ortodoksal sosial-mədəni cərəyanların fəlsəfəsini, fəlsəfi təfsirləri (kommentariləri), ədəbi formada əksini tapmış fəlsəfi əsərləri, xüsusən fəlsəfi poeziyanı vermək qərarına gəldik. Bu

strukturdan Azərbaycan fəlsəfə tarixi dördcildliyinin birinci cildində istifadə edilib və gələcək cildlərdə də onu əsas götürmək niyyətindəyik.

Adı çəkilən formalar fəlsəfi mədəniyyəti izhar edən və universallıqları ilə fərqlənən dünya fəlsəfə tarixi elmində qəbul edilmiş formalardır.

Azərbaycan fəlsəfə tarixi elmi qarşısında duran digər mühüm problem Azərbaycanın da daxil olduğu İslam mədəni bölgəsinin fəlsəfəsinə Avropa və müəyyən dərəcədə rus sovet fəlsəfə tarixlərində verilən qeyri-obyektiv qiymətlərə münasibət bildirməkdir. Qeyri-obyektivlik özünü ümumi fəlsəfə tarixlərində İslam bölgəsi fəlsəfəsinə ayrılan yerdə (adətən ancaq Müsəlman Renessansı dövründən bəhs edilir, sonrakı dövrlər üzərindən sükutla keçilir) və bütövlükdə Şərqdə fəlsəfəyə dinin təsirini, burada mistika və irrasionalizmin genişliyini vurğulayaraq bu bölgədə fəlsəfənin Qərb fəlsəfəsi ilə müqayisədə yoxluğu iddialarında özünü göstərir.

Müasir dövrdə ideoloji sahədə qloballaşma meyillərini və Şərq-Qərb qarşıdurmasının kəskinləşməsini nəzərə alaraq, bölgə fəlsəfəsini təmsil edən alimlərin, o cümlədən Azərbaycan fəlsəfə tarixçilərinin qarşısında duran elmi, siyasi və mənəvi-əxlaqi baxımdan mühüm məsələ – həmin mövqeyin əsasını sarsıtmaqdır. Bunun isə optimal yolu – Avropa və rus fəlsəfələrinin tarixən (Rusiya üçün Sovet dövrü istisna olmaqla) üzvü surətdə din, mistika, irrasionalizmlə bağlılığını göstərməkdir. Burada xüsusi elmi axtarışlara ehtiyac belə yoxdur, sadəcə Avropada Avropa alimləri tərəfindən nəşr edilmiş fəlsəfə tarixlərinə və rus fəlsəfə tarixçilərinin 2004-cü ildə nəşr etdikləri ensiklopediyada («Большая Российская Енциклопедия: Россия». M., 2004) rus fəlsəfə tarixinin tədqiqinə nəzər yetirmək kifayətdir.

Lakin bütün bunları yazılı surətdə dünya elmi aləminə yaymaq bölgə alimləri və biz Azərbaycan filosoflarının vəzifəsidir. Bu problemin həlli üçün bölgə alimlərinin təşkilatlanmasına Azərbaycan Fəlsəfə cəmiyyəti, AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu və AMEA-nın rəhbərliyi birgə kömək edə bilərlər. Hazırda Respublikada Azərbaycan və rus dillərində «Şərq fəlsəfəsi problemləri» jurnalı nəşr edilir. Ərəb, fars, türk ingilis, fransız və alman dillərində geniş xülasələr ehtiva edən jurnal Şərq və Qərbin məşhur

kitabxanalarına göndərilir. Göstərilən mövzuya dair keyfiyyətli məqalələri jurnalın redaksiya heyəti bundan sonra da məmnuniyyətlə çap etməyə hazırdır.

Qarşımızda duran problemlərdən biri də Azərbaycan fəlsəfə tarixini türkdilli, farsdilli və Qafqaz dilli xalqların fəlsəfə tarixləri ilə əlaqədə tədqiq etməkdir. Bundan ötrü isə AMEA rəhbərliyi tərəfindən zəruri elmi kontaktların təşkili üçün mənəvi və maliyyə dəstəyi tələb olunur.

Tədqiqat sahəsinin ən ağrılı və həllini tapa bilməyən mühüm məsələləri sırasına Azərbaycan çoxcildlik fəlsəfə tarixinin çapa hazırlanması daxildir. Bu sahədə olan ciddi çatışmamazlıqlar – ilk növbədə Azərbaycan mədəniyyətinin müxtəlif fənləri üzrə hazırlanan çoxcildlik tarixlərin problemlərinin uzlaşmaması, tədqiqat konsepsiyalarının olmaması, rast gəlinən fərqli və ziddiyyətli müddəaların əvvəldən müzakirə və həllinin tapılmaması ilə bağlıdır. Belə gedərsə, oxucular çaşqın vəziyyətə düşəcək. Bu məsələlərin dəfələrlə qaldırılmasına baxmayaraq günümüzədək onlar həll edilməyib. Mövcud vəziyyət Azərbaycan Milli Ensiklopediyası nəşrə hazırlandığı məqamda mədəniyyətimizin adekvat əksi üçün böyük təhlükə yaradır.

Qarşımızda duran əməli problemlər sırasına Azərbaycanda Şərq və Qərb fəlsəfə tarixlərinin professional tədqiqi üçün kadr hazırlanması daxildir. Bu məqsədlə Şərq və XX əsrədək Azərbaycan fəlsəfə tarixinin tədqiqi üçün Bakı Dövlət Universitetinin fəlsəfə, ilahiyyat və ədəbiyyat fakültələrində oxuyan fəlsəfəyə meyilli tələbələrə ərəb, fars, türk dillərini və paleoqrafiyanı tədris etmək tələb olunur ki, gələcəkdə həmin tələbələr aspirantura və dissertantura yolu ilə savadlarını təkmilləşdirərək səviyyəli tədqiqat apara bilsinlər. Eynilə Xarici Dillər İnstitutunda fəlsəfə yönümlü alman, fransız və ingilis dilli xüsusi mədəniyyətşünaslıq və fəlsəfə yönümlü kiçik həcmli qrupların yaranması gələcəkdə Qərb mədəniyyəti və fəlsəfəsi tarixi üzrə Respublika üçün səviyyəli mütəxəssislərin hazırlanmasını təmin edə bilərdi.

Hazırda fəlsəfə tarixi şöbəsində Şərq və Qərb dilli mütəxəssislər tədqiqatla məşğul olurlar, lakin yeni gənc mütəxəssislərə elmimizin böyük

ehtiyacı var. Şöbədə fəlsəfə tarixinin ümümnəzəri, metodoloji problemləri işlənilir, lakin bu sahədə də mütəxəssislərin artmasına ehtiyac böyükdür.

Azadlıq əldə etmiş Respublika alimləri öz milli və bölgə fəlsəfələrinin ləyaqətini subyektiv iradlardan müdafiə etmək üçün müxtəlif mədəni bölgələrin fəlsəfəsinə yiyələnməlidirlər.

Kadr hazırlığı, məlum olduğu kimi, keyfiyyətli tədris proqramlarının, həmin proqramlarda tövsiyə edilən ədəbiyyatın elmi səviyyəsinin yüksək olmasını tələb edir.

Təəssüflə qeyd etməliyik ki, bu sahələrdə də xeyli qüsurlarımız var. Bu məsələ ilə bilavasitə məşğul olmalı olan Təhsil Nazirliyinin xüsusi qurumu fəaliyyətsizlik göstərir. Məsələ tezliklə və ciddi araşdırılmalıdır. Mövcud proqramlarla isə yüksək səviyyəli mütəxəssis hazırlamaq qeyri-mümkündür.

Məsələnin həllində Nazirlik və müvafiq kafedralarla birlikdə Fəlsəfə cəmiyyəti də iştirak etməlidir.

Fəlsəfə tarixi məsələlərinin təbliğinə gəldikdə isə burada kütləvi informasiya vasitələrinin, dövrü mətbuat və xüsusən televiziyanın imkanlarından düşünülmüş istifadəyə ehtiyac var. Lakin elmi çıxışlar və yazılarda təsadüflərə yol verməmək üçün onlar əvvəlcədən elmi ekspertizadan keçirilməlidirlər. Əks təqdirdə elm əvəzinə nadanlıq və qərəzçilik yayılacaqdır.

YUNESKO-nun Ümumdünya «Fəlsəfə günü»nə
həsr edilmiş Respublika elmi konfransının materialları
Bakı, 2004

XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ VƏHDƏT ƏL-VÜCUD FƏLSƏFƏSİNİN TƏFSİRİNƏ DAİR BƏZİ MƏQAMLAR HAQQINDA

Allahın Vahid və Xaliq olmasını qəbul edən, Onu yaratdığı varlıqlarla vəhdətdə görən vəhdət əl-vücud dünyagörüşü və fəlsəfəsi dünya mənəvi mədəniyyətinin universal fenomenlərindəndir.

Tarixən müxtəlif milli və bölgə mədəniyyətləri və dünya dinləri ilə üzvü surətdə bağlı olan bu hadisənin mənəvi mədəniyyətdə əbədiliyinin mühüm səbəblərindən biri – onun ideya məzmununun daşıdığı insanpərvərlik, dini

tolerantlıq, ümumbəşəri humanist əxlaq normalarının tərənnümü, təbliğinin yüksək bədii təzahür formaları və genişliyi olub.

Məhz buna görə üçüncü minilliyin başlanğıcında insanpərvər bəşəriyyət eşqi varlığın təməli, Mütləq Həqiqət və Allah səviyyəsində görən vəhdət əl-vücud fəlsəfəsinin dünya miqyasında ən parlaq nümayəndələrindən olan Cəlaləddin Ruminin 800 illiyini sevgi və ehtiramla yad edir.

Şərq və Qərb fəlsəfəsindən ayrılmaz və İslam Şərqində İbn Sina, Əttar, Rumi kimi dahi mütəfəkkirlər tərəfindən qəbul və təbliğ edilən mistik eşq «qiyafəli» vəhdət əl-vücud təlimi daxili məntiqi və humanizmi baxımından dünya mənəvi mədəniyyət və fəlsəfə tarixinin tapıntısı və nailiyyətidir desək, yanılmarıq.

Təbiidir ki, Rumi yubileyinə həsr olunmuş elmi təntənələrdə mütəxəssislərin diqqətini bilavasitə fəlsəfi poeziyanı təmsil edən filosof-şairin yaradıcılığının təhlili xüsusi cəlb edir.

Bununla əlaqədar, Rumi irsinin bünövrəsində duran mistik vəhdət əl-vücud fəlsəfəsinin bəzi məqamlarının müasir təfsirinə nəzər yetirək.

Qədim dövrlərdən ayrı-ayrı adlar altında mövcud olmuş «vəhdət əl-vücud», yəni mövcudatın vəhdəti haqqında olan ileya, anlam və mistik fəlsəfi nəzəriyyələr, müxtəlif dövr və mədəniyyətlərdə fərqli tərif, təfsir və dəyərləndirmələrlə seçiliblər.

Vəhdət əl-vücud təliminin mistik səciyyəsini nəzərə alaraq, dünya mənəvi mədəniyyətində universallığa malik olan mistika fenomeninin mahiyyəti və mövcud təriflərinə diqqəti yönəltmək istərdim.

Elmi və elmi-arayış ədəbiyyatında mistikaya verilən təriflər bir-birinə oxşarlığı ilə seçilərək, hadisənin mahiyyəti və onun praktiki və nəzəri formalarının qeydi ilə kifayətlənirlər: mistikanı yaradan və onun sosial-mədəni həyatın universal hadisəsi kimi daimiliyini təmin edən səbəblər göstərilmir, bu da mistika haqqında ən yaxşı halda natamam təsəvvürə, hadisənin mahiyyətini açmağa, adekvat təhlil və qiymətləndirilməsinə imkan vermir.

Məlumdur ki, düşünən insan («homo sapiens») öz «Mən»inin «qeyri-Mən»dən fərqini dərk etdiyi və onu əhatə edən mühitin hadisələri qarşısında

acizlik və qorxu hisslərinə qapıldığı zamanlardan, o, qeyri-iradi, intuitiv yolla özünü psixoloji təsdiq və müdafiə naminə ətraf mühitin hadisələrinə, zənnimcə, onu bəlalardan qoruya biləcək fövqəltəbii xassələr şamil edir. Bu xassələr tarixin ilk və bir çox hallarda sonrakı çağlarında da səma, cəmad, bitki və heyvanat aləminin ayrı-ayrı fenomenlərinə, şüur və mənəviyyat inkişaf etdikcə isə – qeyri-maddi, İlahi başlanğıca aid edilir.

Başqa sözlə, insan imkan və iradəsini müəyyən mənada özgələşdirərək taleyini – həyat və əmin-amanlığını – fövqəltəbii bildiyi başlanğıca, İlahi qüvvəyə tapşırır, inam və ümidlərini bu qüvvə ilə, onun himayəsi ilə bağlayır. Lakin insan fərd kimi şəxsi təşəbbüsündən ayrılaraq real həyatda acizliyə məhkum olduğunu gördükdə o, yenə də psixoloji özünütəsdiq və real yaşamaq naminə əvvəl fövqəltəbii və İlahi qüvvəyə «həvalə etdiyi» imkan, iradə və təşəbbüsünü bu və ya digər şəkil və dərəcədə yenidən özününküləşdirməyə cəhd edir. Bu səbəbdən mistikanın müxtəlif praktiki formalarının – rəngarəng magiya növləri, falçılıq, cadu, şamanlıq və s. yollar ilə insanın onu əhatə edən sirli və qorxunc aləmə müdaxiləsi və bu aləmə təsir göstərmə təşəbbüsləri peyda olur.

Mistikanın həmin praktiki formaları şüurlu və ya şüuraltı surətdə öz zəifliyindən imtina etmək istəyən və imtina edən insanın imkan, iradə və bacarığına inamı ilə bağlı olaraq yaranır və yayılırlar.

Psixoloji özünümüdafiə və özünütəsdiq nəticəsində reallıq kəsb edən mistikanın nəzəri formaları isə əksər hallarda müxtəlif dinlərin Allah təsəvvürü ilə bilavasitə bağlıdır. Dini-mistik fəlsəfi cərəyanların dini təfsir etdikləri təlimlər, bir qayda olaraq, dövr və şəraitə müvafiq bu və ya digər tərzdə müxtəlif yollarla insanın Allahdan ayrılığını aradan qaldırmağa, onları birləşdirməyə çalışıblar, kimi Allahın İlahi sifatlarını (atributlarını) kamala yetmiş insana şamil, kimi – kamil insanın Allahla zat etibarilə eyniliyini təsdiq etmişdir. Bu cərəyanlar adətən yəhudi, xristian, İslam və s. dinlərin batini (ezoterik) təfsirindən çıxış edərək, Xaliqlə məxluqu birləşdirən varlığın vəhdəti (Şərqdə «vəhdət əl-vücüd», Qərbdə analoji təməl ideyadan çıxış edən və XVIII əsrin əvvəlindən «panteizm», XIX əsrdən isə «panenteizm» adıyla da məşhur

olan) nəzəriyyəsini yaradırlar ki, bu nəzəriyyə də prinsip etibarilə və ideya kökləriIə oxşar hilozoizm və panpsixizm (mövcudatda bütün varlıqların canlı həyat və psixika daşıyıcısı olması) nəzəriyyələri ilə bağlı idi.

Dini-mistik görüşlər əksər hallarda fəlsəfi nəzəriyyələr şəklində çıxış etmiş və mənsub olduqları dini-mədəni bölgələrdən asılı olmayaraq, bir çox hallarda rəsmi dinlərin ideoloqları tərəfindən bidət kimi qəbul edilib və təmsilçiləri təqibə məruz qalıblar.

Lakin müxtəlif təqiblərlə mistikaya son qoymaq mümkün olmadığı üçün mistika praktiki və nəzəri formalarında bu gün də yaşayır və o vaxta qədər yaşayacaqdır ki, insan həyatda və həyat sirrlərinin dərkində öz acizliyini hiss edəcək.

İdrak prosesinin sonsuzluğu rasional idrakın bir çox hallarda acizliyi, insanın yaşadığı dünyada iztirab və ölümə məhkum olması onun irrasional şüura müraciətini və həyat uğrunda zəka və iradəsini birləşdirən mübarizəsinin təzahürü olan mistikanın əbədiliyinin zəminidir.

Deyilənlərə müraciət ***Cəlaləddin Rumini*** təmsil edən təsəvvüfün əsasında məhz mistik vəhdət əl-vücud təliminin durması ilə bağlıdır.

Bu təlimlə əlaqədar bir necə düşünməyə ehtiyacı duyulan məqamları sual şəklində təklif edirəm:

1. İslam Şərqində təsəvvüf də daxil olmaqla, vəhdət əl-vücud təliminin və eynilə Qərbdə mistik panteist fəlsəfi təlimlərin bəlkə də düşünülməmiş, şüuraltı məqsədi insanı Allahla birləşdirərək, bu və ya digər şəkildə onun (insanın) əbədiliyini, qüdrətini, həlledici iradəsini, müdrikliyini və s. yenidən özünə qaytarmaq deyilmi?

2. Hazırda postsovet ölkələrindən olan tədqiqatçılar da daxil olmaqla, bəzi müəyyən məlum səbəblərə görə təsəvvüf fəlsəfəsinin İslam ilahiyyatı ilə eyniliyini sübut etməyə çalışırlar. Belə bir sual meydana çıxır: bu tədqiqatçılar İslamın zahiri və batini təfsiri arasında fərq görürlərmi? Və ya bu təfsirləri eyniləşdirmək mümkün olsaydı, İslam aləmində vəhdət əl-vücud fəlsəfəsini qəbul edən çoxsaylı batini təriqətlərdən bəhs edilərdimi?

3. Tarixən yüksək səviyyəli zəngin və mürəkkəb İslam mədəniyyətinə xas qeyri-ortodoksal, bidətçi sosial-mədəni cərəyanların nəzəri baxışlarının rəsmi islam ilahiyyatçıları tərəfindən inkarını, onların nümayəndələrinin təqib və qətllərini həmin ilahiyyatçıların nadanlığı, «dargözlüyü», siyasi intriqaları ilə izahı mədəni hadisə kimi rəsmi ilahiyyatı ehtiva edən İslam bölgəsi mədəniyyət tarixinin təhrifi deyilmi?

4. Azərbaycanlı tədqiqatçılar da daxil olmaqla, hazırda bir sıra mütəxəssislərin təsəvvüf təməlinə dayanan vəhdət əl-vücud fəlsəfəsini panteizmlə eyniləşdirməsinin qəti inkarını qəbul etmək olarmı? Məsələyə aydınlıq gətirmək üçün bu inkarın əsasını təşkil edən səbəb və dəlillərdən ikisinə nəzər yetirək.

Birinci səbəb və dəlil:

Panteizm – onu adətən Spinozanın adıyla bağlayırlar - ateizm və materializmə aparır. Qeyd etməliyik ki, Spinoza fəlsəfəsi haqqında xüsusən sovet mütəxəssisləri tərəfindən müəyyən maraqlara müvafiq olaraq geniş yayılan bu cür fikir Spinoza irsini təhrif edir.

Bütün varlığı Allahla birləşdirən və eyniləşdirən nəzəriyyənin Allahı inkar etməsini söyləmək məntiqdən kənardır (Plotinin «Enneada»larına, Spinozanın «Etika»sına və panteizm mövqeyində duran filosofların əsərlərinə və həmin əsərlərdə Allahın yerinə nəzər yetirin).

Lakin bu da məlumdur ki, ontoloji görüşlərində panteizmdən, eynilə vəhdət əl-vücuddan çıxış edən təlimlər konkret məsələlərin şərhində tarixən həm materializm və ateizmə, həm də din və idealizmə təmayüllü olmuşlar.

İkinci dəlil: «vəhdət əl-vücud» və panteizm anlamlarının eyniləşdirilməsi, guya, Şərq fəlsəfə və mədəniyyətinin özünəməxsusluğunun inkarı və hazırda bir sıra mütəxəssislər tərəfindən qəbul edilməyən Şərq mədəniyyətini Qərb mədəniyyətində «əritmə» təmayüllü qloballaşmaya aparan yoldur.

Qeyd etməliyik ki, varlığın (Xaliq və məxluqun) vəhdətindən çıxış etmək, müxtəlif tərzlərdə bu vəhdətin qəbul edilməsi mahiyyəti etibarilə eynilə Şərq və

Qərb dünyagörüşünə xas olduğu üçün vəhdət əl-vücud təlimi dəfələrlə Şərq və Qərb elmi ədəbiyyatında panteizm anlamı ilə ifadə edilmişdir.

Biz, əlbəttə, vəhdət əl-vücud təlimini panteizm adlandırmaya da bilərik, lakin onların mahiyyətini təşkil edən Xaliqlə məxluqun bir olması, varlığın vəhdəti müddəasını inkar edə bilməyəcəyik.

Zənnimizcə, ədəbiyyatda rastlaşdığımız «panteizm»lə «panenteizm» anlamlarının fərqi də olduqca nisbidir. Çünki ***«Allah hər şeydir»*** və ***«Hər şey Allahdır»*** tənliyinin hər iki tərəfi bərabərdir. Görünür, bu səbəbdən də biz vəhdət fəlsəfəsini təmsil edən və regionundan asılı olmayaraq bütün mütəfəkkirlərin əsərlərində göstərilən hər iki mülahizənin dönə-dönə təkrarına rast gəlirik.

Qloballaşma məsələsinə gəldikdə isə, deyə bilərik ki, dünya mədəniyyəti tarixən qloballığın ən bariz təzahürüdür. Qarşılıqlı əlaqə və zənginləşmədən qaynaqlanan Qədim Şərq, yunan, Orta əsr Şərq, Qərb İntibahı, Yeni və Ən Yeni dövr Şərq və Qərb fəlsəfə mədəniyyətləri və bu mədəniyyətlərin özünəməxsusluqları ilə bərabər ümümi qanunauyğunluqlarının olması onların daxili vəhdətini sübut etmirmi? Və bu ideya vəhdəti «vəhdət əl-vücud», «panteizm» adı ilə tanınan dünyagörüşündə öz əksini tapmayıbmı?

Yenə də fəlsəfənin mövzusu ***bütövlükdə götürülmüş vahid varlığın*** əsas ümumi prinsiplərinin tədqiq və şərhi deyilmi?

Nəhayət, dini, irqi tolerantlığı və ümumbəşəri humanizmi tərənnüm edən, Şərq və Qərbi birləşdirən və hər iki region tərəfindən bu il yubileyi təntənə ilə qeyd olunan Cəlaləddin Rumi irsi deyilənləri sübut etmirmi?

Göstərilən mülahizələr 40 ildən artıq Şərq və Qərbdə vəhdət nəzəriyyəsinə əsaslanan müxtəlif fəlsəfi cərəyan və məktəbləri təmsil edən irsin tədqiqinə əsaslanır və hazırda təməfimizdən üzakirə üçün təqdim olunur.

Yazımızın axırında qeyd etməliyik ki, bir sıra hallarda, xüsusən son zamanlar Azərbaycanda qeyd edilən Mövlanə günlərində Cəlaləddin Rumi fəlsəfəsinin türk təfəkkürünün təzahürü olması haqda mülahizələrlə rastlaşırıq.

Rumi irsinin Türkiyə ilə bağlılığı inkaredilməz həqiqətdir.

Lakin Rumi təsəvvüf fəlsəfəsinin əsas prinsipial mövqelərinin İslam Şərqi bölgəsinin təsəvvüf fəlsəfəsinin prinsipial nəzəri-fəlsəfi mövqeləri ilə oxşarlığı və eyniliyi də inkar edilməzdir.

Digər tərəfdən, Rumi fəlsəfi poeziyasında nəzəri təzahürünü tapmış mevleviyyə sufi cərəyanı orijinallığı baxımından dünya fəlsəfi fikrində özünəməxsusluğu ilə seçilərək yaşayır.

Bu özünəməxsusluq türk etnik dünyagörüşü ilə deyil, bəlkə özünü türk sayan Rumi dühasının yaratdığı vəhdət əl-vücuda əsaslanan təsəvvüf fəlsəfəsinin yeni təfsirindədir ki, bu təfsir ilk növbədə Türkiyədə yaranaraq dünyaya yayılmış və türk mənəvi həyatında xüsusi yer tutub və tutmaqdadır.

Məlum olduğu kimi, Şərq və Qərb mənəvi mədəniyyətindən tarixən ayrılmaz olmuş və müxtəlif formalarda təzahür etmiş varlığın vəhdəti nəzəriyyələri bu vəhdətin əsasında müxtəlif amilləri görüblər.

Təsəvvüf fəlsəfəsi dünyagörüşünü qəbul edən çoxsaylı təriqətlər vəhdətin əsasında Allaha yönəlmiş məhəbbəti görməklə seçiliblər. Lakin Allaha aparan yolları, Ona qovuşma üsullarını kimi tənhalığa varmaqla, kimi orucluq günlərinin artırılmasında, kimi dayanmadan uzun zaman zikrdə - Allahın adının və ya müəyyən duaların çoxsaylı təkrarında görürdü. Mevlevi cərəyanı bu yolu səmada – musiqi, rəqs, ritmik hərəkətlərdə görürdü.

Güman etmək olar ki, bu, cərəyanların fəlsəfəsinin bəlkə də daxili məntiqindən gəlirdi. Varlığın vəhdət və ahənginin əsasında bu nəzəriyyələrin bəziləri maddi ünsür, hərf, nöqtəni görürdüsə mevleviyyə nəzəriyyəsi – səs-musiqi və ritm-rəqsi görür və məhz bu səbəbdən İlahi eşqi ki, Allaha apran yolu, rəqs və musiqilə bağlayırdılar.

Bir sıra ilahiyyatçı və təriqətçilər tərəfindən qəbul edilməyən rəqs və musiqi vasitəsilə zikr mevleviyyə fəlsəfəsinin ontoloji görüşlərilə bağlıdır.

Hər halda bu fərziyyə, zənnimizcə, tədqiq edildikdə Türkiyədə yaranmış, türk aləmi və təfəkkürü ilə üzvü bağlı olaraq dünyaya yayılan Rumi fəlsəfəsinin orijinallığı haqqında bəhs etməyə imkan verər.

О КОНЦЕПЦИИ ИССЛЕДОВАНИЙ ПО ИСТОРИИ ЭТНОКУЛЬТУРЫ,

В ЧАСТНОСТИ ИСТОРИИ ФИЛОСОФИИ ОТДЕЛЬНОГО НАРОДА

Исследования по истории культуры, отдельных ее феноменов свидетельствовали о том, что выбор концепций и оценочных критериев при их интерпретации зависел от потребностей и запросов социокультурного развития общества в целом. Особенно эта зависимость ощущалась в переломные моменты социокультурного развития; характер «перелома» в значительной степени определял отношение исследователей к выбору объектов изучения, методологии, конкретной методике исследования и оценочных критериев. Формирование же последних, безусловно, испытывало воздействие эпохи на творческую личность исследователя.

Изложенное в равной мере относится к исследованиям как настоящего, так и прошлого и будущего культуры, прогнозу развития как самой культуры, так и характера будущих исследований по ее истории. Естественно, чем сильнее был перелом в социокультурном развитии общества, тем шире и острее он отражался в различных сферах научных исследований по культуре, определяя приоритеты в выборе проблем исследования и своеобразие исследования в целом – от концепции до конкретных акцентов в процессе научного анализа.

Исходя из реальности того, что философия отдельных народов исторически и в настоящем есть органическая и цементирующая часть его культуры, исследование истории философии отдельного народа целесообразно вести в контексте различных срезов истории его культуры – его этнокультуры, а также региональных культур (имеются в виду географические, этноязыковые, культурные и т.д. регионы) и мировой культуры, которым он исторически был сопричастен. Многоуровневое исследование философии любого этноса, предполагающее всесторонний и глубинный анализ его сущности и исторической цельности (самодостаточности), одновременно является веским подтверждением взаимосвязанности и духовной общности человечества в процессе его

истории, что особенно актуально в условиях нарастания межнациональных, межрелигиозных и пр. противоречий конца XX – начала XXI века.

Исследования по истории философии требуют предварительного уточнения и относительной унификации научных представлений о категориальном аппарате как самой историко-философской науки, так и этнографии и культурологии*, которая как наука в настоящее время переживает процесс своего становления. Неоценимую роль в уточнении категориального аппарата названных наук могут сыграть исследования компаративистского (структурно-типологического и пр.) планов, предоставляющие широкие возможности как для выявления сущности, общего и особенного в исследуемых явлениях, так и при реконструкции общей картины глобального развития культуры, постепенной ликвидации «белых пятен».

Сущность и объем широко употребляемых в нашей научной литературе понятий «национальная культура» и соответственно «национальная философия» ввиду отсутствия в современной науке четкого определения нации свидетельствуют, на наш взгляд, о целесообразности замены их более точными понятиями «этнокультура» и «этнофилософия».

В относительной унификации нуждаются представления об объеме и временных границах неоднозначно употребляемых в научной литературе, в частности литературе историко-философского плана, понятий «история этнофилософии», т.е. история философии того или иного конкретного народа, «предфилософия», «пантеизм», «мистика», «Ренессанс», «утопия», «Просвещение», «Романтизм» и т.д., а также неоднозначные критерии при оценке исторической значимости того или иного феномена.

Уточнение понятийно-категориального аппарата названных выше наук должно базироваться на опыте исследования не только западного региона, что делалось поныне и стало причиной научной ущербности определений

---

* Речь идет о культурологии в узком смысле данного понятия – как о философской науке, специально исследующей категориальный аппарат культуры, общее и особенное в закономерностях ее развития.

ряда универсальных категорий, а на опыте истории культуры, в частности философии восточного региона.

Методологически неверна и имеющая место гиперболизация специфики философии Запада и Востока, возводящая и укрепляющая «китайскую стену» между духовной культурой двух регионов и по существу сводящая на нет сущностную определенность философии, представляющей синтез мировоззрения и науки о наиболее общих принципах бытия либо закономерностях развития природы, общества и мышления органически взаимосвязанного мира с взаимопроникающими культурами народов его отдельных различающихся стран и регионов.

Известно, что история восточной философии, включая и философию народов бывшего Советского Востока, к сожалению, получила весьма неудовлетворительное и по объему и по качеству, а порою и открыто некорректное отражение в научной литературе советского региона, в сводных исследованиях по истории философии и истории философии народов СССР (см., к примеру, «Введение в философию», М., 1989), в научной периодике (журналы «Вопросы философии» и «Философские науки»), в научно-справочной литературе («Философская энциклопедия», «Философский энциклопедический словарь»), в брошюре А.И.Солженицына «Как нам обустроить Россию» (М., 1990) и др. работах. О недопустимости подобных подходов в научном, политическом и нравственном планах мы писали неоднократно.*

Концептуально ошибочными при научной интерпретации истории философии как явления глобальной духовной культуры, возможно, следует признать:

1. Абсолютизацию и гиперболизацию специфики восточной и западной философии, отрицающие по существу присущие обоим регионам общие

---

* Свое видение данной проблемы мы неоднократно публиковали. См.: Кули-заде З. О мировоззрении Касими Анвара. Баку, 1976, с.4-7; журн. «Проблемы восточной философии». Баку, 1997, с.7-10, 63-64; З.Кулизаде. Из истории азербайджанской философии VII–XVI вв. Баку, 1992, с.13-32, 234-236; История азербайджанской философии, в 4-х т. Т.I. Баку, 2002.

закономерности в постижении и отражении бытия через философию, т.е. отрицание универсальности философии как мировоззрения и науки.

2. Пренебрежение опытом восточной культуры при разработке категориального аппарата всемирной философии (понятий «социальная утопия», «Ренессанс», «Просвещение», «Романтизм» и т.д.), что вело к отрицанию универсальности этих понятий для истории культуры, включая и философию, и к двойным стандартам при оценке одних и тех же явлений, например, пантеизма, религии, Ренессанса, философии неортодоксальных течений средневековья и т.д. в разнорегиональных культурах.

В свете изложенного особо следует выделить значимость расширения сравнительных структурно-типологических исследований истории философии отдельных этносов и регионов. Исследования подобного плана, выявляя общее и особенное в развитии философской мысли человечества, будут способствовать относительной унификации научных представлений о категориальном аппарате и основных закономерностях развития всеобщей философии, в которую входят и в которой органически переплетаются философские воззрения человечества на различных этапах его развития.

Исследования подобного плана помимо научной несли бы и серьезную нравственную нагрузку, ибо способствовали бы выявлению сущностной близости человечества, которое едино и во множестве случаев мыслит и отражает познанное, подчиняясь единым законам. В свое время, как известно, эту мысль высказал великий философ арабов Ибн Рушд в тезисе «разум всех людей един» – тезисе, который стал первым тезисом западных аверроистов и был предан осуждению парижским епископом Тампье в 1270 году.

Одним из спорных вопросов при освещении этнофилософии является вопрос о временных границах этноса и этнокультуры, ибо временные границы понятия «этнокультура» гораздо шире временных границ понятия «этнос». В объем понятия «этнокультура» в той или иной мере входит культура всех этнических единиц, которые исторически принимали участие в

формировании данного этноса. В этом смысле нет этносов без древней культуры. И не случайно авторы исследований по истории философии отдельных народов, пытаясь определить эпоху этногенеза данного народа определенными веками, как правило историю его философии начинают, с древности, с анализа мифологии и фольклора, отражающих дописьменный период данной культуры. Необходимы четкая очерченность понятия «культура» как объекта исследования истории культуры и культурологи и отделение места философии в составе культуры.

Учитывая путаницу в категориальном аппарате современной этнографии, необходимо также четкое определение понятия «этнос», сущности различных ступеней его развития – племя, народность, нация и соответственно связь их с этнокультурой.

Актуальными проблемами современной историко-философской науки являются проблемы определения методологии и методики исследования истории философии народов бывшего советского Востока. Обращение к данным проблемам обусловлено:

1) наличием в методологии исследований плюрализма, пришедшего на смену жесткой идеологизированности подходов советского периода, и соответственно необходимостью строгого определения и аргументации избранных теоретических принципов, на которых базируется исследование;

2) необходимостью относительной унификации оценочных критериев;

3) целесообразностью относительной унификации конкретной методики анализа аналогичных объектов исследования;

4) целесообразностью определения подходов к истокам философских воззрений этносов, исторически входивших в регион исламской культуры.

Особая актуальность обращения к культуре народов исламского региона бывшего СССР продиктована следующими соображениями:

1. Общностью, связывающей данные народы на отдельных этапах истории и социально-политического и духовного развития; исторически

неоднократным вхождением их в единые империи и единые языковые, культурные и религиозные регионы.

2. Наличием фальсификаций и множества недостатков научного и этико-политического планов, допущенных и продолжающих допускаться при освещении культуры исторически связанных с исламом народов бывшего СССР.

3. Необходимостью создания сводной научной истории философии народов региона исламской культуры.

В свете изложенного особую значимость обретает обращение и к проблемам методики исследований в области истории философии, в частности изыскания оптимальных методов сочетания анализа по персоналиям либо проблемам, путей включения философии религии в историю философии, а также форм представления истории философии в контексте социально-экономического и общекультурного развития отдельного этноса.

Следует отметить, что среди исследований по истории культуры, включая и историю философии, ориентировочно до второй половины XIX века превалировал интерес к обобщенному (описательному либо научно-аналитическому) освещению региональных культур. Регионы определялись на основании общности временнóго, географического, религиозного и пр. факторов.

Начиная со второй половины XIX в. и, в частности, в XX в. значительно возрос интерес к изучению этнокультур, что, по-видимому, наряду с более глубоким и относительно конкретизированным подходом к исследованию истории культуры, было обусловлено и социально-политическими причинами – новым уровнем в развитии наций, в частности наций ранее угнетенных, и соответственно их национального самосознания, органически связанного с попыткой осмыслить себя и как этническое, и как этнокультурное целое, определить место своей культуры в системе региональных культур и мировой культуры.

Внутренне глубоко противоречивая картина идеологической жизни региона по существу не раскрывается. Философия неортодоксальных течений фактически сводится только к мистике (см. статьи о тасаввуфе, хуруфизме и др. течениях), при этом игнорируется наличие пантеистической философии в региональной культуре, а идеологическая борьба сводится к «подстрекательствам» и «дворцовым интригам» (см. статьи о батинизме, тасаввуфе, хуруфизме, сухравардийе и др.).

При составлении словника в него не были включены статьи об Ахмеде Ясави, Ахмеде Югнаки, Юсуфе Баласакуни, Махмуде Кашкари, Юнусе Имре и многих других известнейших представителях культуры тюркоязычных этносов исламского региона.

Как можно было включить хуррамизм в схему «Основные направления шиизма»?

Отклики на вопросы и, возможно, новые вопросы к редакции Словаря мы надеемся публиковать по мере их поступления.

Баку, 1996

İSLAM BÖLGƏSİ FƏLSƏFİ POEZİYASININ TƏDQİQİNƏ DAİR

Tarixən qlobal fəlsəfi fikir ya əsasən hissi idrak və bədii təfəkkürə təməllənən bədii nəsr və poetik şəkildə ya da rasional idraka əsaslanan məntiqi-nəzəri təlimlər şəklində təzahür edib və etməkdədir.

Fəlsəfi fikrin universallığı ilə səciyyələnən formalarından biri – həm Şərq, həm də Qərb mədəni bölgələrində fəlsəfi məzmunu bir neçə təməl ideya və ya fəlsəfi sistem kimi poetik formada təqdim edilən fəlsəfi poeziyadır.

Fəlsəfi poeziyanın İslam Şərqinin mənəvi-mədəni tarixində dünyanın başqa bölgələrinə nisbətən daha geniş yayılması, zənnimizcə, aşağıdakı səbəblərlə bağlıdır:

1. Yaxın və Orta Şərq bölgələrində bədii poetik təfəkkürün İslamdan əvvəlki dövrdə yüksək inkişafı və səbatlı ənənəyə çevrilməsi;
2. Quranın müsəlmanlara xüsusi bədii formada – səclə çatdırılması;
3. Fəlsəfi poeziyanın bölgədə Quran və İslamın batini təfsirinə yönəlmiş çoxsaylı təriqətlərin mistik fəlsəfi təlimləri ilə bağlılığı. Həmin fəlsəfəni əsas ideyalar və ya sistem şəklində təqdim və geniş təbliği üçün bölgədə bədii təfəkkürün səviyyəsi baxımından poetik forma xüsusi əhəmiyyət kəsb edirdi. Bədii təfəkkürü yüksək inkişafa malik xalqın dünyagörüşünə, aşılamaq üçün mistik cərəyanların fəlsəfi təlimlərinin təbliği ilə bağlı fəlsəfi poeziya ən yararlı bir imkan və psixoloji təsir aləti idi.

Yeri gəlmişkən, qeyd etməliyik ki, İslam Şərqi fəlsəfi poeziyasının poetik kamilliyinə görə dünya mədəniyyətində şöhrət qazanmasının bəlkə əsas səbəblərindən biri onun fəlsəfi məzmunun təbliği funksiyası ilə bağlı idi. Fikirlərin zehnlərdə həkk olunması, insan əqidəsinə çevrilməsi bu fikirlərin yüzlərlə forma və kontekstlərdə cəlbedici təkrarını tələb edirdi.

Tarixən yüksək mənəvi və xüsusən şeir mədəniyyətinə malik İslam Şərqi bölgəsinin insanını cəlb etmək məzmun təkrarlarının zahiri poetik formasının daimi təkamülünü, şeir dilinin zənginliyinin cilalanmasını tələb edərək, ənənəyə çevrilirdi.

İki, bir-biri ilə bağlı və eyni zamanda fərdiliyini itirməyən hadisə olan fəlsəfə və poeziyanın tədqiqi təbii ki, tarixən müvafiq iki istiqamətdə – fəlsəfə və ədəbiyyatşünaslığa aid araşdırmalarda gedib və getməkdədir. Bu sahələrə dair, Azərbaycan elmi də daxil olmaqla, Şərq və Qərb aləminin müxtəlif dövrlərdə yazılmış çoxsaylı tədqiqatları mövcuddur.

Tarixən və hazırda da tədqiqatçılar fəlsəfi poeziyanın fəlsəfi baxımdan (fəlsəfi səpgidə) ideya təhlilini və xüsusən onun dinə münasibətini araşdırarkən müxtəlif mövqedə olmuşlar. Bu isə həmin poeziyanın məzmununu təşkil edən fəlsəfənin təfsir və dəyərləndirilməsi ilə bağlıdır.

Fikir müxtəlifliyi əsasən fəlsəfi poeziyanın bünövrəsini təşkil edən vəhdət əl-vücud nəzəriyyəsinin təfsiri, onun islama münasibəti və dünya fəlsəfəsində panteizm adı ilə məlum hadisəyə münasibətinə, onların eyniliyinə və fərqinə aiddir.

Vəhdət əl-vücud təlimi tarixən və müasir dövrdə müxtəlif şəkildə ya bidət kimi, ya din çərçivəsində dindən kənara çıxmayan, ona müvafiq hadisə kimi təfsir edilib və dəyərləndirilib.

Panteizmin teizmdən fərqini nəzərə alaraq vəhdət əl-vücudu dinlə eyniləşdirmək istəyən şəxslər ən asan yolu - vəhdət əl-vücudun panteizm olmadığını söyləmək yolunu tuturlar. Bu yol asandır, lakin həqiqətə uyğun və inandırıcıdırmı?

Vəhdət əl-vücüd təliminə əsaslanan İslam aləmi mütəfəkkirləri və panteistlər adı ilə tanınan Qərb mütəfəkkirləri dünya dinlərinə və Allaha ziddirlərmi? Allahı, Onun təkliyini inkarmı edirlər? Xeyr. Lakin təkallahlığı qəbul edən yəhudilik, xristianlıq və islamın tarixən mövcud olmuş çoxsaylı təfsirçiləri Allahın təkliyini, ilkin və əbədiliyini, Xaliq olmasını qəbul edərək, Xaliq və məxluqun münasibətini fərqli şəkillərdə təfsir ediblər.

Tövhidi qəbul edərək, onlardan bəziləri Xaliq və məxluqun arasında keçilməz sədd görür, digərləri isə Xaliq ilə məxluqu vəhdətdə qəbul edirdilər. Bu vəhdətin pozulmasında sonuncular məxluqun faciəsini görür və məxluqu kamala yetirərək Allahla birləşdirən yollar – təriqətlər yaradırlar. Simvol və alleqoriyalara geniş istinad edərək məxluqu kamala yetişdirən və Xaliqlə vəhdəti təmin edən mistik eşq fəlsəfəsinin müxtəlif çalarlarının təmsili olan təriqətlər belə yaranır. Bu təriqətlərin təliminə görə, əzəldə Allahla vəhdətdə olmuş insan fani dünyada özünün bədbəxtliyini hiss və dərk edir və qəm qüssəyə qərq olur; İlahi Sevgilinin ayrılığının dərdini çəkir və Onunla qovuşmaq üçün təriqət məqamlarını keçəcək kamala yetişir; kamil insan

məqamında dünyəvilikdən xilas olaraq artıq Allahla birliyini dərk edir və bir sıra təriqətlərin təliminə görə hələ diri ikən fəna-fillah məqamına çatıb bəqaya nail olur. Allahla vəhdətini dərk edən insan ikiliyin yox olmasını təsdiq edən «ən əl-həqq» kəlməsini söyləyir. Bu isə batini təfsirləri inkar edən din xadimləri tərəfindən, məlumdur ki, şirk və bidət kimi dəyərləndirilib və qətllərə səbəb olub. Lakin o da məlumdur ki, təqib və qətllərə baxmayaraq vəhdət əl-vücud fəlsəfəsinə əsaslanan cərəyanlar və bu fəlsəfənin əsas müddəalarını müxtəlif şəkildə təqdim və təbliğ edən fəlsəfi poeziya ömrünü davam edib və etməkdədir.

Bir daha nəzərə çatdırırıq: vəhdət əl-vücud fəlsəfəsi Allahın birliyini, əzəli, əbədi xaliq olmasını, onun qəbul edilmiş 101 sifatini inkar etmirdi, bunlara ezoterik yozum verirdi ki, bu yozum zahiri yozumdan bir sıra məqamlarda fərqli idi.

İslam bölgəsinin mənəvi aləmindəki sonsuz çəkişmə və qətllərin qarşısını almaq məqsədilə və bölgədə əmin-amanlığı, mənəvi həyatda birliyi təmin etmək naminə artıq orta əsrlərdən başlayaraq bir sıra mütəfəkkirlər tərəfindən vəhdət əl-vücud islamın fəlsəfəsi adlandırıldı və bu günə qədər onun ideyaları və alleqorik rəmzləri islam mədəni bölgəsinin Divan ədəbiyyatında yaşamaqdadır.

Qərbdə də panteizm fəlsəfəsi, müəyyən özünəməxsusluğu nəzərə alınmasa, demək olar ki, oxşar yol keçib və hazırda müasir Qərb fəlsəfi təlimlərində genişlənməkdədir.

Uzun zaman ərzində mədəniyyət və fəlsəfə tarixinə dair tədqiqatlarda Qərbdə, Rusiyada, Azərbaycanda, digər SSRİ ölkələrində, Türkiyədə, İranda vəhdət əl-vücudun panteizmlə eyniliyi təsdiqlənib. Tədqiqatlarda və ərəb, fars, türk dilləri lüğətlərində vəhdət əl-vücud panteizm kimi tərcümə edilir.

Lakin son zamanlarda, xüsusən, postsovet məkanında bir çox mədəniyyətə dair və fəlsəfi tədqiqatlarda bu eyniyyət inkar edilir və vəhdət əl-vücudun panteizm olmamasını sübuta yetirməyə çalışırlar. Dəlil kimi vəhdət əl-vücud fəlsəfəsinin təməlində idealizmin durması söylənilir, lakin panteizmdə Allah mütləq varlıq, ilkin və yaradıcı kimi qəbul edilir; bu baxımdan onun

idealizminə şübhə edilməməlidir. Dünya dinlərində də vəhdət əl-vücudu və ya panteizmi sübut etmək üçün kifayət qədər əsaslar var və bu əsaslardan tarixən qədərincə istifadə edilib.

Bir sıra hallarda tədqiqatçılar vəhdət əl-vücud fəlsəfəsində «yoxluq» kateqoriyasının olmasına istinad edərək onun panteizmdən fərqini sübut etməyə çalışırlar.

Lakin fəlsəfədə universallığı ilə səciyyələnən «yoxluq» kateqoriyası sufizmdə, həm islam bölgəsinin sair cərəyanlarında mütləq mənada qəbul edilməyib və nisbi xarakter daşıyıb.

Yoxluğu çox vaxt məxluqun faniliyi kimi yozurlar. Bu isə inandırıcı deyil. Vəhdət əl-vücud və panteizm nümayəndələri məxluqun faniliyini (ölümünü) heç də inkar etməyiblər, lakin «ölmək» mövcud olmamaq demək deyildir. Faniliyi bu cür anlayanlar həm dünya dinlərində Xaliqi inkar edirlər, həm vəhdət əl-vücud və panteizmdə vəhdəti. Yoxluğu qəbul edən Vahidi qəbul edə bilər, lakin vəhdəti qəbul edə bilməz.

Söylənilən müddəalar düşünmək üçün, xüsusən Şərq fəlsəfi poeziyasını və bu poeziyanın dünyada Şərqi şöhrətləndirmiş dahi Rumi və digər mütəfəkkirlərin irsinin fəlsəfi araşdırma və dəyərləndirilməsi zamanı bir daha nəzərdən keçirilmək üçün təklif edilir.

Ruminin yubileyi ilə əlaqədar konkret təklifim: Rumi əsərlərinin orijinalla Azərbaycan dilinə sətri tərcüməsini ehtiva edən akademik nəşrinin hazırlanması üçün müvafiq qurumlar qarşısında vəsadət qaldırılsın. Klassik irsi savadsız tərcümə etmək klassik mənəvi irsə zərbədir. Rumi irsindən azərbaycan dilinə mövcud tərcümələr tənqidi dəyərləndirilməlidir.

Məqalə «Mövlana Cəlaləddin Ruminin 800 illik yubileyinə həsr olunmuş Beynəlxalq konfransın materialları»nda dərc edilib.

Bakı 2006-cı il

TÜRK XALQLARI BÖLGƏSİNİN VƏTƏNDAŞ VƏ MƏDƏNİYYƏT TARİXİ TƏDQİQİNƏ DAİR BƏZİ MÜHÜM VƏ AKTUAL PROBLEMLƏR

Vətəndaş və mədəniyyət tarixlərinin dünya elmində mövcud olan bölgələr üzrə təsnifat modelinin /Avropa, Yaxın, Orta və Uzaq Şərq xalqları, slavyanlar və b./ elmi və siyasi əhəmiyyət və dəyəri bu model əsasında türk xalqları bölgəsinin də ümumi vətəndaş və mədəniyyət tarixlərinin yaradılmasının vacib və təxirəsalınmaz bir problem olduğuna dəlalət edir.

Güman etmək olar ki, bölgə üzrə ümumi vətəndaş, fəlsəfə, din, elm, ədəbiyyat və s. tarixlərin nəşri, bölgənin dünya tarixində yerini göstərərək, türk xalqlarına – özlərinin, dünya xalqlarına isə – bu xalqların keçmişi və bu gününün dərkinə və qiymətləndirilməsinə kömək etməklə, qlobal elmin inkişaf və humanistləşməsini təmin edən amil ola bilər.

Bölgəyə həsr edilmiş ümumi tarixlər müasir elmdə mövcud olan yanlış və bölgə mədəniyyətinin ləyaqətini alçaldan bir sıra stereotiplərdən azad edə bilər. Məsələn, bu sahədə aparılan tədqiqatlar türk etnosu, etnogenezisi, etnik mədəniyyəti anlayışlarını müəyyənləşdirərək, türk tarixinin dövrləşdirilməsi, «qədim türklərin» dövrü, bölgədə şəhər mədəniyyəti və dövlət institutunun tarixi, türk ədəbi dilinin qədimliyi problemləri barədə mövcud səhv və dəqiqsizlikləri açıqlayır.

Türk dünyası üçün qaldırılan bu qlobal problemlərin həlli türk xalqlarının hazırkı mədəni qurumlarının fəaliyyətindən istifadə etməklə bərabər, xüsusi mərkəzləşdirici elmi strukturun və ya strukturların yaradılmasını tələb edir.

Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə institutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru Zümrüd Quluzadənin Azərbaycan Elmlər Akademiyasının Türkiyə Respublikasının 70 illiyinə həsr olunmuş Beynəlxalq elmi-praktiki konfransında verdiyi təklif.
8 fevral 1994-cü il

ORTA ƏSR TÜRKDİLLİ FƏLSƏFİ ŞEİRİN TƏDQİQİNİN BƏZİ PROBLEMLƏRİ

Məlumdur ki, elmdə anlaşılmayan hadisələrin və ziddiyyətlərin əsas səbəblərindən biri istifadə edilən konseptual anlayışların məzmunu haqqında vahid, tehvit (unifikasiya) edilməmiş mövqeyin olmasıdır. Müasir mədəniyyətşünaslıqda məzmun və həcminin unifikasiyasına ehtiyac duyulan

anlayışlar sırasına araşdırılan mövzu ilə bu və ya digər dərəcədə bağlı «etnos», «etnik mədəniyyət», «türk etnosu», «türkdilli fəlsəfi şeir», «türk etnik mədəniyyəti» kimi anlayışlar da daxildir. Bu anlayışların elmdə müxtəlif yozumlarının olmasını nəzərə alaraq, bilavasitə mətləbə keçməzdən əvvəl onlardan bəzilərinin məzmunu və həcmi haqqında mövqeyimizi bildirməyi zəruri hesab edirik.

«Etnos» anlayışına müasir dünya elmi ədəbiyyatda verilən təriflərin müxtəlifliyini və çox vaxt aydın olmadığını nəzərə alaraq qeyd etməliyik ki, şəxsən «etnos» anlayışı altında ərazi, dil, sosial və mənəvi əlaqələrlə bağlı insanların toplum şəklində birliyini qəbul edən mövqe ilə həmfikirik.

Tarixi kateqoriya olaraq etnoslar adı çəkilən cəhətləri dəyişdikdə özləri də keyfiyyətcə başqalaşır. Deyilənlər, etnogenez prosesinin inkişafının universal qanunauğunluğudur.

«Etnik mədəniyyət» anlayışı zaman hüdudları etibarilə «etnos» anlayışından genişdir, çünki «etnik mədəniyyət» anlayışı etnosun genetik yaddaşını ehtiva edir, etnosun tarixi inkişafında, onun təşəkkülündə tarixən bilavasitə iştirak edən, onunla həmsərhəd olan, onunla ticarət və siyasi əlaqələrdə olan, nəhayət, onu zəbt etmiş etnosların mədəni ənənələrini bu və ya digər dərəcədə özündə birləşdirir.

Türkdilli xalqların mədəniyyət tarixinin başlanğıcı türk dilinin sosial bir toplumun dili kimi yaranma zamanına müvafiqdir və bu zaman müasir elm tərəfindən, təəssüf ki, hələ də dəqiq müəyyən edilməmişdir. Amma məlumdur ki, bu zaman müasir elmin «qədim türklər dövrü» kimi İ.Qumilyov* təqdimində qəbul edildiyi nə miladdan sonra VI-VII əsrlərdir, nə də bu əsrlərdən bir-iki əsr əvvələ təsadüf etmir. Türklərin Qədim dövrü və qədim mədəniyyəti türk dilinin təmas vasitəsi kimi ilk türk etnosunu birləşdirən dövrdən mövcuddur.

Türk tarixi və həmin tarixin dövrləşdirməsindən bəhs edən alimlərin bu barədə düşünmələri zəruridir. Dövrləşdirmə aparаrkən alimlər türk tarixinə də başqa xalqların tarixinə yanaşdıqları vahid, tehvit olunmuş elmi meyarlarla

* Л.Гумилев. Древние тюрки. М., …… с. ….

yanaşmalı və türk Orta əsr dövrünü Qədim dövr kimi səciyyələndirməməlidirlər. VI-VII əsrləri türk tarixinin Qədim yox, Orta əsr dövrü hesab etmək düzgündür.

Bir daha təkrar edirik, türk etnik mədəniyyəti tarixi türk dilinin yaranma tarixi ilə başlanır. Türk tarixinin qədimliyini sübut eən yazılı mənbələrin hələ tapılmaması bunu inkar edə bilməz. Elmdə, mənbələrdən əlavə tarixin inkişaf qanunlarından gələn və bunların məntiqinə əsaslanan elmi fərziyyələrin, qiyas üzrə nəticələrin əhəmiyyətini və dəyərini unutmaq olmaz.

Tarixən mövcud olmuş və müasir türkdilli xalqlar qədim türk etnik mədəniyyətinin qanuni varisi – daşıyıcısı və davamçılarıdırlar. Söylədiyimiz eynilə başqa etnik mədəniyyətlər və onların daşıyıcısı olan xalqlara da aiddir və etnik mədəniyyəltərin, bəzi tədqiqatlarda yazıldığı kimi, «qədimləşdirilməsi» kimi yozula bilməz. Bunu da nəzərə almaq lazımdır ki, hər bir etnos onun təşəkkülündə iştirak edən etnik vahidlərin mədəniyyətinin də varisidir və bəşər mədəniyyətlərinin xətti, bəşər tarixinin qırılmaz olduğu kimi, qırılmazdır.

«Fəlsəfi şeir». Etnik mədəniyyətlərin müəyyən bir hissəsini təmsil edən fəlsəfi şeirin bir hadisə (fenomen) kimi tarixi bu mədəniyyətin inkişaf tarixinin nisbətən qədim dövrləri ilə bağlıdır. Fəlsəfi düşüncə və dünyagörüşünün şeirdə ilk rüşeyimləri və izləri başlanğıcda musiqi ilə birgə, magik və dini mətnlərdə, üfləmə, mahnı və deyimlərdə təzahür edir. Etnik mədəniyyətlərin Qədim dövrlərindən başlayaraq şeirdə fəlsəfənin elementləri, onun ilkin «Mən» və «qeyri-Mən»in əlaqələrini axtaran, «qeyri-mən»in, başqa sözlə təbiət qüvvələri, Tanrı, başqa insanların «Mən»ə münasibətini dərk etmək, «həyat», «ölüm», «ruh», «ağıl», «xeyir», «şər»in mahiyyətinə, «sirrinə» varmaq cəhdləri ilə rastlaşırıq. Bu elementlərin türk mədəniyyətində, türkdilli şüurda varlığını türklərin qədim inam, mifoloji, din və folkloru ilə bərabər yazılı şeir abidələri – Orhon-Yenisey abidələri, Balasaquninin «Qutatqu bilik», Qaşğarinin XI əsrə qədər türk şeirini əks etdirən «Divani-Lüğət-it-Türk» klassik mədəniyyət nümunələri və başqa abidələr sübuta yetirir.

Bu və ya digər abidələrdəki fəlsəfi çalarlı düşüncələr sonrakı uzun Orta əsr yüzilliklərində türkdilli fəlsəfi şeirin təməlinə daxil olaraq, onun etnik kökünü və tarixi ənənəsini təşkil etdi.

Lakin şeirdə fəlsəfi fikrin elementləri və bir fenomen kimi «fəlsəfi şeir» keyfiyyətcə fərqli hadisələrdir.

«Fəlsəfi şeir» anlamı mədəniyyətin sinkretik forması olaraq bu və ya digər fəlsəfi cərəyan yaxud cərəyanların əsas ontoloji, qnoseoloji, etik, sosial fikirlərini əks etdirən prinsipial mülahizələri yüksək şeir sənəti vasitəsilə təqdim və təbliğ edən şeir əsərlərini ehtiva edir. O, fəlsəfi məzmunla şeir formasını birləşdirən, sintezləşdirən müstəqil bir mədəniyyət fenomenidir.

Türk mədəniyyətində, məlum olduğu kimi, fəlsəfi şeirin çiçəklənmə zamanı XII-XVI əsrlər olub. Bu əsrlərdə İslam bölgəsində türkdilli fəlsəfi şeir təmsilçiləri kimi Əhməd Yəsevi, Yüknegi, Yunus Emre, Said Emre, Sultan Vələd, Nəsimi, Həqiqi, Nəvai, Xətai, Füzuli və başqalarını göstərə bilərik.

Məlumdur ki, İslam bölgəsi mədəniyyəti, o cümlədən fəlsəfəsi və fəlsəfi şeiri bölgəyə daxil olan xalqların mədəniyyətlərinin sintezi əsasında yaranan vahid region mədəniyyəti kimi mövcud olub və çiçəklənmə (Renessanslar) dövrlərini keçirib. Bölgə daxilindəki xalqların fəlsəfi şeir abidələri bir-birindən dil, qismən üslub, sənət xüsusiyyətləri ilə fərqli, fəlsəfi problemlərin qoyuluşu, idrakı və həllində isə oxşar və vahid idilər. Bu da müxtəlifliklərə və müəyyən daxili ziddiyyətlərə baxmayaraq, vahid ümumbölgə fəlsəfəsinin mövcudiyyəti ilə izah edilməlidir.

İsmaililik, sufilik, bektaşilik, hürufilik, Şərq peripatetizminin fəlsəfi prinsipləri Orta əsr ərəb, fars və türkdilli fəlsəfi şeirdə eyni surətdə təzahür edir.

Türkdilli fəlsəfi şeir üçün də ərəb və fars dilli şeir üçün olduğu kimi, varlığın panteistcəsinə idrak və təsviri, mistik formada rasionalizmin təbliği, intellektual, etik və sosial kamilliyə can atmanın tərənnüm və təbliği səciyyəvidir.

Daxili, xüsusən panteizmdən gələn ziddiyyətlərin vəhdəti – real və irrealın birləşməsi fəlsəfi şeirdə Romantizm və realizm üslublarının birləşməsi

üçün həm səbəb, həm də əsas oldu. Fəlsəfi mahiyyət, fəlsəfi dünyagörüşü fəlsəfi şeirdə ezoterizm və ekzoterizmin vəhdətinə, rəmz, alleqoriya, yazıda kod və şifrələşdirməyə müraciətə səbəb oldu.

Yeri gəlmişkən, söyləməliyik ki, İslam bölgəsi mədəniyyətinə daxil olan fəlsəfi, o cümlədən türkdilli fəlsəfi şeirin məzmununu İslamla bağlı həm ortodoksal, həm də antiortodoksal cərəyanların fəlsəfi fikri zənginləşdirir.

Bölgə mədəniyyətinə daxil olması, türkdilli fəlsəfi şeirin zənginliyinə, ərəb və fars dilləri leksikasından müntəzəm bəhrələnməsinə, janr və üslub müxtəlifliyinə də təsir etdi və onda ərəb, fars dili, klişe və trafaretlərindən, əruzdan, qəzəl və məsnəvi formalarından geniş istifadəyə səbəb oldu.

Lakin ərəb və fars dilli fəlsəfi şeirdən fərqli olaraq, türkdilli fəlsəfi şeir Orta əsr İslam bölgəsi və əsasən türk mədəniyyətində özünəməxsus rol oynayıb. Məlum olduğu kimi, təxminən XV əsrə qədər İslam bölgəsində fəlsəfi əsərlər nəsrlə əsasən ərəb və qismən fars dillərində yazılıb və fəlsəfi şeir bu dillərdə fəlsəfi nəsrlə parallel mövcud olub. Türkdilli mədəniyyətdə isə uzun dövr fəlsəfi şeir fəlsəfi fikrin əsas təmsil forması olub.

Yazımızı tamamlayaraq müasir elmdə türk və ümumiyyətlə, İslam mədəniyyəti fəlsəfəsi haqqında bir neçə mübahisəli məsələyə də müraciət etmək istərdik.

Söhbət Orta əsr Şərqin İslam bölgəsi və o cümlədən türk fəlsəfəsində Qərb ilə müqayisədə «ziyadə dindarlıq», «ziyadə mistisizm», «ziyadə irrasionalizm», burada «panteizm» deyil, «panenteizm» olmasından gedir. Bu mövqeyə keçmiş Sovet tədqiqatçıları da daxil olmaqla bir sıra Qərb və Şərq tədqiqaqtçılarının əsərlərində rast gəlirik.

Zənnimizcə, zənnimiz isə 50 ilə yaxın İslam bölgəsi fəlsəfəsinin öyrənilməsi cəhdinə, bu bölgə fəlsəfəsinin Qərb fəlsəfəsilə müqayisəsinə və dünya mədəniyyəti mətnində tədqiqinə əsaslanır, göstərilən mövqe Şərq və Qərb fəlsəfəsinin tədqiqi və elmi qiymətləndirilməsində eyni tehvit (unifikasiya) olunmuş meyarlara əsaslanmır, tədqiqat və qiymətləndirmə zamanı tarixilik prinsipi pozulur. Məsələn, İbn Ərəbini onun Qərbdəki həmdövrləri ilə deyil, Spinoza ilə müqayisə edirlər. Və ya eyni mövqe – «Allah

hər şeydir və hər şey Allahdır» mövqeyində duran Qərb və gürcü mütəfəkkirləri panteist, Şərq mütəfəkkirləri isə panenteist kimi səciyyələndirilirlər. Bu mövqeyin məqbul olmaması haqqında fikirlərimizi «Hürufilik və onun Azərbaycanda nümayəndələri», «Qasimi Ənvarın dünyagörüşü», «Şərq fəlsəfəsinin inkişaf qanunauyğunluqları (XIII-XVI əsrlər) və Qərb-Şərq problemi», «Şərq mədəniyyət tarixinin nəzəri problemləri və nizamişünaslıq» adlı kitab və bir sıra başqa yazılarımızda təqdim etmişik.

Şərq və Qərb fəlsəfəsinin göstərilən tərzdə yozumunun, zənnimizcə, subyektiv motivləri aşağıdakılardır:

Şərqdəki şərqyönümlü tədqiqatçılar öz fəlsəfələrinin ziyadə irrasional, dindar panteist mahiyyətə malik olmasını qəbul edərək bölgələrində dərin ideya ixtilaflarını inkar edir və mənəvi inkişafın ahəngdar olması və ideya həmahəngliliyinin sübutuna çalışırlar.

«Qərbçilər» isə Qərb və Şərq mədəniyyətləri arasındakı səddi möhkəmləndirməyə, Şərqin «Qərb səviyyəsinə çatmamasını» sübuta yetirməyə çalışırlar.

Sovet dövrünün bəzi araşdırıcılarının Şərq mədəniyyətinə münasibəti isə Sovet elmində 70 il möhkəmlənən konyukturçuluq mövqelərinin, haradasa şovinizm, harada isə elmi səhvin nəticəsi kimi qiymətləndirilə bilər.

Elmi meyarların və qlobal kateqoriyaların, xüsusən «panteizm», «irrasionalizm», «mistisizm» anlayışlarının unifikasiyası və Qərb-Şərq mədəniyyətinə aid komparativist, sinxron, struktur-tipoloji tədqiqatların artması, zənnimizcə, bu mübahisələrə son qoya bilər.

Qaldırdığımız məsələlərə müraciət etməkdə məqsədimiz onlara bir daha diqqət yönəltməkdir; ümidvarıq ki, gələcək elmi axtarış və müzakirələr həmin məsələlərin həllinə kömək göstərəcək.

YUNUS EMRE İRSİ
ŞƏRQ VƏ QƏRB PANTEİZMİ KONTEKSTİNDƏ

Orta əsrlər İslam Şərqi bölgəsi mənəvi mədəniyyətinin inkişafının özünəməxsus xüsusiyyətlərindən biri fəlsəfi poeziyanın çox geniş yayılmasıdır.

Fəlsəfi poeziya, fəlsəfi məzmun və poetik (məsnəvi, qəzəl, rübai və s.) formanın sintezindən təşəkkül tapmış orijinal mədəniyyət növüdür ki, fəlsəfə və məntiq elmləri təqib olunan dövrlərdə mədəni inkişafın ona xüsusi ehtiyacı duyulurdu.

Orta əsrlərdə İslam mədəniyyəti bölgəsində fəlsəfi poeziya burada genişlənən sufi, ismaili, bektaşi, hürufi və s. ideoloji-siyasi cərəyanların fəlsəfi dünyagörüşlərini geniş surətdə əks etdirib.

Bölgə fəlsəfi poeziyasının yüzlərlə parlaq nümayəndəsi arasında Yunus Emre özünəməxsus yüksək yer tutub. Emre şeiri türkdilli fəlsəfi poeziyanın parlaq təzahürü, onun gələcək inkişaf ənənələrini yaradan təməllərdəndir.

Türkdilli fəlsəfi poeziya Emredən çox əvvəllər mövcud olub. XII əsrdə yazmış Məsud İbn Namdar «Hekayə, məktub və şeir kitabı» əsərində yüksək rütbəli dövlət xadimləri qarşısında qoyulan tələblər içərisində ərəb, fars, türk və zimmi dillərində şeir yazmağı da göstərirdi. Bu, türk dilinin XII əsrdə artıq elitar şeir dili olmasına dəlalət edir.

Elitar şeirin fəlsəfi məzmuna malik olmasına isə onun əvvəlki əsrlərin saray şeiri və həmdövr olduğu fəlsəfi cərəyanlarla əlaqəsi dəlalət edirdi.

Beləliklə, türkdilli fəlsəfi şeirin ilk mərhələsini yox, artıq müəyyən yüksək səviyyəyə malik mərhələsini təmsil edən Emre şeiri islam aləmində çox geniş yayılmış sufi fəlsəfəsinin türkmənşəli, türkdilli cərəyanının parlaq şeir nümunəsidir.

Sufi fəlsəfi dünyagörüşü haqqında tədqiqatlar, məlum olduğu kimi, sufizmin yarandığı dövrdən bu günədək sonsuz ziddiyyətlərlə doludur. Ziddiyyətlərin bir qismi min ildən çox mövcud sufiliyin daxili ziddiyyətlərilə, bir qismi isə tədqiqatçıların subyektiv təfsirləri ilə izah edilə bilər.

Bu ziddiyyətlərin başlıcası sufi fəlsəfəsinin panteizm və İslama münasibəti ilə əlaqəlidir. Emre irsinə bu baxımdan müraciət edəcəyik.

Hazırda kültüroloji və fəlsəfi tədqiqatlarda panteizm haqqında fikir müxtəlifliyi ilə rastlaşırıq. «Şərq və Qərb panteizmi» anlayışları, «panenteizm», «teopanizm» və s. anlayışlar, zənnimizcə, sufi panteizminin məzmununun açılmasına kömәkdən çox ziyan gətirir.

Əvvəla, panteizm elmi kateqoriya kimi universal, bütün coğrafi bölgələrdə ümumi vahid məzmuna malikdir. Şərq və Qərb panteist təlimlərinin tipoloji müqayisəsi bunu aydın göstərir. Lakin müqayisə zamanı elmilik baxımından eyni dövrün nümayəndələrinin irsinə müraciət edilməlidir. Geniş yayılmış XII-XIII əsr Şərq panteistlərinin irsinin Spinoza irsi ilə müqayisəsi elmi nöqteyi-nəzərdən məqsədəuyğun deyil. David Dinant, Benli Almarik, hətta Mayster Ekhart və Kuzalı Nikola ilə müqayisələr elmi baxımdan daha məqsədəuyğun olaraq, iki bölgədə mənəvi mədəniyyət və o cümlədən fəlsəfənin eyni qanunauyğunluqlara müvafiq inkişafını bir daha sübuta yetirə bilərdi. Bu məsələni biz 1984-cü ildə Bakıda nəşr edilmiş «XIII-XVI əsrlərdə Şərq fəlsəfəsinin inkişaf qanunauyğunluqları və Qərb-Şərq problemi» adlı kitabımızda izah etməyə çalışmışıq.

Panteizm – «hər şey - Allahdır» deməkdir. Bu təlim iki əsas formada əksini tapıb: «Hər şey - Allahdır»; «Allah – hər şeydir». Həmin iki formaya demək olar ki, yaşayıb-yaratdığı bölgədən asılı olmayaraq bütün panteistlərin irsində rast gəlirik.

Lakin son əsrlərdə Şərq panteist fəlsəfəsini teopanizm və panenteizm kimi təqdimetmə getdikcə artır. Bu, xüsusən Sovet dövrü tədqiqatçılarının araşdırmalarında (Cavelidze, Əzimov və b.) əksini tapır. Məsələn, eyni müddəaların Qərb və Gürcüstanda panteizmi təmsil etməsini söyləyən alimlər, Şərq mədəniyyətində həmin müddəaları panenteizm və teopanizm adlandırırlar.

Panteizm - hər şey Allahdır, teopanizm isə – Allah – hər şeydir, deməkdir. Həqiqətdə bu təlimlər məna və həcm etibarilə əsasən eyniyyət təşkil edirlər. Müxtəlif terminlərin işlənməsi, zənnimizcə, həm onların məzmunca fərqli elmi təyininin olmasını tələb edir. Bu tələb yerinə yetmədikdə həmin terminlərin mövcudluğunu və Qərb mədəniyyətindən bəhs edərkən birini, Şərq mədəniyyətindən bəhs edərkən isə digərini işlətmək yanlışdır.

Dediklərimizlə əlaqədar Orta əsr mədəniyyət tarixində şöhrət qazanmış filosof-şair Emre irsinə müraciət edək.

Emre «Divan»ında[26] biz panteizmin tam, dolğun, hərtərəfli təqdimi ilə rastlaşırıq.

Burada Allah – yaradıcı olaraq yaradılmışla mövcud, hər şeylə vəhdət və eyniyyət təşkil edir. Allah təbiət və insanda, təbiət və insan isə Allahda təzahür edirlər. Bu mühakimələr «Divan»da sonsuz olaraq təkrar, şərh və vəsf edilir.

Allah haqqında mütəfəkkir yazır:

«Ulvi vü süfli cümleten Oldur gör bana görinen» (ş.12, s.9)

«Dünya Ahiret ol Hak yer gök toludur mutlak» (ş.256, s.179)

«Cümle yerde Hak hazır göz gerekdür göresi» (ş.293, s.208)

«Her kancaru baktumisa hep görinendür cümle Hak» (ş.100, s.68)

Eyni fikir ş.195, s.139; ş.180, s.129; ş.201, s.143 və s. səhifələrdə təkrarlanır. «Kamu yerlerde hazır» gördüyü Allahı şair görünəndən ayırmır. Bizi əhatə edən dünya, süfli, zərrə, yer, şeylər, nə var isə – Allahın təzahürüdür, hamısınla Allahdır.

Emre Allahın əzəli və əbədiliyini eşq və insana da aid edir: «Işk kadimdür ezeli» (ş.202, s.143), insan isə «Işk bahrisidir».

Bir tərəfdən, nə var isə Allahdır, Xaliqdir iqrar edən şair, digər tərəfdən, nə var isə – məxluqdur iqrar edir, yəni panteizmi panteizm edən hər iki əsas müddəa, iqrar Emre irsində zahirdir.

Şair tərəfindən Allahın vəsfində işlədilən bütün sifətlər (atributlar) insana aid edilir. İnsan əzəli, əbədi, qadir, hər şeyə sahib Allahın kanıdır.

«Benem sahib-kıran devran benümdür» (ş.26, s.18)

«Bende bakdum bende gördüm benimle bir olanı» (ş.286, s.203)

«Vücuda gelmeyince kimse Hakkı bilmedi
Bu vücuddan gösterdi Dost bize didarını» (ş.311, s.220)

Emrenin «ben»i sonsuzdur. O, vəhdətdə kəsrətin sübutu, min donda görünən daimi varlıqdır. Gah mücərrəd insan, gah da özü haqda şair yazır:

«Belki ebedi varisin, ölmek fasid işidir» (ş.35, s.24)

«Gökde Peygamber ile miracı kılan benem.

[26] Yunus Emre Divanı. Bütün şiirler. Hazırlayan Prof.Dr.Faruk K. Timurtaş. Ankara, 1980. Məqalədə Emre şeirləri həmin Divandan gətirilir. Şeirin Divanda nömrəsi və dərc edildiyi səhifə göstərilir.

… Hallac-ı Mansur ila dara asılan benem.

… İsa Peygamber ile göklere çıkan benem» (ş.143, s.100).

Maraqlıdır ki, şair özünü həm Həllac, həm də onun cəlladı ilə eyniləşdirir:

«Ol Hallac-ı Mansur ila söyleridüm enel-Hakki

Benem gine anın boynına dar urganın dakan benem» (ş.146, s.102)

«Enel Hakk» söyləmək hüququnu Emre sonsuz dəlillərlə əsaslandırır: şair əvvəl-axır, dörd kitabı yazan, yazılan Quran, Kəbə, büt, iman, «çarh uruban dönen, her bir yiri Tur eyleyan, Sübhan, Sahibi Kuran, mühtelif siftlərde zühur eden «benem» - deyir.

«Ben bu suretden ilerü adum Yunus degilken,

Ben Oldum, Ol benidum, bu ışkı sunanda idum» (ş.150, s.106)

Allaha «gövdəmdə qüvvətim, gözümdə görən, dilimdə söyləyən, sənsən deyən şair «ənəl Həqqə» şübhə yeri qoymur.

Beləliklə, təbiəti – süfli, yer, zərrə, insan Allahda və Allahı təbiətdə, məxluqda təsəvvür edən sufi-mütəfəkkir Yunus Emre həqiqətdə, «teopanizm», «Şərq panteizmi» yox, hər iki bölgədə mövcud və eyni məzmun daşıyan panteizm mövqeyindədir. Bu mövqedə duran Emre irsinin Allah və dinə münasibəti belədir: Mütəfəkkir Allahı sözsüz qəbul edir, lakin panteistlərin Allah anlamı və əqidələri, şübhəsiz, İslam və başqa monoteist dini əqidələrlə eyniləşdirilə bilməz. Ezoterik üsulla İslamı şərh edən sufi, o cümlədən Emre dünyagörüşü, orijinal fəlsəfi nəzəriyyədir.

Universal ahəngdən və vəhdətdən bəhs edən, insanı bütün mövcud – bioloji, mənəvi ölçülərdə yüksəklərə qaldıran sufilik və sufi Emrenin panteist fəlsəfəsi müasir yüksək mənəvi dəyərlər axtaran humanist fəlsəfə ilə xüsusi həmahəngdir.

ФИЛОСОФСКИЕ ИСТОКИ БЕКТАШИЗМА

В историю культуры человечества, сотканную воедино из множества культур разных народов, каждый народ вписал свои страницы.

Культура отдельного народа, входя как часть в единую культуру человечества, в то же время, несмотря на всемирные, зональные, региональные и прочие связи, представляет единое вечно развивающееся неповторимое целое, настоящее и будущее которого связаны, прежде всего, с его собственным прошлым и непосредственно вытекают из него.

В этом ракурсе следует, на наш взгляд, рассматривать и определение истоков философии одного из крупнейших социальных и идеологических течений истории Турции – бекташизма.

С сожалением следует отметить отсутствие в научной литературе достаточно четкой дефиниции идеологии данного течения, что, естественно, не может не затруднить определения его философских истоков.

Исследователь Бесим Аталай пишет об идеологии бекташизма следующее: «Будучи соткан из хуруфизма, вахдат- и воджуда, шаманизма, ламаизма, шиизма, метампсихозиса и т. д., бекташизм ничему не оказывал предпочтения, не веря ничему, он смеялся надо всем»[27].

Составитель трехтомной «Антологии поэтов-бекташитов» С.Н.Эргун в предисловии к «Антологии» отмечает, что в основу бекташизма легли бабаизм, ахизм, абдализм, однако ни суть идеологии данных течений, ни специфика бекташизма, как синтезировавшего в себе традиции предшествующей культуры нового течения, не раскрываются. Далее С.Н.Эргун пишет, что все эти секты, кроме кызылбашей в XVII в. растворились в бекташизме. А что было до XVII в.? Почему С.Н.Эргун считает поэтов и мыслителей, связанных с различными течениями, бекташитами?!

Неуясненность принципиальных позиций идеологии бекташизма явилась причиной включения С.Н.Эргуном в онтологию наряду с бекташитами и бекташитов-хуруфитов, каландаров, батинитов и даже кызылбашей?![28]

---

[27] Besim Atalay. Bektaşilik. İstanbul, 1341, s.54.
[28] См. подр. S.N.Ergun. Bektaşi şairleri ve Nefesleri. S.155.

В научной литературе широко распространена версия, согласно которой в конце XIV в., после казни Фазлуллаха Наими, хуруфиты Али ул-Ала, Насими и другие бежали в Турцию, где в бекташитских текйе проповедовали хуруфизм как учение Хаджи Бекташа. Бекташиты в силу своей невежественности якобы поверили им и с этих пор начали распространить философию хуруфизма как учение бекташизма.[29]

Также общепризнанно в научной литературе формирование бекташитского учения на базе высокого развития в XIII-XIV вв. в Турции суфийский пантеистической философии, представленной наследием Юнуса Эмре и др., а также распространенных в эту эпоху в стране многочисленных мистико-теоретических течений. Подобное признание, безусловно, опровергает утверждения о «невежественности» бекташитов, по недомыслию принявших учение Наими за учение Гаджи Бекташа.

В конце XIV века не «невежество» бекташитов, а философия и социальная программа их учения заключали в себе потенциальные возможности для интенсивного проникновения доктрин хуруфитской философии в идейно родственный хуруфизму бекташизм.

Бекташитская идеология, сформированная на базе предшествующего идейного наследия Турции, восприняла и синтезировала в себе и идеи широко распространенного по всему исламскому региону Востока хуруфизма. Хуруфизм в Турции получил самостоятельное развитие в наследии Саида Исхага, Фириште-заде, Абд ул Маджида и др. мыслителей. Национальное идейное наследие не должно оставаться за пределами внимания исследователей, изучающих истоки турецкой философской поэзии,

Как писал С.Н.Эргун, «Юнус Эмре из первых известных нам поэтов бекташи».[30]

Попутно отметим, что к идеологам бекташизма С. Н. Эргун относит и Саида Имре (начало XIV в.), Гайгысыз Абдала (вторая половина XIV в.) и др.

---

[29] Мухаммед Али Тарбийат. Данешмандан. Азербайджан, Тегеран … с.377-378.
[30] S.N.Ergun. Bektaşi Şairleri ve Nefesleri. Cilt 1. s.11.

авторов, философская поэзия которых насыщена основоположениями суфийского мировоззрения.[31]

Ученый А. Гелпинарлы связывает бекташизм и его основоположника с революционным хорасанским суфизмом, который выступал в Турции под именен бабаизма; из бабаизма под руководством ученика и последователя Баба Исхака Гаджи Бекташа (ум. в 1270 г.) возник бекташизм».[32]

О связи бекташизма с бабаизмом и демосом мы читаем во многих работах исследовательского плана и научно-справочной литературе, в частности, в энциклопедии Говса,[33] Турецкой энциклопедии[34] Энциклопедии Ислама[35] и др.

Изложенное в сочетании с анализом произведений поэтов, представленных в исследовательской литературе как бекташиты, является, как нам кажется, достаточным основанием для суждения о том, что философские истоки бекташизма прежде всего находятся в сфере национального турецкого суфизма.

Убедительной кажется нам и интерпретация философии данного течения в книге Хасана Басри Эрка «Алевизм на протяжении истории», где бекташитская философия рассматривается на фоне развития пантеизма и прежде всго турецкого пантеизма в суфийской форме.[36]

Вышеизложенное, безусловно, не отрицает ни универсальности основных принципов философии суфизма в духовной культуре исламского региона, ни дополнения суфийских истоков в бекташизме иными явлениями национальной и региональной культур, в частности элементами мировоззрения, присущего шаманизму и т.д.

Среди этих влияний наиболее активным в конце XIV- начале XV вв. было влияние на бекташизм широко распространенного в регионе

---

[31] Также.
[32] A. Gölpinarlı, Mevlanadan sonra mevlevilik, İstanbul, s. 293.
[33] A. Qovsa, Resimli yeni Lüqat ve ansiklopedi, s. 238.
[34] Türk ansiklopedisi, Ankara, 1953, cilt VI, Bektaşilik.
[35] İslam ansiklopedisi, 16 cüz, İstanbul, 1943, s. 462.
[36] H. B. Erk, Hakim, Tarih boyunca Alevilik, İstanbul, 1954, s. 49 və s.

хуруфизма, который в Турции активно пропагандировался такими видными адептами данного движения как Насими, Али уль-Ала и др.

Особенно активно проникает хуруфизм, как было отмечено ранее, в Турцию в конце XIV в. В связи с казнью Наими и гонениями на хуруфитов в Азербайджане, когда один из видных идеологов течения Али уль-Ала обосновывается в бекташитских текйе, где проповедует хуруфизм.

Учение хуруфизма, соответствующее и по духу, и по существу своему к крайним суфийским учениям, легко и быстро воспринимается бекташитами, которым хуруфизм близок не только своей философией, но и демократической социальной позицией. Отныне хуруфизм, как это отмечается и турецкими исследователями, частично приспособившись к бекташизму (почитание памяти Гаджи Бекташа и его учения) и частично приспособив бекташизм к себе (вплоть до проповеди под именем бекташизма хуруфитского пантеизма и других концептуальных положений хуруфизма), начинает свое длительное существование в Турции, играя значительную роль в идеологической и политической жизни страны. Позднее активное влияние хуруфизма на бекташизм, на наш взгляд, было неправильно истолковано, а именно переоценено в исследовательской литературе.

К сожалению, в литературе мы неоднократно встречаемся с изложенным выше суждением о том, что бекташиты были крайне невежественны и Али уль-Ала, воспользовавшись этим, обманул их, поднеся им хуруфизм как их собственное учение. Это крайне ошибочное утверждение мы находим как в источниках (Исхак Эфенди), так и в восточной и европейской исследовательской литературе. Об этом писали Х.Риттер, Э.Браун,[37] Б.Аталай и др., которые по сути отождествляли философские воззрения бекташитов с хуруфизмом. Так, Бесим Аталай в своем исследовании «Бекташизм» писал, что получивший, распространение в

[37] См. подр.: H. Ritter Die Anfanqe Hourufi secte. Oriens 7, № 1. Leiden, 1954; E.J.Browne, Persian literature under Tatar dominion. Cambridge, 1920, p. 365.

Турции, Болгарии и частично в Индии Бекташизм по вере своей – джафари, а в мистике, философии и теологии – хуруфизм.[38]

С подобной позицией, безусловно, невозможно согласиться, учитывая хотя бы историческое наличие в Турции собственной философской традиции и существование бекташитской идеологии до конца XIV- начала XV вв. – времени широкого проникновения хуруфизма в Турцию и в данную идеологию.

На наш взгляд, хуруфизм, связанный с именем Наими и Насими, можно считать одним из ярких и крупномасштабных истоков философии бекташизма, идейно обогатившим его *не изначально, а на определенном этапе его исторической эволюции*.

До влияния хуруфизма Бекташизм обладал и пантеистическими философскими воззрениями.

По бекташизму, как писал Б.Аталай в своей книге «Бекташизм», понимание «вахдат-и воджуда» очень просто и даже материалистично; он был органически связан с социальными доктринами революционного бабаизма.

Все отмеченное в совокупности, а не «невежество бекташитов», создало потенциальные возможности для приятия хуруфизма, органического слияния воедино философских и социальных доктрин этих двух духовно родственных течений, порожденных единым культурным регионом.

Хуруфизм как нельзя более соответствовал социокультурным запросам Турции конца XIV и последующих веков, поэтому, по-видимому, он и был воспринят многими бекташитами как часть их собственного учения. Однако и после этого, что следует особо подчеркнуть, бекташизм продолжал и свое самостоятельное существование. Это подтверждается наличием в турецких исследованиях информации о существовании с XIII по XX вв. в Турции бекташитов, бекташитов-хуруфитов и хуруфитов. О самостоятельном

---

[38] См. подр.:B. Atalay, Bektaşilik. İstanbul, 1341.

развитии в Турции наряду с бекташизмом и хуруфизма свидетельствуют, в частности, труды турецких мыслителей Сейида Исхака, Фириштезаде и др.

При выяснении взаимосвязи между бекташизмом и хуруфизмом следует обратить внимание на следующие два фактора:

1. Историческую эволюцию обоих течений;

2. Историческую неоднородность, наличие противоречивых тенденций в мировоззренческих позициях каждого из этих двух взаимосвязанных между собой течений. Последний фактор на наш взгляд получил неадекватное отражение в исследованиях Эрдоглана, Эроза, Билгисевена и др.[39]

Как отмечено в «Энциклопедии Ислама» (см. статью о бекташизме), бекташизм в Турции при Балим Султане меняет свой характер, в нем начинают преобладать моменты аскетизма, о чем свидетельствует наследие бекташитов данного периода.[40] Судя по произведениям поэтов-бекташитов, начиная с конца XVI- и начала XVII вв. (Kazak Abdal, Balli Baba, Abdal Ahu, Bedri, Dervis Mehmed, Fakir Edna и др.) в бекташизме все более и более преобладают мотивы уже не еретического суфизма, а имамизма, совместимого с господствующей идеологией. Однако элементы хуруфизма продолжают сохраняться в турецкой философской поэзии. В XIX веке с элементами хуруфизма мы встречаемся в стихах турецких поэтов-бекташи Саджида, Тураби, Ремзи, Вехби и др.

Изменения в социально-политической и идеологической жизни общества меняют роль бекташизма и его историческую оценку. В XIX-XX вв. пантеизм, разумеется, далеко не в состоянии был служить действенным идейным орудием борьбы против господства зла и насилия. Тем не менее, оппозиционное крыло данного течения даже сейчас является объектом идейной борьбы. Во второй половине XX века ряд исследователей, желая отмежевать бекташизм от современной ему идейно-политической борьбы,

---

[39] Fahrettin Erdoğan. 8 milyonluk Alevi Türklerine kızıl kommunist damğasını vuran sebilüreşatçılara cevap ve Bektaşilik, Ankara, 1956, Dr. Mehmet Eröz, Türkiyede Alevilik-Bektaşilik, İstanbul 1977, Dr. Amiran Kurtkan Bilqiseven, Dr. Eröze göre Alevilik-Bektaşilik, Türk dünyası araştırmaları, İstanbul, 1986 № 44.
[40] İslam Ansiklopedisi, Cüz 16, İstanbul, 1943.

доходит до отрицания активной роли его в политической и идеологической жизни средневековой Турции. Определенный интерес с этой точки зрения представляет работа Фахреттина Эрдоглана, написанная в полемическом духе и направленная против обвинения современных турков-алеви и бекташитов в «красном коммунизме».[41] Гневно выступает Эрдоглан против тех, кто призывает преследовать как коммунистов живущих в Турции, так и алеви и кызылбашей, это, по его мнению, фактически ведет к расколу нации. Ф.Эрдоглан полностью отрицает какую-либо связь этих течений не только с коммунизмом, но вообще с политической классовой борьбой, выставляя их, начиная со времен Гаджи Бекташа поборниками за все турецкое и ярыми националистами.

Из статьи Ф.Эрдоглана, к сожалению, неясно, чем было вызвано обвинение в алеви и кызылбашей 1956 г. в их причастности к коммунизму. Тем не менее, здесь важно другое – «спасая» бекташитов во имя сохранения иллюзии духовно-политического единства турецкого народа, Эрдоглан дошел до заведомого отрицания исторических фактов и исторической борьбы, в которой бекташизм принимал активное участие.

Итак, бекташизм, распространенный в Болгарии, Индии и ряде других стран, является относительно самостоятельным социокультурным течением турецкого происхождения, испытавшим в процессе своей эволюции значительное влияние хуруфизма.

1970 год

КЫЗЫЛБАШСКАЯ ИДЕОЛОГИЯ И ЕЕ ФИЛОСОФСКИЙ АСПЕКТ
(вопросы концепции и методики исследования)
Тезисы

Критерием определения идеологического течения как самостоятельного феномена региональной культуры является *относительная*

[41] F. Erdoglan, 8 milyonluk Alevi Türklerine kızıl kommunist damğasını vuran sebilüreşatçılara cevap ve Bektaşilik, Ankara, 1956.

оригинальность его теоретико-философских позиций, его самостоятельный путь развития, его значимость в культурной и социальной жизни региона.

В свете сказанного кызылбашскую идеологию и философию правомерно рассматривать как самостоятельные направления социокультуры исламского региона, а *не только* как часть суфизма и шиизма, что зачастую наблюдается в исследовательской литературе.

Кызылбашская идеология подобно идеологии любого другого самостоятельного идеологического течения региона имела *свой* цикл существования, свои начало и конец в региональной жизни, свое особое место в философской культуре и социополитическом развитии. В каждой из этих областей она эволюционировала, шла от еретического пантеизма к ортодоксальному монотеизму, от идеологии демократических слоев народа до идеологии шахов и идеологической опоры империи, карающей демократические ереси.

К течению и его философии в целом неприменимы однозначные определения и ценностные критерии типа: прогрессивное либо реакционное, еретическое, мистико-пантеистическое либо ортодоксально-мистическое, демократическое либо антидемократическое и т.д.

В свете изложенного в серьезной научной корректировке нуждается существующая в литературе интерпретация места кызылбашской идеологии и ее философского аспекта в системе социокультурной жизни региона, в частности определение ее связей с суфизмом, хуруфизмом, бекташизмом и т.д.

19.. г.

ЖУРНАЛ И ЕГО ПРОБЛЕМЫ

(Вступительная статья к журналу
«Проблемы восточной философии»)

Философская мысль исламского региона Востока восходит к древности. В этот период делались попытки ее осмысления, оценки и освоения. От века к веку рос интерес науки к данному феномену, ширились

масштабы исследования его как внутри, так и за пределами региона. В настоящее время философская мысль народов исламского региона – объект серьезных исследований культурологов, в частности философов, представляющих как Восток, так и Запад. Публикуются монографии, статьи, проводятся всемирные и региональные конгрессы, симпозиумы, семинары, посвященные культуре и философии Востока.

Однако до сих пор научные контакты между философами – ориенталистами, специализирующимися по философии исламского региона, не носят систематического характера. Почти полностью отсутствует научная координация проводимых исследований, неудовлетворительна информация об опубликованных и планируемых работах. Все это, безусловно, негативно сказывается на уровне исследований.

Среди многочисленных периодических изданий, освещающих, в частности, отдельные вопросы философии исламского региона, до сих пор нет специального печатного органа, объединяющего философов-ориенталистов разных стран мира и призванного обсуждать основные проблемы региональной философии. Все это, обусловливило потребность в создании специального журнала, задачами которого должны стать следующие:

- выявлять, научно определять и по мере возможности способствовать решению проблем региональной философии;

- акцентировать внимание на неразработанных и дискуссионных проблемах;

- вскрывать и аргументировать необъективность тенденциозно-негативных трактовок и оценок региональной культуры и философии в целом, а также культуры и философии бывшего советского Востока – в частности;

- информировать мировую научную общественность о прошлом и настоящем философии исламского региона, акцентируя внимание и на малоизвестных философских культурах отдельных этносов;

- налаживать и укреплять научные контакты между философами – ориенталистами и культурологами различных стран и континентов. В журнале предполагается исследование проблем философии в социоэтнокультурном контексте. Конкретный перечень проблем, которые намечается осветить в журнале, отражен в предложенном редакцией «Банке проблем». Публикуя «Банк проблем» на восьми языках (восточных и европейских), мы рассчитываем на масштабность его обсуждения читательской аудиторией, в первую очередь философами и культурологами. На основе присылаемых в журнал предложений и замечаний «Банк проблем» будет корректироваться, дополняться и печататься в обновленном варианте.

С помощью «Банка проблем» мы надеемся: установить контакты, обеспечивающие взаимоинформированность относительно прошлого и настоящего региональной философии; определять совместными усилиями исследователей разных стран, корректируя круг актуальных проблем, стоящих перед региональной философией, перспективы развития исследований в данной области в мировом масштабе; способствовать созданию координации исследований в различных масштабах (страна, регион, мир), которая на сегодняшний день отсутствует, но крайне необходима в научном плане. [1].

Выбор журналом в качестве основного объекта исследования проблем восточной философии в системе культуры исламского региона обусловлен причинами научного и нравственного порядка. Не секрет, что в прошлом наблюдались отход от научной объективности в трактовке восточной философии региона исламской культуры, осознанное либо неосознанное попрание принципов объективности и гуманизма в освещении духовной культуры данного региона, а также отсутствие необходимой научной информации о культуре (включая и философию) не только в масштабах мировой, но и своей региональной науки. Все это обусловливает сегодня научную актуальность журнала.

Может возникнуть вопрос о целесообразности либо степени целесообразности деления философии и шире – культуры, по географическим регионам типа: западная, восточная, северная, северо-западная и т.п. Деление это, естественно, условно, тем не менее, оно основано на специфике мировоззренческого развития данных регионов и потому принято культурологией.

В условиях демократизации независимых государств, входивших в состав бывшего СССР, стало возможно объективное исследование региональных культур. Ученые, хотя и в неравной степени, постепенно освобождаются от страха перед реальным и возможным обвинением в шовинизме, национализме, панисламизме, пантюркизме, панхристианстве, панславизме, сионизме и т.д. и т.п.

В настоящее время научная общественность России и ряда других стран мира активно и увлеченно проводит разноплановые исследования, посвященные культуре славянских народов, русской культуре в системе христианской духовной культуры и т.д. В государствах, возникших на месте распавшегося СССР и исторически входивших в регион исламской культуры, также возрос интерес исследователей к изучению культуры исламского Востока.

O dövrdə Azərbaycanda ortodoksal fəqihlərdən Əhməd ibn Harun Bərdici, Məkki ibn Əhməd Bərdəi, Musa ibn İmran Səlmasi və başqaları məşhur idilər. Rasionalizmi və azadfikirliliyi ilə səciyyələnən mötəzili cərəyanının Azərbaycanda görkəmli nümayəndələri isə IX əsrdə yaşamış məşhur alim və ilahiyyatçılar Cəfər

Həmədani Bağdadi, Əbubəkr Məhəmməd ibn Ömər ibn Abdulla Bərdəi, Əbusəid Əhməd Bərdəi və b. idi.[126] Bu dövrdə İslam mədəni bölgəsində Şərq və qədim yunan fəlsəfəsinə, xüsusən neoplatonizmə əsaslanaraq idealizmlə panteizmi özündə birləşdirən özünəməxsus batinilik fəlsəfəsi mövcud idi. Bu fəlsəfi təlimi Azərbaycan filosoflarından batinizmin missionerləri Əbü-l-Qasim Əli ibn Cəfər və b. yayırdılar. VIII–X əsrlərdə İslam bölgəsində, o cümlədən Azərbaycanda daxilən ziddiyyətli, lakin əksər hallarda fəlsəfi dünyagörüşündə panteizm, sosial baxışlarında demokratizm, etik görüşlərində humanizm və varlığa dialektik yanaşma ilə fərqlənən mistik ismaililik və sufilik sosiomədəni cərəyanları ilk inkişaf dövrlərini keçirirdilər. Sufiliyin fəlsəfi dünyagörüşünün əsasında fəlsəfi kateqoriya kimi eşq, ismaililiyin əsasında isə real və irreal idrakın vəhdəti dururdu. Sufiliyin fəlsəfəsini bu dövrdə Əbü-l Fərəc Əbü-l Vahid Varasani Təbrizi, Əbu Saib Həmədani, Əli ibn Əbdüləziz Bərdəi, Baba Kuhi Bakuvi və b. təmsil edirdi. Orta əsr mənbələrində ideya kökləri qədim Şərq və yunan fəlsəfəsinə aparan ismaililiyin İslamı inkar edərək zərdüştiliyin bərpasına cəhdindən bəhs edirlər. İsmaililiyin Azərbaycanda yayılması haqqında Nizami, bu cərəyanın tarixçisi Fidai və b. məlumat verirlər.[127] Mənbələrə görə ismaililik fəlsəfəsi təbiət elmlərinin nailiyyətləri və "İxvan əs-Səfa" ensiklopediyasının yaranması ilə bağlıdır. Bu ensiklopediyanın ideoloqu azərbaycanlı alim və filosof Əbü-l-Həsən Əli Harun oğlu Zəncani idi.

VIII–X əsrlərdə ölkənin sosial və mədəni həyatında xristianlığa qarşı yönəlmiş pavlikianlıq bidəti və İslamı tamamilə inkar edən xürrəmi-babəki ideologiyaları mövcud idi. İki dünya dininə və eyni zamanda sosial zülmə qarşı yönəlmiş pavlikianlıq və xürrəmi-babəki ideologiyalarının fəlsəfi və sosial görüşlərinin təməl prinsipləri Azərbaycanın Qədim dövr ideoloji cərəyanları zərvanilik, zərdüştilik, manilik və məzdəkiliyin fəlsəfi və sosial ideyalarından qaynaqlanırdı. Xeyir–Şər, işıq–zülmət başlanğıclarının vəhdət və mübarizəsi,

---

[126] Təfərrüatı ilə bax: Z.Məmmədov. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. Bakı, 1986, C.7; eyni müəllif V-X əsrlərdə Azərbaycanda fəlsəfi və ictimai fikir haqqında məlumat. Az. SSRİ Elmlər Akademiyasının xəbərləri, tarix, fəlsəfə, hüquq seriyası. Bakı, 1969, № 4.

[127] Фида-и Китаб би хидайат ал-муминин ат-талибин. – М., 1959, C.9; Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı, 19... s...

insanın mistik kamilləşməsi yolu və Allahın insanda təcəssümü haqqında ideyalar həmin cərəyanların dualizm səciyyəli dünyagörüşünün əsas prinsiplərini təşkil edirdi. Sonradan pavlikian və xürrəmi-babəki ideologiyalarının özləri də xristian və İslam mənəvi-mədəni ideologiyaları üçün qaynağa çevrildilər.

Şamanizm, zərdüştilik, qədim yunan, xristian və İslam mədəni bölgələrinin fəlsəfi ənənələrini özündə sintezləşdirərək inkişaf etdirən VII-X əsrlər Azərbaycan fəlsəfəsi XI–XIII əsrlərdə həm Azərbaycan mədəniyyətinin İntibahına, həm də bütövlükdə İslam bölgəsi mənəvi mədəniyyətinin, o cümlədən fəlsəfəsinin İntibahına zəmin yaradan qaynaqlardan olmuş və sonrakı dövrlərdə bu mədəniyyətlərin fəal üzvi hissəsi kimi tanınmaqda davam etmişdir. Digər tərəfdən, XI–XII əsrlərdə ölkənin iqtisadi (feodal münasibətlərin inkişafı, pul rentasının yayılması, iqtisadi cəhətdən yüksək inkişaf etmiş iri şəhərlərin mövcudluğu), siyasi (müstəqil Şirvanşahlar, Şəddadilər, Rəvvadilər dövlətlərinin yaranması, Ön Asiya və Şərqin digər bölgələri ilə müxtəlif növ əlaqələr), sosial (daxili və xarici sosial zülmə qarşı arasıkəsilməz mübarizə, Beyləqanda 1110-cu ildə xalq hakimiyyətinin yaranması) və mənəvi-mədəni (ərəb və fars dilləri ilə yanaşı türk dilinin elitar ədəbi dil kimi qəbulu) sahələrində vəziyyət və onun unikal mənəvi-mədəni irsi, başqa sözlə, ölkədaxili potensial imkanlar Azərbaycanda İntibahın baş verməsinə şərait yaradırdı. Azərbaycan və bütövlükdə İslam Şərqi fəlsəfəsində İntibah yerli fəlsəfi irsin qədim yunan fəlsəfi irsi ilə sintezi əsasında inkişaf edərək, sonradan Qərb və Şərq fəlsəfəsinin inkişafı üçün zəmin oldu. Azərbaycan fəlsəfi fikrinin İntibahı təbiətşünaslıq elmlərinin, təhsilin, ədəbiyyat, memarlıq, musiqi, musiqi nəzəriyyəsi və s. mənəvi mədəniyyət sahələrinin yüksəlişi və ölkənin dünya fəlsəfi təlimlərini bəhrələndirən fəlsəfi-mədəni irsinin vəhdətinin nəticəsi idi.

XI–XII əsrlərdə Azərbaycanda fəlsəfi fikir Şərq fəlsəfəsinin ənənələrini yunan-Roma fəlsəfi fikri ilə sintezləşdirən və fəlsəfi fikir istiqaməti kimi orijinallığı ilə fərqlənən Şərq peripatetizmi, işraqilik , sufilik və s. cərəyanların fəlsəfi ideyalarını əks etdirən xüsusi risalələrdə, təfsir, teoloji və teosofiya məzmunlu əsərlərdə və fəlsəfi poeziyada əksini tapmışdı. Sonralar Şərqin klassik irsinə daxil olan bu əsərlərin meydana gəlməsi fəlsəfi fikrin müxtəlif sahələrini

təmsil edən mütəfəkkir və alimlərin tədqiqat obyektlərinin geniş diapazonu və dövrün ensiklopedik biliklərinə yiyələnməsi sayəsində mümkün olmuşdur.

Bu mütəfəkkirlərdən biri Şərq peripatetizminin görkəmli nümayəndələrindən olan Əbülhəsən Bəhmənyar ibn əl-Mərzban Azərbaycani idi. O, müxtəlif elm sahələri, mədəniyyət və fəlsəfə problemlərini ehtiva edən "Mövcudatın mərtəbələri", "Metafizika elminə dair" traktatın, "Təhsil", "Məntiqə dair zinət", "Nəfslərin fərqi", "Musiqi haqqında kitab", "Gözəllik və səadət" və s. əsərlərin müəllifidir. Bəhmənyar Azərbaycani əsərlərində dialektik yanaşma metoduna və dünya nizamının qanunauyğunluğuna istinad edərək varlıq, onun mühüm və mümkün mövcudluq formaları, substansiya, aksidensiya, substansiyanın aksidensiyaya görə ilkinliyi, ilk başlanğıc, daimi ilk materiya, forma, ilk səbəb, imkan, həqiqət, emosiya və nəfsin növləri və substansionallığı, hərəkətin əbədiliyi, hiss, əql, Xeyir, Şər, mənəviyyat və s. dünyagörüşü problemlərindən bəhs edir. Xeyir və Şərin kamillik və dünyanın nizamı ilə bağlılığı və s. məsələlərin şərhində onun mövqeyi orijinal səciyyə daşıyırdı. Bəhmənyar özünün rasionalizmi ilə fərqlənən fəlsəfəsində idrak prosesində xarici və daxili hisslərin rolu və insanın əqli imkanlarının sonsuzluğu ideyalarını təhlil edir. Bəhmənyar irsinin davamçıları İbn Sinadan sonra Şərq peripatetizminin yalnız İspaniya və Məğrib ərəb filosofları tərəfindən inkişaf etdirilməsi fikrini inkar edərək göstərirlər ki, müsəlman Şərqində də İbn Sinadan sonra müstəqil peripatetizm məktəbinin fəaliyyəti davam etdirilmişdir.

XI–XII əsrlərdə Azərbaycanda fəlsəfəni elmi nailiyyətlərlə birləşdirərək fəlsəfi mövzuları (dialektikanı, kateqoriyaları, qnoseoloji problemləri və s.) tədqiq edən Şihabəddin Marağayi, Əbu Səid Urməvi, Əbusəd Təbrizi, Abdulla Urməvi və b. filosoflar məlumdurlar.

XI–XII əsrlərdə Azərbaycanda batinilik, ismaililik və sufilik cərəyanlarının yayılması sürətlənir. Həmin cərəyanların fəlsəfi ideyaları ölkədə həm mənəvi mədəniyyətin, həm də sosial həyatın müxtəlif sahələrinə fəal təsir göstərmişdir. Əsasən, XI–XII əsrlərdən başlayaraq adı çəkilən cərəyanların nəzəri təlimləri, Sovet dövrü istisna olmaqla, Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrində geniş yer

tutmuşdur. Azərbaycanda əsrlər boyu ezoterik fəlsəfi təlimlər və ilk növbədə, sufi fəlsəfəsinin nəzəri əsasları haqqında əsərlər yazmış alim-mütəfəkkirlər olmuşlar. Onların əksəriyyəti dünyəvi təhsil almış və fəlsəfi problemlərə əsasən vəhdət əl-vücud adı altında tanınan və dünya fəlsəfi düşüncəsi üçün universal fenomen olan panteizm mövqeyindən yanaşmışlar. Onlar Allahın və ilahiləşdirilmiş varlığın sirlərinin irrasional dərkinə üstünlük versələr də, bir çox hallarda varlığın rasional dərkini inkar etməmiş, mədəniyyət tarixində dünyəvi elmlərin dərin bilicisi kimi də tanınmışlar.

XI–XII əsrlərdə Azərbaycanda qeyri-ortodoksal sufilik fəlsəfəsinin yaradıcıları dünya mədəniyyəti tarixində tanınmış Baba Kuhi Bakuvi (948–1050), Eynəlqüzat Miyanəci (1099–1131), Əxi Əbü-l-Fərəc Zəncani və mötədil sufiliyin yaradıcılarından olan Şihabəddin Əbuhəfs Ömər ibn Məhəmməd Sührəvərdi (1145–1234) və b. fəlsəfi irsi olmuşdur. Eynəlqüzat Miyanəci sufi fəlsəfəsinin nəzəri əsaslarını İbn Ərəbidən əvvəl "Həqiqətlərin seçilmişləri", "Əsaslar", "Aşiqlərin sevinci və təşnələrin bidəti" və s. əsərlərində vermişdir. Dini fəlsəfəyə zidd olduğuna görə, o, arasıkəsilməz təqiblərdən sonra 1131-ci ildə 32 yaşında dərs dediyi mədrəsədə edam edilmişdir.

Azərbaycan fəlsəfi fikri XI-XII əsrlərdə sufi fəlsəfəsinin radikal yönümü ilə seçilən nümayəndələri ilə yanaşı, mötədil sufiliyin nəzəriyyəçiləri ilə də təmsil olunmuşdur. İslam Şərqində özünün mötədil sufilik məktəbini yaradan Azərbaycan filosofu Əbu Həfs Sührəvərdi olmuşdur. Sührəvərdi Şərqdə sufizmin dərsliyi kimi qəbul edilmiş "Mərifətlərin töhfələri" əsərində sufiliyin bidətə aparan panteizmini əl-Qəzalidən əvvəl islah edərək onu ortodoksal İslam teologiyası ilə bağlamağa və barışdırmağa cəhd göstərmiş, dövrünün mədəniyyət tarixinə peripatetik fəlsəfənin və hər cür bidətə aparan ideyaların qatı əleyhdarı kimi daxil olmuşdur.

Azərbaycan filosofu Əbülfütuh Yəhya ibn Həbəş Sührəvərdi (1154–91) dünya mədəniyyətində məşhur işraqilik fəlsəfəsinin banisidir. Bu fəlsəfi təlim onun "İşraq fəlsəfəsi", "Nur heykəlləri", "İşıq haqqında risalə" və s. əsərlərində şərh olunur. Qədim Azərbaycan, Şərq və yunan fəlsəfəsindən qaynaqlanan, peripatetizmin rasionalizmini, sufilərin fəlsəfi baxımdan əhəmiyyətli olan varlığın

vahid substansionallığı haqqında ideyasını və dini təsəvvürlərin avtoritarlığını özündə birləşdirən Sührəvərdi təlimi bu gün də Şərq və Qərb fəlsəfə tarixçilərinin diqqətini cəlb edir.

Dövrün fəlsəfi fikri Azərbaycan ilahiyyatçıları Əbuhəfs Zəncani, Əbu Ömər Osman Dərbəndi, Əbülfəz Üşnuhi, Əbubəkr Urməvi, Əbu Xəfif Şirvani və başqa mütəfəkkirlərin ortodoksal təmayüllü teoloji risalələrində əksini tapmışdır.

İntibah dövrü fəlsəfi və ictimai fikrinin əsas təzahür formalarından biri folklor və fəlsəfi poeziya idi ki, burada fəlsəfi məzmun ayrı-ayrı ideyalar və ya bütöv təlim şəklində nəsr və nəzmlə ifadə edilirdi. Dövrün fəlsəfi və ictimai problemlərini əks etdirən fəlsəfi poeziyanın görkəmli nümayəndələri sırasına Məhsəti Gəncəvi, Əfzələddin Xaqani və Nizami Gəncəvinin adları daxildir. Fəlsəfi poeziyanın zirvəsi sayılan Nizami irsi, ilk növbədə, onun "Xəmsə"si XII əsrdə Azərbaycanın və İslam Şərqinin fəlsəfi təfəkkürünün poetik formada əksini tapmış nümunəsidir ki, bu da sonralar fəlsəfi təfəkkürü nəzmlə açıqlayan Şərq "Xəmsə"lərinə örnək olmuşdur. Qədim Azərbaycan, Şərq və yunan fəlsəfəsindən qaynaqlanan və onların özünəməxsus sintezini əks etdirən Nizami "Xəmsə"sində ontoloji aspektdə panteizm yönümlü idealizm, qnoseologiyada rasionalizmlə irrasionalizmin sintezi, sosial və etik görüşlərdə şəxsiyyəti və cəmiyyəti kamilliyə aparan zahiri və batini yolların təsviri ehtiva olunmuşdur.

Orta əsrlərdə Şərqin və Azərbaycanın İntibah mədəniyyətində müxtəlif növ təfsirlər də məlum idi. Çoxaspektliliyi ilə seçilən təfsirlər dil, bədiilik, üslub, fəlsəfə, elm, bir sözlə, təfsir obyektinin məzmun və formasını aça bilən bütün məqamların professional şərhini əhatə edərək bütövlükdə məlum hermenevtik yanaşma metoduna uyğun idi. Bu növ təfsirlər içərisində Azərbaycan klassik mədəniyyətinin nümayəndələri Xətib Təbrizi və Yusif Xoylunun ərəb filosofu Əbül-Əla əl-Məərrinin "İlk qığılcım" poemasına verdikləri təfsirlər xüsusi yer tutur. Bu təfsirlər poemanın fəlsəfi aspektdən şərhinin dərinliyi və müfəssəlliyinə görə sonralar hər iki təfsirçinin fəlsəfi dünyagörüşünün tədqiqi üçün imkan və zəmin yaratdı.

XIII–XVI əsrlərdə Azərbaycan fəlsəfi və sosial-siyasi fikri ölkənin sosial-siyasi və ümummədəni kontekstində dövrün tələblərinə uyğun inkişaf edirdi. Lakin bu kontekst XIII–XIV və XV–XVI əsrlərdə xeyli fərqlənirdi. Belə ki, XIII–XIV əsrlərdə ölkə ərazisində müstəqil Eldənizlər və Atabəylər dövlətləri devrilir, monqolların və Teymurilərin hakimiyyəti bərqərar olur. XV–XVI əsrlərdə isə Azərbaycan xarici istiladan tədricən azad olur, müstəqil Ağqoyunlu, Qaraqoyunlu dövlətləri və Azərbaycan Səfəvi imperiyası yaranır.

XIII–XIV əsrlərdə ölkədə xarici istila zülmü yerli feodal zülmü ilə birləşərək genişmiqyaslı xalq üsyanlarına səbəb olurdu. Bu üsyanlarda, adətən, əsas rolu yüzminlərlə sakini olan və iqtisadiyyatı inkişaf etmiş şəhərlərin əhalisi, ilk növbədə, iqtisadi, ideoloji və siyasi cəhətdən təşkilatlanmış və bir çox hallarda tacirləri, yerli mülkədarları, ruhaniləri və kəndliləri ətrafında birləşdirən sənətkarlar silki oynayırdı. Ölkəsinin müdafiəsinə qalxan xalqın ideoloji dayağı mövcud təriqətlərin qeyri-ortodoksal, bir sıra hallarda ifrat şiəliyi və ardıcıl panteizmi ilə səciyyələnən fəlsəfi yönümlü təlimləri idi.

XIII-XVI əsrlərdə keçmiş fəlsəfi cərəyanlar zəminində yeni, özünəməxsus fəlsəfi baxışlara malik, məhz Azərbaycanda yaranmış müstəqil hürufi, nöqtəvi, qızılbaş, gülşəni və s. təriqət və ideoloji cərəyanlara rast gəlinir. Arasıkəsilməz müharibələrə və istilalara baxmayaraq, həmin dövrdə Azərbaycanda fəlsəfi fikrin inkişafına dünyəvi elmlərin yüksəlişi – XIII əsrdə Şərq alimlərinin elm ocağına çevrilmiş dünya şöhrətli Marağa rəsədxanası və Marağa universiteti, XIV əsrdə Təbrizdə dünyəvi elmlər, fəlsəfə və ilahiyyat tədris olunan Dar üş-Şəfa tibb kompleksi, XIV əsrin əvvəllərində Təbrizdə dəqiq elmlərlə yanaşı fəlsəfənin dərindən öyrənildiyi Rəbbi-Rəşidi elm şəhərciyinin yaranması, əlyazmalarını hifz edən çoxsaylı kitabxanaların və hətta ölkənin kağız istehsalına ehtiyacını ödəyən Kağazkunan şəhərinin olması təsir edirdi. Fəlsəfi və ictimai fikrin inkişafına ölkədə müxtəlif din (zərdüştilik, təktanrıçılıq, şamançılıq, bütpərəstlik, yəhudilik, xristianlıq, İslam və s.) və dillərin (türk-Azərbaycan, ərəb, fars, udi, gürcü və s.) mövcudluğu etnosların birgə qarşılıqlı anlaşma və etimad şəraitində yaşaması və mədəni əlaqələri də böyük təsir göstərirdi. Müxtəlif dinə, dilə və siyasi bölgələrə

mənsubluğu Azərbaycan mədəniyyətini və fəlsəfəsini zənginləşdirən amillər idi. Ərəb və fars dilləri ilə bərabər artıq XII əsrdən türk dili də elitar ədəbi dil kimi tanınırdı. Azərbaycanın fəlsəfi ədəbiyyatında türk-azərbaycandilli yazılı abidələr getdikcə artırdı. Bunlardan XIII əsrə aid alleqorik "Əhməd Hərami" anonim etik risaləsini, Həsənoğlu, Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai və XIII-XVI əsrlər fəlsəfi poeziyasının başqa çoxsaylı nümayəndələrinin məlum irsini göstərmək olar. Azərbaycan xalqının fəlsəfi mədəniyyəti XIII-XVI əsrlərdə əsasən İslam və xristian mədəni bölgələrində inkişaf edirdi. Lakin xristian bölgəsinin yazılı mədəni abidələri Azərbaycan albanlarının etnik assimilyasiyasına hər vasitə ilə cəhd edən erməni kilsəsinin əli ilə uzaqgörənliklə məhv olunduğundan, Azərbaycanın alban mənəvi mədəniyyəti və xüsusən fəlsəfi dünyagörüşü haqqında məlumat çox məhduddur.

XIII-XVI əsrlərdə İslam mədəni kontekstində inkişaf edən Azərbaycan fəlsəfəsi əvvəlki dövrdə olduğu kimi, teosofiya daxilində Şərq peripatetizmi, təriqət fəlsəfəsi, fəlsəfi poeziya, təfsirlər və s. formalarda inkişaf edirdi və dövrün sosial-siyasi durumu fəlsəfəyə, xüsusən genişlənən sosial bazaya malik fəlsəfi cərəyanlara, onların ortodoksal dinə münasibətinə ciddi təsir göstərirdi. Din xadimlərinin bir çox hallarda monqollar və teymurilərlə əməkdaşlığı xarici (istilaçı) və yerli sosial zülmə qarşı yönəlmiş cərəyanların fəlsəfi görüşlərində bidət təmayülünü artırırdı. Bu cərəyanlar fəlsəfədə materializm təmayüllü ardıcıl panteizmi təbliğ edir və panteizmə əsaslanan hülul nəzəriyyəsini sosial problemlərin həllinə yönəldirdi. Mistik özünüdərk və fərdi kamilləşmə artıq real məqsədlərə, siyasi-sosial məsələlərin həllinə istiqamətləndirilirdi. İslamın panteizmə əsaslanan yeni bidətçi yozumlarının sayı artır və onlara qarşı ortodoksal din və dövlət xadimləri tərəfindən aparılan amansız mübarizə şiddətlənirdi.

XIII-XVI əsrlərdə peripatetik fəlsəfənin nümayəndələri Siracəddin Urməvi, Əfzələddin Xünəci, Nəsirəddin Tusi və b. idi. Görkəmli filosoflar Mahmud Şəbüstəri, Əvhədi Marağayi isə həm peripatetizmi, həm də sufiliyi təmsil edirdilər. Həmin mütəfəkkirlərin əsərlərində fəlsəfi problemlərlə yanaşı, nücum, təbabət, riyaziyyat, məntiq və hüquq problemləri də mühüm yer tuturdu. Məntiq elmi

Şəmsəddin Məhəmməd Xalxali, Şükrüllah Şirvani, Bədrəddin Seyid Əhməd Ləlvi və b. əsərlərində işlənmişdir. Bu dövrdə peripatetizm nümayəndələri ölkə və bölgə fəlsəfi ənənələrini elmin nailiyyətləri ilə birləşdirərək bir sıra fəlsəfi problemlərin materialist təmayüllü yozumunu vermiş, hərəkət və inkişafın ümumiləşdirilmiş təsvirini, maddi və mənəvi aləmin fenomenləri arasındakı qarşılıqlı əlaqələri dialektik izah etmişlər. Dövrün peripatetiklərinin təlimi X-XII əsr Azərbaycan fəlsəfəsi ənənələrinin, elm və mədəniyyətinin nailiyyətlərinə söykənən davamı idi.

Azərbaycan peripatetizminin görkəmli nümayəndələrindən biri Nəsirəddin Tusinin (1201–74) fəlsəfi görüşləri əsasən, İbn Sinanın "İşarələr və qeydlər" kitabının şərhi, sosial etik görüşləri "Əxlaqi Nasiri", həmçinin "Kəlamın təcridi", "Qanunnamə", "Xilafətnamə", "Nəsihətnamə" və s. əsərlərində öz əksini tapmışdır. Nəsirəddin Tusinin ontoloji görüşlərindəki idealizm qeyri-ardıcıllığı ilə səciyyələnir. Dünyanın yaranması, onun əbədiliyi, substansiya və aksidensiya, materiya və forma, hərəkət və sükunət, əql və hiss arasındakı münasibətlərin şərhində bir çox hallarda onun görüşləri orijinallığı və materializmə meyilliliyi ilə fərqlənirdi. Mütəfəkkirin fəlsəfi təliminə dialektik yanaşma, maddi dünyanın dərki haqqında təsəvvürlərinə isə rasionalizm xasdır. Onun ictimai-siyasi və etik görüşləri hakimiyyətə və hakim ideoloji mövqeyə uyğunluğu ilə seçilir. O, cəmiyyətin mövcudluğu üçün sosial bərabərliyin əngəl olmasını göstərir. Mövcud sosial münasibətlərin əbədiliyindən çıxış edən Tusi onlara tabe olmağı düzgün hesab etməklə yanaşı, xalqın maraqlarına zidd olan, onu qul halına salan siyasəti naqis sayırdı.

XIII-XIV əsrlərdə Azərbaycanda Mahmud Şəbüstəri Təbrizi "Sirlər baxçası" fəlsəfi poeması ilə şöhrət qazanmışdı. O, "Həqiqət axtaranların aynası", "Səadətnamə", "Şahidnamə" və s. əsərlərində sufi panteizmi ilə peripatetizmin fəlsəfi mövqelərini, xüsusən sonuncunun rasionalizmə münasibətini birləşdirmiş, mühüm və mümkün varlıq, idrak və mərifət, nəfs, ruh, ümumi və xüsusi, bütöv və hissə anlayışlarının mahiyyəti və qarşılıqlı əlaqəsini panteizm baxımından izah etmişdir. İslamın təfsirini sufilik mövqeyindən verən Məhəmməd Təbrizinin kosmoqonik, ontoloji, qnoseoloji, etik görüşləri dialektik bünövrəyə söykənirdi. Bu

dövrdə yaşamış Zülfüqar Şirvani, Şəms Təbrizi və b. dünyagörüşü bidət yönümlü mistik panteizmi və sosial bərabərliyə istiqamətli demokratik ictimai-siyasi ideyaları ilə səciyyələnirdi.

XIV əsrdə Azərbaycanda və İslam Şərqində hürufilik fəlsəfəsinin banisi Fəzlullah Nəimi Təbrizi Astrabadi əl-Hürufi (1339/40–1393/94) olmuşdur. O, "Cavidani-Kəbir", "Məhəbbətnamə", "Ərşnamə" və s. əsərlərində hürufilik fəlsəfəsini şərh etmişdi. Sufi və ismaili fəlsəfəsindən bəhrələnən hürufilik fəlsəfəsi nisbətən ardıcıl materialist yönümlü panteizmi və mistik pərdə altında məhəbbətlə əqli birləşdirərək varlığın dərkini təbliğ edən ideya cərəyanı idi. Bu təlim ərəb və fars əlifbası hərflərini və bu hərflərin saylarını (28 və 32) ilahiləşdirir, onları hər şeyin əsasını təşkil edən dörd maddi ünsür, insan və Allahla tam eyniləşdirirdi. Hürufilər hər cür zülmə, o cümlədən Teymurilər zülmünə qarşı çıxaraq üsyanlar yolu ilə mübarizə edirdilər. Bu əqidəyə görə, Nəimi Əmir Teymurun oğlu Miranşahın əmri ilə qətlə yetirilmişdi. Lakin hərəkat davam edir və onun fəlsəfi təlimi Orta və Yaxın Şərq ölkələrində və hürufiliyin vətəni Azərbaycanda (hürufi cəmiyyəti məxfi təşkilat kimi Bakıda yaranır və Azərbaycan hürufi mənbələrində "oyanışın vətəni" adlanır) geniş yayılırdı. Şair və mütəfəkkir İmadəddin Nəsimi (1369/1370– 1417) hürufilik fəlsəfəsinin təbliğatçısı olmuşdur. Şairin Azərbaycan, ərəb və farsdilli divanları Şərq aləminə yayılaraq sufi və hürufi fəlsəfəsini poeziya dili ilə geniş təbliğ edirdi.

Hürufiliyin görkəmli nümayəndələrindən biri Azərbaycan filosofu Əli-ül-Əla idi. O, Nəiminin qətlindən sonra hürufiliyi Türkiyədə təbliğ etmişdir. Hər iki mütəfəkkir hürufiliyin panteist ideyalarının təbliğinə görə edam olunmuşlar. Bu təlimin ideya və rəmzləri İslam ölkələrinin mənəvi mədəniyyətində XVIII əsrə qədər əhəmiyyətli yer tutmuşdur.

XIII-XIV əsrlərdə Azərbaycanda panteist fəlsəfəni təbliğ edən və dinə müxalif olan müxtəlif təriqətlər arasında "Həllaciyyə" (Mənsur Həllacın görüşlərini təbliğ edən), "Əli-Allahi", "Sührəvərdiyyə" (Şihabəddin Əbuhəfs Sührəvərdinin görüşlərini təbliğ edən) və s. təriqətlər mövcud idi.

Həmin təriqətlərin içində banisi Səfiəddin İshaq Ərdəbili olan qızılbaş təriqəti və onun ideologiyası xüsusi yer tuturdu. Bu ideologiya XIII-XVI əsrlərdə təşəkkül və təkamül dövrünü keçərək sonradan Səfəvi imperiyasının şiə təmayüllü hakim ideologiyasına çevrildi. Qızılbaş sufi ideologiyası tarixən dəyişərək XIII-XV əsrlərdə təbliğ etdiyi sufi fəlsəfəsinin ardıcıl panteizmindən, sosial zülmə son qoyan insan surətində Mehdinin zühuru ideyalarından tam imtina etdi. 16 əsrdə hakim Qızılbaş ideologiyasında sufiliyin ancaq insanı təkmilləşdirən mistik əxlaq normaları, sufi və hürufi fəlsəfəsinin rəmzlərindən formal istifadə və mürşidə tabeçilik tələbi geniş təbliğ olunurdu.

XV və sonrakı əsrlərdə hürufilik zəminində təşəkkül tapmış materialist və rasionalist yönümlü ardıcıl panteizmi və ifrat bidətçiliyi ilə fərqlənən, mövcudatın əsasında nöqtəni görən mistik nöqtəvilik fəlsəfi dünyagörüşü yarandı. Nöqtəvilik hərəkatı və fəlsəfəsinin banisi F.Nəiminin şagirdi Mahmud Pəsixani idi. Təlimin dinə qarşı kəskin müxalifliyi səbəbindən Nəimi Pəsixanini hürufi təriqətindən kənarlaşdırmışdı. Azərbaycanda və İslam ölkələrində yayılmış nöqtəvilik fəlsəfəsinin nümayəndələri amansız təqiblərə məruz qalmışlar. Qədim materialistlərin, peripatetik və qeyri-ortodoksal cərəyanların fəlsəfi baxışlarından bəhrələnən nöqtəvilik fəlsəfəsi Orta əsrlərdə dünya fəlsəfəsinin fenomenlərindən biri idi.

Hürufilik, nöqtəvilik və s. bidətçi cərəyanların panteistik təlimləri ilə eyni vaxtda Azərbaycanda mötədil sufi baxışlarını təmsil edən xəlvətiyyə cərəyanı geniş yayılır. Bu cərəyanın fəlsəfi təlimi Seyid Yəhya Bakuvi, Yusuf Miskuri və b. sufi mütəfəkkirlərin irsində əksini tapmışdır. XIII-XV əsrlərdə ölkədə ortodoksal dini fəlsəfəni təmsil edən və ardıcıl idealizm mövqeyində duran mütəfəkkirlərlə qeyri-ortodoksal cərəyanların panteizmə əsaslanan və Şərq peripatetizminin təmsilçiləri olan mütəfəkkirlər arasında kəskin ideoloji mübarizə gedirdi. Belə ki, alim, məntiqçi və filosof Nəcməddin Naxçıvani (XIII əsr) İbn Sinanın "Kitab ül-işarət və-t-tənbihat" ("Göstərişlər və qeydlər kitabı"), "Şifa" və "Nicat" əsərlərini kəskin tənqid etmiş və bu tənqid bölgə mədəniyyətində geniş əks-səda doğurmuşdu. "Əhməd Hərami" dastanında İbn Sina və Şihabəddin Sührəvərdinin fəlsəfəsindən

bəhrələnənlər şər daşıyıcıları kimi təqdim edilirdi. Bir çox Azərbaycan mütəfəkkirləri İbn Ərəbinin ölkədə panteist ideyalarını yaymasını kəskin tənqid edirdilər. XVI əsrdən başlayaraq Azərbaycan fəlsəfəsində bu ideya mübarizəsi və qeyri-ortodoksal fəlsəfi fikir daşıyıcılarının tənqid və təqibi getdikcə güclənirdi.

XVI əsrdə Səfəvilər dövlətində şiəliyin hakim dövlət ideologiyasına çevrilməsilə Azərbaycan fəlsəfi fikrində sərt dönüş yarandı. Belə ki, demokratizmi ilə fərqlənən panteizm yönümlü cərəyan nümayəndələrinin bir qismi hakim ideologiyaya tabe olur, digəri isə təqib və qətllərdən xilas olmaq üçün başqa ölkələrə mühacirət edirdilər.

XVI əsrdə Azərbaycan fəlsəfi fikrində mühüm yer tutan görkəmli şəxsiyyətlər sufi-qızılbaş cərəyanının ideoloqu, poeziyada sufiliyin əsas müddəalarını ortodoksal İslam fəlsəfəsi ilə uzlaşdıran Şah İsmayıl Xətai və filosof-şair Məhəmməd Füzuli idi.

M.Füzuli Yaxın və Orta Şərq və qədim yunan fəlsəfəsindən bəhrələnərək "Mətlə ül-etiqad fi mərifət əl-məbdə və-l-məad" risaləsində mövcud inam və biliklər haqqında obyektiv məlumat vermiş, fəlsəfənin universal problemi olan başlanğıc və sona aid təsəvvürlərin təkamül yolunu izləmişdir. Füzulinin dünyagörüşü onun fəlsəfi məzmunlu alleqorik "Leyli və Məcnun" poeması, "Rindü zahid", "Bəngü-badə", "Yeddi cam", "Səhhət və mərəz" və s. əsərlərində və türk, fars, ərəb dilində yazılmış divanlarında əksini tapmışdır. Füzulinin fəlsəfi görüşləri ontoloji aspektdə panteist yönümlü idealizm, qnoseoloji aspektdə rasionalizmlə irrasionalizmin vəhdəti, varlığa dialektik yanaşma, etik və sosial aspektlərdə humanizm və demokratizmə meyli ilə səciyyələnir.

XIII-XVIII əsrlərdə Azərbaycan fəlsəfi fikri üçün bütövlükdə idealizmlə panteizmin, irrasionalizmlə rasionalizmin, mövcud sosial quruluş və etik normaların qəbulu ilə onların tənqidi, Orta əsrlərin mürəkkəb şəraitində azadfikirliliyin mövcudluğu səciyyəvi idi.

XVII-XVIII əsrlər Azərbaycanın mədəni inkişaf tarixində ən mürəkkəb dövrlərdən biri idi. XVI əsrdə Səfəvilər imperiyasında birləşmiş və nisbi dinclik əldə etmiş ölkə XVII-XVIII əsrlərdə, qısa fasilələr istisna olmaqla, Türkiyə, İran

və Rusiya arasında müharibə meydanına çevrilmişdi. Azərbaycanın işğalına yönəlmiş müharibələr və ölkədaxili zülmə qarşı xalq üsyanları kənd təsərrüfatına, şəhər iqtisadiyyatına, eləcə də xalqın mənəvi-mədəni həyatına sarsıdıcı zərbələr vururdu. Azərbaycan mədəniyyət və xüsusən təhsil sahəsində tarixən əldə etdiyi nailiyyətlərini getdikcə itirirdi. Azərbaycan filosoflarının yaradıcılığında məzhəb münaqişələrinə meyil xeyli artmışdı. Ölkədə məfkurə mübarizəsi getdikcə genişlənirdi. I Şah Abbasın hökmü ilə panteist sufilər Əbu Talib Təbrizi, Mirzə Məhəmməd Ordubadi edam edilmiş, filosof Yusif Qarabaği isə təqibdən qaçaraq Orta Asiyaya mühacirət etmişdi. Hakim ideologiyaya çevrilmiş şiəlik özünəməxsus cərəyan kimi, özündə ardıcıl idealizmi, irrasionalizmi, aqnostisizmi ehtiva edərək İslam teosofiyasının təşəkkülünə və geniş yayılmasına səbəb olmuşdu.

Bu dövrün məşhur şiə ideoloqu, riyaziyyata, astronomiyaya, məntiqə aid əsərlərin müəllifi ilahiyyatçı Ağa Hüseyn Xalxalı (?–1606) idi. O, İslam Şərqində və Azərbaycanda dini azadfikirliliyi, xüsusilə fəlsəfədə Mənsur Həllac, Cəlaləddin Rumi, Mahmud Şəbüstəri və b. mütəfəkkirlərin panteist dünyagörüşünü tənqid edirdi.

Azərbaycanın görkəmli şiə ideoloqlarından biri də XVIII əsrdə yaşamış ilahiyyatçı, oncildlik "Alimlər bağçası" əsərinin müəllifi Abdulla Əfəndi idi.

XVII-XVIII əsrlərin klassik mədəniyyəti və fəlsəfəsinin nümayəndələri Yusif Qarabaği, Saib Təbrizi, Əbd ür-Rəzzaq Dümbuli və Hacı Zeynalabdin Şirvaninin fəlsəfi görüşləri, əsasən sufizmin panteistik vəhdət əl-vücud fəlsəfəsi ilə bağlı idi. Sufi panteist fəlsəfənin nümayəndələri Məlik Seyid, Nəcibəddin Rza, Mirzə Həsən Zunuzi Fani və b. mütəfəkkirlər öz əsərlərində sosial-fəlsəfi, etik və estetik problemləri ön plana çəkirdilər. Fəlsəfə və ədəbiyyat tarixinin nəzəri məsələləri Əbd ür-Rəzzaq Dümbulinin irsində, realist estetik fikir təmsilçisi, məşhur rəssam, alim və mütəfəkkir Sadıq bəy Əfşarın "Qanun üs-Süvər" risaləsində əksini tapmışdı. Sosial-mədəni şəraitdən asılı olaraq sufi fəlsəfəsi XVII-XVIII əsrlər Azərbaycan fəlsəfi fikrində xüsusi yer tutur. Bu dövrün görkəmli sufi filosoflarının əsərlərində sosial fəallıq, dünyəvi elmlərə və mədəniyyətə maraq və rəğbət, rasionalizmə meyil diqqəti cəlb edir. Kəskin ideoloji qarşıdurmada

qeyriortodoksallığı ilə səciyyələnən fəlsəfi irsin qorunması (təbliği və nəsillərə çatdırılması), bir tərəfdən, geniş fəlsəfi şərhlərin (şərh və haşiyələrin, bəzi hallarda şərhlərə şərhlərin) yazılması, digər tərəfdən isə müxtəlif formalardan (səyahətnamə və s.) istifadə olunaraq qeyri-ortodoksal fəlsəfi fikrin obyektiv təsvirini vermək yolu ilə yerinə yetirilirdi.

XVI əsrin sonu- XVII əsrin 1-ci yarısında fəlsəfə, elm, məntiq, teosofiya problemləri ilə məşğul olan, İslam mədəniyyəti aləmində alim və azadfikirli filosof kimi tanınan Yusif Məhəmmədcan oğlu Qarabağinin fəlsəfi irsi şərh formasında idi. Sufi kübrəviyyə təriqətinə mənsub olan Y.Qarabaği Quranın şərhində ortodoksal İslam ilahiyyatçılarından fərqli mövqeyinə və sonuncuları tənqid etdiyinə görə təqiblərə məruz qalmışdı. Onun məntiq və fəlsəfə problemlərinə həsr edilmiş "Anlaşılmayan məsələlərin aradan qaldırılması üçün tamamlayıcı təfsirlər", Şihabəddin Sührəvərdinin "Nur heykəlləri" əsərinə həsr olunmuş şərhin təfsiri və s. əsərlərində varlıq, ruh, nəfs, tək və çox, makro- və mikroaləm, Kainat, insan və Allah münasibətləri, onların vəhdətdə eyniyyəti peripatetizm və sufi panteist mövqeyindən şərh edilir. Bu mövqe onun dünyagörüşünün qnoseoloji aspektindən idrak, əql, hiss və ruhun əlaqələrinin şərhində, idrak prosesinə dialektik yanaşmada (Y.Qarabağiyə görə şeylər öz daxili ziddiyyətləri vasitəsilə dərk edilir) və rasionalizmə meyil etməsində əksini tapmışdır. Y.Qarabağinin sosial və etik görüşlərində sufizmin daxili ziddiyyətləri ehtiva edilir, eyni zamanda həyatsevərlik və sosial fəallıqla tərki-dünyalıq vəhdət halında nəzərdən keçirilir.

XVII əsrdə fəlsəfi dünyagörüşü çoxşaxəliliyi və ideya zənginliyi ilə səciyyələnən Saib Təbrizinin irsi bütövlükdə onun sufi fəlsəfəsinin təmsilçisi olduğunu sübut edir. Məhz bu mövqedən vəhdət əl-vücudu qəbul etmiş Saib Təbrizi Allahın mövcud olan hər şeydə təzahüründən, idrak prosesində rasionalla irrasionalın vəhdətindən yazırdı. Onun yaradıcılığında insanın iradəsi, maariflənməsi və sosial fəallığının tərənnümü XVII–XVIII əsrlərdə sufi dünyagörüşündə demokratik istiqamətin güclənməsinə təkan vermişdir. Ortodoksal İslam ilahiyyatçıları, vaiz və zahidləri ilahi təqdiri, sosial bərabərsizliyi qəbul etməyən Saib Təbrizini təqib edirdilər.

XVIII əsr Azərbaycan və bütövlükdə Şərq fəlsəfi fikrində və mənəvi mədəniyyət tarixində görkəmli yer tutan alim-filosof və səyyah Hacı Zeynalabdin Şirvani Azərbaycan, İran, Əfqanıstan, İraq, Türkiyə, Yunanıstan, Misir, Suriya, Hindistan, Orta Asiya ölkələrinin sosial quruluşunu, dini, elmi, əxlaqi, fəlsəfi görüşlərini öyrənmiş, müxtəlif dil, din və mədəniyyətə malik olan bu bölgələr haqqında "Cənnət bağı səyahətləri", "Səyahət bağları", "Səyahət gülşəni" risalələrində məlumatlar vermişdir. H.Z.Şirvani öz dünyagörüşü mövqeyindən Mənsur Həllac, Cəlaləddin Rumi, Mahmud Şəbüstəri, Əvhədi Marağayi, Əbdürrəhman Cami və qeyri-ortodoksal baxışları ilə tanınmış başqa panteist sufilərin irsindən bəhs edir. H.Z.Şirvaninin əsərlərindəki vəhdət əl-vücud, sufi qnoseologiyası və sufilik dünyagörüşünün başqa sahələrinə həsr olunmuş ümumiləşdirilmiş xüsusi bölmələr sufi fəlsəfəsi tarixinin öyrənilməsi üçün mühüm mənbədir. H.Z.Şirvaninin dünyagörüşündə idealizmlə panteizm, qnoseoloji baxışlarında sufi qnosisi – mərifət və universal əqllə insan əqlinin bağlılığı, elmlə praktikanın vəhdəti, kamil insan və təkmil cəmiyyət haqqında konsepsiyaya və humanist əxlaq normalarına söykənən ədalətli şahlıqlar qurmaq ideyaları əsas yer tuturdu. Həmin ideyalarına görə o, təqiblərə məruz qalmışdı.

XVII–XVIII əsrlər bütöv Azərbaycanın fəlsəfi fikrinin nisbətən vahid siyasi və sosial-mənəvi inkişafının son yüzillikləri idi. XIX əsrdə Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Azərbaycan Cənub və Şimal hissələrinə bölündü. Cənubi Azərbaycanda fəlsəfi fikir ölkənin tarixi mədəni ənənələri üzərində və İranın siyasi-mədəni həyatının kontekstində təkamülünü davam etdi. Rusiya imperiyasına qatılmış Şimali Azərbaycan isə dil, din və milli mentalitet baxımından yeni sosial-mədəni reallıqlarla üzləşdi. Şimali Azərbaycanın ideoloji özünəməxsusluğunu Rusiyanın siyasi-hüquqi və iqtisadi münasibətlərinin ölkəyə nüfuz etməsi, feodal təhkimçilik münasibətlərinin təzahürləri, çarizmin Azərbaycan xalqının dini-etnik assimilyasiyasına yönəldilmiş siyasəti müəyyən edirdi. Rus çarizmi ölkədə ali rütbəli din xadimlərinin təyinində fəal iştirak edir və İslam ideologiyasından çarizmin siyasətinə bəraət qazandırmaq üçün istifadə etməyə çalışır, fanatizm, mövhumat və köhnəlmiş feodalpatriarxal əxlaq

normalarının yayılmasını dəstəkləyirdi. Çarizmin idarə üsulunun neqativ cəhətlərinə baxmayaraq, Rusiyanın həmin dövrdə Şimali Azərbaycanın ictimai-siyasi həyatına müsbət təsiri də olmuşdur. Rusiyanın ölkədaxili sosial prosesləri və imperiyada kəskinləşən sosial ziddiyyətlər Azərbaycan xalqının etnik özünüdərkinə təsir edirdi. İslamın rəsmi təmsilçilərinin bir qisminin çarizmlə sazişə girməsi ölkədə əvvəllər də geniş yayılmış qeyri-ortodoksal təriqətlərin sayını artırırdı. Təriqətlərin fəlsəfəsi əksər hallarda panteizmə əsaslanır, ictimai-siyasi mövqeyi isə hər növ zülmün tənqidinə yönəlirdi.

Azərbaycanın zadəgan ziyalı təbəqəsinin bir hissəsi XIX əsrdə təhsil almaq üçün İslam ölkələrinə, digər hissəsi isə Rusiyaya və Avropaya gedirdi. Sonuncular təhsil aldıqları ölkələrdə dil və elmlə bərabər həmin ölkələrin mənəvi-mədəni dəyərlərinə yiyələnir və vətənə qayıtdıqda bu dəyərləri öz milli dəyərləri və mənəvi ənənələri ilə birləşdirərək Azərbaycan xalqının ideologiyasının və fəlsəfəsinin təşəkkülünə təkan verirdilər. Nəticədə, Azərbaycanda universallığı ilə fərqlənən Maarifçilik cərəyanı yarandı. Avropa və Rusiyada olduğu kimi, Azərbaycan maarifçiləri də ictimai böhrandan çıxış yolunu xalqın maariflənməsində görürdülər. Beləliklə, XIX əsrdə Azərbaycan gerçəkliyinin sosial-mədəni inkişafının tələblərinə cavab verən və universallığı ilə səciyyələnən Maarifçilik hərəkatının ideologiyası və fəlsəfi görüşləri formalaşırdı. Ölkənin ideologiyasında maarifçilik fəlsəfəsinə diqqətin artmasının səbəbi əvvəlki dövrlərə nisbətən xalq təhsilinin çox ağır vəziyyətə düşməsi idi. Azərbaycan Maarifçiliyinin mədəni bazası və ölkənin sosial-siyasi vəziyyəti Qərb və Rusiya Maarifçiliyindən bir sıra xüsusiyyətləri, ilk növbədə, dinə münasibəti ilə fərqlənirdi. Bu fərqi yaradan real obyektiv səbəb rus çarizminin Azərbaycan xalqını dinindən, dilindən və milli mədəniyyətindən ayırmaq və onu etnik assimilyasiyaya uğratmaq siyasəti idi. Çünki etnik varlığını qoruyub saxlamaq xalq üçün öz din, dil və mədəniyyəti ilə bağlılığını itirməmək demək idi. Dil və mədəniyyətdən fərqli olaraq, Azərbaycan maarifçiləri dinə münasibətdə müxtəlif mövqelərdə dururdular. Bu münasibət din xadimlərinin Rusiya müstəmləkə sisteminə münasibətindən və maarifçi ideoloqların şəxsi dünyagörüşlərindən asılı idi.

XIX əsr Azərbaycan maarifçilik fəlsəfəsinin ilk təmsilçisi təbiət elmləri, tarix, məntiq, filologiya və s. sahələr üzrə əsərlərin müəllifi, şair və filosof Abbasqulu ağa Bakıxanov olmuşdur. Onun Azərbaycan Maarifçiliyinin ilk dövrünə aid fəlsəfi görüşləri "Əxlaqın tərbiyələnməsi", "Nəsihətlər kitabı", "İşıqların yerləşdiyi yer", "Camalın aynası" və s. əsərlərində, həmçinin məşhur "Gülüstani-İrəm", "Qüdsinin bağı", "Qüdsinin qanunları" öz əsərlərində əksini tapmışdır. A.Bakıxanovun fəlsəfi dünyagörüşünün formalaşmasında onun ensiklopedik biliyə malik olması, şəxsi elmi axtarışları, təmsil etdiyi Azərbaycan və Şərq mədəniyyəti və fəlsəfəsi ilə yanaşı, rus və Avropa ictimai fikri, fəlsəfi ənənələri ilə tanışlığı mühüm rol oynamışdır. Onun fəlsəfəsinin əsas qayəsi maariflənmə yolu ilə kamil şəxsiyyət yetişdirmək, ədalətli cəmiyyət qurmaq olmuşdur. A.Bakıxanovun irsində kamilləşmənin sufizmdən gələn mistik (tərki-dünyalıq yolu ilə Allaha qovuşmaq) və dünyada mədəni-fəlsəfi inkişafla bağlı zəka, elm kimi iki yolu göstərilir. Mahmud Şəbüstəri, Yusif Qarabaği və b. irsində də göstərilən bu iki yol A.Bakıxanovun kamilləşmə konsepsiyası üçün təməl idi. O, əsrinin elmi nailiyyətlərindən çıxış edərək mənəvi təkmilləşmədə elmə, elmlə əməlin (praktikanın) bağlılığına və mövcudatın rasional dərkinə xüsusi əhəmiyyət verirdi. A.Bakıxanovun fəlsəfi və etik görüşləri, əsasən "Əxlaqi kamilləşmə" və "Nəsihət kitabı" əsərlərində əksini tapmışdır. Həmin əsərlərdə fəlsəfənin, fəlsəfi və etik kateqoriyaların tərifi, onların nisbiliyi, mövcudatda səbəbiyyət, inkişaf və qanunauyğunluğun problemlərindən bəhs olunur. Bu problemlərin rasional dərkini onların kamilləşən insan tərəfindən həll edilməsi əsası kimi təsəvvür edən A.Bakıxanov, məhz bu yolla vahid ailə saydığı bəşəriyyətin xoşbəxtliyə çatmasına inanırdı. Digər tərəfdən, A.Bakıxanovun sufizm təmayüllü dünyagörüşünə görə, həqiqi xoşbəxtlik mistik kamilləşmə yolu ilə vəhdəti dərketmə və fəna yolu ilə bəqaya (İlahi əbədiyyətə) qovuşmaqdır.

İctimai görüşlərində kamil insan və təkmil cəmiyyət konsepsiyasından çıxış edən A.Bakıxanov sübut etməyə çalışırdı ki, dünya nizamının əsasını sosial bərabərsizlik təşkil edir.

XIX əsrin görkəmli mütəfəkkir, maarifçi və alimlərindən biri də, yaradıcılığı ilə Azərbaycan və rus mədəniyyətlərini təmsil edən Qazan və Peterburq universitetlərinin professoru Mirzə Məhəmməd Əli Kazım bəy idi. Bir neçə Şərq və Avropa dillərini bilən, rus şərqşünaslığının banilərindən olan Mirzə Kazım bəy XIX əsr Asiya və Avropanın elmi dairələrində şöhrət qazanmışdı. Mirzə Kazım bəyin mədəniyyət fəlsəfəsinə, Şərq ictimai-siyasi və fəlsəfi cərəyanlarına, İslam tarixinə və Quranın təfsirinə, mənəviyyat və qnoseologiya problemlərinə, dilin inkişaf qanunauyğunluqlarına həsr edilmiş əsərləri elmi dəyəri, çoxşaxəliliyi və orijinallığı ilə fərqlənir. Mirzə Kazım bəy xurafatın əleyhinə çıxmış, maarifi və elmi yüksək dəyərləndirmişdir. O, elmin milli və bölgə zəmininin olmasının vacibliyini xüsusi qeyd edirdi: “Qərb öz siyasəti ilə Asiyada maarifi bərpa edə bilməz… ölkənin islahatçıları ölkənin özündə doğulmalıdırlar”. M.Kazım bəyin “Bab və babilər” əsərində təbiətin bir-birindən fərqli, öz qanunlarına tabe üç (maddi, mənəvi və ruhani) aləmdən ibarət olmasından, təfəkkürün mənşəyinin gizli qüvvə, insan mənəviyyatının isə azad iradə ilə bağlılığından bəhs olunur. Onun “Firdövsiyə görə mifologiya” əsərində müxtəlif bölgə mifləri, onların mənşəyi və təşəkkülündə ədəbi və dini təfəkkür formaları və psixoloji amillər tədqiq edilmiş, “Şamil və müridizm”, “Bab və babilər” kitablarında isə sosial zülm və xarici istibdada qarşı yönəlmiş Şamil hərəkatı və babiliyin İslam bölgəsi təriqətləri ilə bağlı fəlsəfi, sosial, dini və etik görüşlərinin elmi şərhi verilmişdir.

Azərbaycanda Maarifçiliyin fəlsəfi ideyalarının yayılması və inkişafında şair-mütəfəkkir Mirzə Şəfi Vazeh, Seyid Əzim Şirvani və b. özlərinə məxsus yer tutmuşlar.

XIX əsr Azərbaycan ictimai-fəlsəfi fikir tarixi M.F.Axundzadənin (Axundov) “Kəmalüddövlə məktubları”, “Mollayi Ruminin və onun təsnifinin babında”, “Həkimi-ingilis Yuma cavab”, “Yek kəlmə haqqında” və s. əsərlərində əksini tapmışdır. Mirzə Fətəli Axundzadənin dünyagörüşünün mənbəyi Azərbaycan, bütövlükdə İslam Şərqi, Qərb və rus mədəniyyətləri, ilk növbədə, fəlsəfi təlimləri və elmi nailiyyətləri olmuşdur. Onun fəlsəfi irsinin ontoloji aspekti materialist və ateist, qnoseoloji aspekti isə rasionalist təmayüllü idi.

M.F.Axundzadəyə görə, Kainat – əsasında hissəciklərdən (atomlardan) ibarət maddi substansiya duran, əvvəli və sonu olmayan kamil, bütöv və vahid varlıqdır. Zaman və məkan onun zəruri atributlarıdır. Maddi varlıq daim hərəkətdədir, qanunauyğunluğa söykənir və bunların mövcudluğunda İlahi qüvvənin iştirakı yoxdur. Kainat həm yaradan, həm yaradılandır. Rasionalizmə söykənən M.F.Axundzadə maddi varlığın insan hissləri, əqli və müxtəlif elmlər vasitəsilə dərkini təsdiq edirdi. Onun dünyagörüşündə dialektika mexanistik baxışlarla birgə mövcuddur.

Kainatda qarşılıqlı əlaqə, asılılıq, səbəb və nəticə, hissə ilə tamın vəhdətini görən M.F.Axundzadə hərəkəti yerdəyişmə və təkcə kəmiyyət dəyişiklikləri kimi qəbul etmiş, zaman daxilində kəmiyyət dəyişikliklərinin isə dairəvi hərəkət daxilində baş verdiyini söyləmişdir. Başqa sözlə, M.F.Axundzadə yüksələn xətt üzrə inkişaf ideyasını qəbul etmirdi. Onun fəlsəfi əsərlərində materializm və rasionalizmin şərhi və müdafiəsi idealizm, teologiya və aqnostisizm prinsiplərinin tənqidi ilə paralel verilir. M.F.Axundzadə bir çox Azərbaycan maarifçilərindən fərqli olaraq din və dini dünyagörüşü ilə ardıcıl mübarizə aparmışdır. Onun İslam dininə, bu dinlə bağlı adət və ənənələrə qarşı radikalizmlə səciyyələnən və bir sıra məqamlarda obyektivlikdən kənar kəskin çıxışlarına səbəb dinin və dini dünyagörüşünün, Azərbaycan xalqı da daxil olmaqla, İslam bölgəsi xalqlarını maarifdən və Qərb inkişafından geri qoyduğunu hesab etməsidir. M.F.Axundzadənin ərəb əlifbasının sadələşdirilməsi, yaxud latın əlifbası ilə əvəz olunması uğrunda apardığı mübarizə də bununla bağlı idi. M.F.Axundzadə tərəfindən İslam və İslamla bağlı həyat və düşüncə tərzinin tənqidinin bir səbəbi də toxunduğu problemlərə marağı artırmaq məqsədi olmuşdur. O, azadlığın insana əzəli məxsusluğunu qəbul edir, azadfikirliliyi təbliğ edir, bəşəriyyətə azadlığı filosof və alimlərin gətirəcəyinə inanırdı. İnsanların əmlak bərabərliyindən deyil, hüquq bərabərliyindən bəhs edən M.F.Axundzadə qadınlar və kişilər arasında hüquq bərabərliyinə xüsusi diqqət verirdi. M.F.Axundzadənin fəlsəfi dünyagörüşü Şərqin mədəni həyatına böyük təsir göstərmişdir.

XIX əsr Azərbaycan maarifçilərindən olan təbiətşünas alim və mütəfəkkir Həsən bəy Zərdabi Rusiya hakim dairələrinin təzyiq və təqiblərinə baxmayaraq xalqı maarifləndirmək, ona hüquqlarını başa salmaq məqsədilə Azərbaycanda ilk azərbaycandilli qəzet və ilk milli teatr yaratmış, ölkədə ilk Azərbaycan müəllimləri qurultayının çağırılmasının təşəbbüsçüsü olmuşdur. Bir nəzəriyyəçi kimi Zərdabi xalqın "etnik özünümühafizəsi" probleminə mühüm diqqət yetirmişdir. Onun bu konsepsiyasında xalqın maariflənməsində dil, mədəniyyət və din fenomenlərinə xüsusi diqqət verilirdi. "Maarifdən təcrid olmaq xalqın məhvi deməkdir" söyləyən Zərdabi xalqın mənlik şüurunu oyatmağa, onu xurafatdan xilas etməyə çalışır, milli qırğına təhrik edən erməni millətçilərini mətbuatda kəskin tənqid edirdi. Mövhumat və cəhalətin elm və maarifə zidd olduğunu göstərən Zərdabi dini idealizm mövqeyindən çıxış edən Lev Tolstoyun insanın ilahiləşdirilməsinə aparan görüşlərini də tənqid edirdi. Cəmiyyətdə sosial bərabərsizliyə insanların elmi və mənəvi kamilləşməsi ilə son qoyulacağına inanan Zərdabi maarif zəminində siniflər arasında ümumi dil tapmağa səsləyirdi. Zərdabi bütün yaradıcılığı boyu zəhmətkeş xalqın havadarı və müdafiəçisi olmuşdur. O, əsərlərində sosial və iqtisadi məsələləri qoymaqla yanaşı, onların elmi həllinə xüsusi diqqət vermişdir. Mütəfəkkirin fəlsəfi görüşləri haqqında məlumatı onun "Torpaq, su və hava" adlı əsəri verir. Burada Yer planetinin təkamülünün elmi-materialist təsviri, onun müxtəlif tarixi dövrləri, bitki və heyvanat aləminin əlaqələri göstərilir, insanın yaranması haqqında dinə zidd fikirlər irəli sürülür.

XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində Şərq və dünya mədəniyyətində Cəmaləddin Əfqaninin mənəvi irsi xüsusi yer tutur. O, Azərbaycan, İran, Əfqanıstan, Hindistan, Misir, Türkiyə, Rusiya, Fransa, İngiltərə və s. ölkələrdə fəaliyyət göstərmiş, dövrünün qlobal sosialsiyasi və mədəni reallıqlarından çıxış edərək Şərqin Qərb müstəmləkəçiliyindən xilasının ideoloji və siyasi yollarını axtarmış, bununla bağlı nəzəri və praktiki proqramlar hazırlayaraq həmin proqramların həyata keçirilməsində şəxsən iştirak etmişdir. Sonralar Azərbaycan və Şərq İslam bölgəsinin ictimai-fəlsəfi fikrində bu bölgə xalqlarının qlobal məkanda özünütəsdiq və siyasi istiqlalının islamlaşma, milliləşmə və

müasirləşmə ideyalarına əsaslanan və müxtəlif formalarda təzahür edən nəzəri-fəlsəfi konsepsiyaları C.Əfqaninin mənəvi irsindən qaynaqlanmışdır. İdealizm mövqeyində duran C.Əfqaninin fəlsəfəsində tərəqqi, hakimiyyət, dövlət, millət, din, dil, mədəniyyət və s. sosial fenomenlərin orijinal analitik təhlili öz dövrü üçün sosial aktuallığı ilə fərqlənirdi. Onun nəzəri baxımdan XIX əsr Şərq Maarifçiliyinin liberal ideyalarına daha çox meyilli olan fəlsəfi və ictimai-siyasi görüşləri "Materializmin təkzibi", "Renana cavab", "Milli vəhdət fəlsəfəsi və birliyin mahiyyəti", "İslami reforma", "Tərəqqinin ən böyük düşməni mütləqiyyətdir" və s. əsərlərində əksini tapmışdır.

XIX əsrin fəlsəfi irsi XX əsrdə Azərbaycanda liberal Maarifçilik fəlsəfəsi ilə bərabər radikal inqilabi demokratizm və marksizm cərəyanlarının təşəkkülü üçün qaynaq və bünövrə oldu.

XX əsrdə Azərbaycan fəlsəfi fikri keyfiyyətcə fərqli bir neçə mərhələ keçmişdir: 1920-ci ilədək, 1920–1991-ci illər və 1991-ci ildən sonrakı postsovet dövrü. XX əsrin əvvəllərində dünyada, ilk növbədə, Rusiya imperiyasında sinfi ziddiyyətlər və müstəmləkəçiliyə qarşı mübarizənin inqilablar silsiləsi ilə tamamlanması və bu dövrün mürəkkəb ictimai və fəlsəfi fikrinin Azərbaycanda fəlsəfənin inkişaf qaynaqlarını təşkil etməsi ölkənin siyasi, mənəvi-mədəni və milli intibahı üçün zəmin olmuşdur. Bu illərdə Azərbaycanda, əsasən sosial fəlsəfə və etik fikir inkişaf edirdi. Dövrün ideologiyasını formalaşdıran mütəfəkkir və siyasətçilər sosial-iqtisadi, dini və milli problemlərin qoyuluşuna görə Azərbaycan sosial-fəlsəfi fikrinin keyfiyyətcə fərqli cərəyanlarını təmsil edirlər. Bunların içində liberal milli burjua və radikal marksizm təlimlərinin qarşıdurması mövcud idi. Şərqə, Qərbə və Rusiyaya siyasi və mədəni yönümlənmədə də fərqlər özünü göstərirdi. Azərbaycanda fəlsəfi fikir 1905–1907 illərə qədər, demək olar ki, tamamilə, sonra isə qismən Maarifçilik cərəyanı çərçivəsində inkişaf etmişdir. Azərbaycanın milli intellektual irsindən çıxış edən rus, Şərq və Qərb mədəni dəyərlərinə və fəlsəfi təlimlərinə yiyələnmiş ziyalılar inanırdılar ki, cəmiyyətin bütün bəlaları cəhalətdən doğur. Onlar Maarifçilik ideyalarını, elmi, siyasi və hüquqi bilikləri yaymaqla cəmiyyətin sosial dəyişməsinə, xalqın xoşbəxtliyinə,

demokratiya və humanizmin qərarlaşmasına nail olmağın mümkünlüyünə inanırdılar. Bəzi əsərlərdə Azərbaycan Maarifçiliyi sosial yönümündən asılı olaraq mülkədar, müsəlman-islahatçı, liberal-demokratik, radikal-demokratik və inqilabi-demokratik istiqamətlərə bölünür. Həmin cərəyanları birləşdirən amillər Rusiya çarizminə neqativ münasibət və milli ideya idi ki, öz təzahürünü millətin suverenliyi və hüquq bərabərliyi tələblərində tapırdı.

